

BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN ELMİ-FƏLSƏFİ VƏ İCTİMAİ-PUBLİSİSTİK QAYNAQLARI

Bakı – 2021

“Azərbaycan multikulturalizminin qaynaqları” seriyası

II kitab:

Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları

Elmi redaktor: **Kamal Abdulla** *(Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, AMEA-nın həqiqi üzvü)*

Tərtibçilər: **İlham Məmmədzadə** *(fəlsəfə elmləri doktoru)*
Sakit Hüseynov *(fəlsəfə elmləri doktoru)*
Aydın Əlizadə *(fəlsəfə elmləri doktoru)*
Adil Əsədov *(fəlsəfə elmləri doktoru)*
Əhməd Qəşəmoğlu *(fəlsəfə üzrə fəlsəfə doktoru)*
Rəşad İlyasov *(fəlsəfə üzrə fəlsəfə doktoru)*
Elsevər Səmədov *(fəlsəfə üzrə fəlsəfə doktoru)*
Aqil Şirinov *(ilahiyyat üzrə fəlsəfə doktoru)*
Əli Fərhadov *(tarix üzrə fəlsəfə doktoru)*

Rəyçi: **Kamran İmanov** *(professor, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbəri)*

Nəşrə məsul: **Rəşad İlyasov** *(BBMM-Analitika şöbəsinin müdiri)*
Redaktor: **Tahir Kazımlı**

ISBN: 978-9952-28-522-2

© BBMM, 2021

ÖN SÖZ

Multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilmişdir. Respublikamızda "Multikulturalizm ili"nin elan edilməsi mədəni müxtəliflik, birgə əməkdaşlıq, inteqrasiya, tolerantlıq və dözümlülük tendensiyasına diqqətin artırılması ilə müşayət olunur. Qeyd etməliyik ki, cəmiyyətimizdə, eləcə də beynəlxalq aləmdə multikulturalizmə marağın artması ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. Bu mənada İlham Əliyevin təşəbbüsü ilə 2011-ci ildən Bakıda keçirilən və artıq ümumdünya ənənə halını almış "Bakı Beynəlxalq Humanitar Forumu", "Mədəniyyətlərarası dialoq forumu", 2008-ci ildə əsası qoyulan "Bakı prosesi" və digər mötəbər beynəlxalq konfranslar xüsusi əhəmiyyət kəsb edir. Bu forumların təşkilində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu vardır. Görünən odur ki, müasir dövrdə miqrasiya, terror, müxtəlif dövlətlərin qarşıdurması, identiklik, müxtəliflik, bərabərlik, ayrı-seçkilik,

tolerantlıq və zorakılıq kimi ziddiyyətlərin həlli məsələsi daha çox aktuallıq kəsb edir və yaxın gələcəkdə də bu məsələlər aktual olaraq qalacaqdır. Bu baxımdan multikulturalizm siyasətinin davam etdirilməsi müasir cəmiyyətlərdə mədəni inteqrasiyanın və mədəni dəyərlərin necə yönləndiriləcəyi ilə bağlı məsələlərdir. Müasir dövrdə hər bir toplumun mədəniyyətinin göstəricisi kimi, müxtəliflik təkzib edilməz fakt olaraq qəbul edilir. Eyni zamanda, bu etiraf müxtəlif mədəniyyətlər arasında sülh və inteqrasiyanın əldə olunma yollarının axtarışında əsas şərtdir. Bu və ya digər ölkələrin mədəni müxtəlifliyinin, müxtəlif tarixi mərhələlərdə mədəniyyətlərin inteqrasiyasının və qarşılıqlı təsirinin dərk olunması üçün lokal mədəniyyətlərin qarşılıqlı təsirlərində fəlsəfə tarixinin, məntiqin, fərdi və universal dialektikanın, eləcə də universal mədəniyyətin, etika və tolerantlığın tərbiyə edilməsinin dərk olunması məqsədi ilə mənbələrə yenidən nəzər yetirmək lazımdır.

Müasir dünyada hər bir xalqın mədəniyyətində multikulturalizmin iki fəlsəfi mənası vardır ki, biri birlik, digəri isə müxtəliflik kimi qəbul edilir. Azərbaycanın mədəni müxtəlifliliyi "Azərbaycançılıq" ideologiyasının əsasında formalaşmışdır. Bu ideologiya mədəniyyətimizin bütün xüsusiyyət və komponentlərini özündə ehtiva edir. Ümummilli Lider Heydər Əliyev bu ideologiyada mədəni müxtəlifliliyin əsaslarını xüsusi olaraq vurğulayıb. Ulu Öndər həmçinin hesab edirdi ki, qədim Azərbaycanda ayrı-ayrı xalqların özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirmək mümkündür. Çünki, bu xüsusiyyətlər həmin xalqların mədəniyyət, dil, inanc, ədəbi-bədii və fəlsəfi düşüncələrində də öz əksni tapır. Qeyd olunmalıdır ki, həyat tərzi və dini dünya görüşümüzdəki mədəni müxtəliflik ölkəmizdə yaşayan xalqların təkcə dini inanclarında deyil, həm də Azərbaycanın mütəfəkkir və filosoflarının yaradıcılığında da əsas prioritet xətt kimi təzahür edir. Qədim dövrlərdən bugünə qədər Azərbaycan tarixinin

müxtəlif zamanlarında mövcud olmuş mədəni təsirlənməni müşahidə etmək mümkündür və bu proses yalnız İran, Rusiya və Türkiyə kimi qonşu dövlətlər fenomeni ilə deyil, eləcə də başqa dünya xalqlarının mədəniyyətləri ilə sıx əlaqəlidir. Burada "təsirlənmə" anlayışının əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır. Çünki, müxtəlif mədəniyyətlər Azərbaycan mədəniyyətinə, Azərbaycan mədəniyyəti isə öz növbəsində başqa ölkələrin mədəniyyətinə təsir etmişdir.

Bu məsələlərin aktuallığı "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" ilə yanaşı, həm də "elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları"nı əhatə edən antologiyada daha aydın şəkildə görünür. Xüsusən də, elmi ənənədə qəbul edilmiş mədəni müxtəlifliyin qədim zamanlardan indiki dövrə qədər təsvir edilməsi böyük əhəmiyyət kəsb edir. Təqdim olunan antologiyada bütün bu prinsiplər Azərbaycanın orta əsr alim və filosoflarından Bəhmənyar əl-Azərbaycani, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, Seyid Yəhya Bakuvi, Məhəmməd Füzuli, Fətullah Şirvani və başqalarının yaradıcılığında əks olunmuşdur. İctimai-publisistik kontekstdə multikultural və tolerant ideyalar qabarıq şəkildə XVIII, XIX və XX əsrin əvvəllərində yaşamış filosof, tarixçi, maarifçi və mütəfəkkirlərin dünyagörüşlərində daha aydın görünür. Məsələn, Mirzə Kazım bəy müxtəlif millətlərin mədəniyyətini daha yaxşı anlamaq üçün mədəniyyətlərin vəhdəti və eləcə də, onların müqayisəli təhlillərinin aparılması zərurəti haqqında söhbət açır. Seyid Əzim Şirvani müxtəlif mədəniyyətlərin təmsilçiləri arasında harmoniyanın vacibliyini vurğulayır. Eyni zamanda bu antologiyada A.Bakıxanovun, M.F.Axundzadənin, Həsən bəy Zərdabinin, Firudin bəy Köçərlinin, Əlibəy Hüseynzadənin, Məhəmmədəmin Rəsulzadənin, Ceyhun Hacıbəylinin və başqa ictimai xadimlərin əsərlərin-

dən hissələr təqdim olunur. Qeyd edilməlidir ki, multikulturalizm ideyalarının yayılmasında təkcə alimlər və filosoflar deyil, həm də səyyahlar, bu və ya digər səviyyədə əxlaqi və ictimai məsələlərlə maraqlanan publisistlər də böyük rol oynamışdır.

Azərbaycanın keçmişdə yaşamış alim və filosofları mədəniyyət dedikdə insanların həyat tərzi, fərdlərin əxlaqı və dəyərlərini nəzərdə tutmuşlar. Qədim dövrlərdən bu yana insanlar və mədəniyyətlər öz coğrafiyaları daxilində bir-biri ilə və ətraf-mühitlə qarşılıqlı münasibətdə olmuşdur. Elm tarixində "Azərbaycan məktəbi" adlandırılan və müxtəlif millətlərdən olan alim və filosofların başqa ölkələrdə təhsil və tədrislə məşğul olmaları, səyahət etmələri bunu təsdiqləyir. Orta əsrdə baş verən siyasi çəkilşmələr nəticəsində çox sayda Şirvani, Qarabağı və Naxçıvani təxəllüslü alim və filosofların Səmərqəndə, Anadoluya, Misirə, Bağdada, İstanbula və müxtəlif müsəlman ölkələrinə köçmələrini də bu kontekstdə dəyərləndirmək lazımdır.

Azərbaycan müxtəlif etnosların, konfessiyaların tarixən birgə yaşadıqları məkandır. Bu gün də ölkəmiz tolerant dəyərlərə üstünlük verir və mədəni müxtəlifliyin yaşandığı yer kimi dünyaya səs salmışdır. Bununla belə, aydındır ki, stabilliyi, təhlükəsizliyi və mədəniyyətlərarası sülhü qorumaq üçün xarici təhdid və təsirlərə də reaksiya vermək lazımdır. Bunun da yollarından biri Azərbaycan ictimai fikrinin və mədəni dəyərlərinin nəsildən-nəslə ötürülməsidir. Elmi-fəlsəfi və ictimai-publisistik antologiyanın da tərtib olunma səbəbi məhz bununla əlaqədardır. Azərbaycan mədəniyyətinin keçmişi haqqında bu antologiyanın hazırlanması üçün tədqiq edilən problemin müasir anlamda xüsusiyyətini də bu baxımdan dərk etmək lazımdır. Çünki, keçmişdə bu məsələyə lazımi diqqət yetirilməmişdir.

Beləliklə, təqdim olunan antologiya həm Azərbaycanda, həm də dünyada bu mövzu ilə əlaqədar ərsəyə gəlmiş ilk nəşrlərdən biridir. Aydındır ki, gələcəkdə bu nəşr daha da təkmilləşdiriləcəkdir. Təcrübə olaraq müəlliflər multikulturalizmin Azərbaycan mədəniyyətində üç önəmli hissəsini əsas götürmüşlər. Birinci: dini mətnlərdə dinlərə münasibət və dözümlülüyə təkan verən amillərin üzə çıxarılması. İkinci: Mədəniyyətimizin zirvəsi sayılan orta əsr Azərbaycan fikir tarixində əxlaqi dəyərlərimizin, elmin və fəlsəfənin intibah dövrü sayılmalı. Bu düşüncəyə görə mədəni müxtəliflik, dözümlülük və tolerantlıq haqqında düşüncələr və mülahizələr müasir zamanda da tərbiyəvi əhəmiyyət kəsb edir. Bu dövrün ictimai fikir adamları öz əsərlərində inteqrasiyanı, əməkdaşlıq və müxtəlif mədəniyyətlərin birgəyaşayışını, ünsiyyət, bərabərlik və dialoqu yüksək qiymətləndirmişlər. Üçüncü: Azərbaycan maarifçiliyi dövrü. Bu dövrün müasir Azərbaycan üçün əhəmiyyəti hamı üçün aydındır və hamı tərəfindən birmənalı olaraq qəbul edilir. Hər bir ölkədə modernliyin etiraf edilməsi maarifçiliklə əlaqələndirilir.

Bəzi misallar oxucularda sual yarada bilər ki, bunların multikulturalizm ilə əlaqəsi nədir? Qeyd etmək istərdik ki, misalların seçilməsində və bu multikultural əhvalın ifadə olunması bəzi açar sözlər və şərhlər vasitəsilə anlaşılacaqdır. Məsələn, bədəməllik özünütəcridin, izolyasiyanın, birlik isə xeyrin əsası kimi səciyyə olunur.

Bütün bu qeyd olunanlar onu deməyə əsas verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən çap olunan "Azərbaycan multikulturalizminin qaynaqları" seriyası çərçivəsində "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabından sonra "Azərbaycan multikulturalizminin elmi-fəslsəfi və ictimai-publisistik" qaynaqları kitabının nəşri mədəniyyətimizin və təfəkkür tərzimizin multikulturalizm aspektindən bir-birini izləməsinə şərait yaradır. Bu ardı-

cıllıq mənsub olduğumuz mədəniyyətin laylarını və qatlarını müasir dövrdə bütün bəşəriyyətə təqdim edir. Təsadüfi deyil ki, mədəniyyət tariximizdə multikultural məsamələrin və layların daha geniş və ümumi cəhətdən anlaşılması növbəti nəşrdə nəzərdə tutulmuşdur. "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları" adlanacaq yeni topluda bu fikirlər Azərbaycan multikulturalizminin qaynaqları seriyası baxımdan daha aydın, şəffaf şəkildə ortaya çıxacaqdır.

Kamal Abdulla
İlham Məmmədzadə

I FƏSİL

DİNİ MƏTNLƏRDƏ MULTİKULTURALİZM

Dünya mədəni irsinin təməlini ümumbəşəri dəyərlər təşkil edir. Bu dəyərlər ən qədim dövrlərdə formalaşıb və bu günə qədər də qüvvədə qalmaqdadır. Hər bir millətin özünün milli dəyərlərinin olması ilə yanaşı, ona ümumbəşəri dəyərlərin təsiri də vardır. Bununla da, hələ qədim zamanlarda xalqlar arasında mədəni inteqrasiyaya qədəm qoyulmuş və bu proses müxtəlif formalarda həyata keçirilmişdir. Bu gün də onlar arasında dialektik vəhdət qloballaşma prosesləri ilə müşaiyət olunur.

Bununla bərabər milli və sosial fəqlilik də qədim zamanlardan bu günə kimi dünya mədəniyyətində müstəsna rol oynamışdır. Hər bir millətin özünəməxsus özəllikləri, ənənələri, dili, dünyagörüşü vardır və bütün bunlar dünya mədəniyyətini zənginlərdirən amillərdir.

Dünyanın mədəni zənginliyini və tamlığını eyni zamanda iki amil təmin edir: biri mədəni müxtəliflilik, digəri isə ümumvəhdətə və universallığa aparan inteqrasiya prosesidir. Bütün zamanlarda bu iki amil özünü müxtəlif formalarda göstərmişdir. Bir sözlə, müxtəliflik və inteqrasiya bəzən bir-biri ilə ziddiyətdə olsa belə, hər zaman əlaqəli

olmuşdur. Bu da dialektikanın "ziddiyətlərin mübarizəsi və vəhdəti" qanununa uyğundur. Bu iki amil həm millətlərin, həm də ümümdünya mədəniyyətinin aparıcı qüvvəsidir.

Müasir dövrdə bu mövzuları əhatə edən iki anlayış vardır. Birincisi ümumbəşərilikdir ki, bu millətlər arasında dostluq və əməkdaşlıq mənasında istifadə edilir. İkincisi isə multikulturallıqdır ki, bu da bir ölkədə milli müxtəlifliklərin qorunması və inkişafına yönəlmiş siyasətdir. Ən yeni dövrümüzdə məhz multikulturalizm daha da çox əhəmiyyət kəsb etməkdədir.

Qədim dünyada mədəniyyətlərin inteqrasiyası və milli xüsusiyyətləri dövrümüzə gəlib çatan müxtəlif yazılı mənbələrdə əks olunmuşdur. Onlardan ən böyük əhəmiyyətə malik olanlar dini mətnlərdir ki, minilliklər boyu dünya xalqlarının mədəniyyətləri eyni zamanda bu mətnlərin əsasında inkişaf etmişdir.

Ən qədim zamanlardan bəri Azərbaycan ərazisində insanlar müxtəlif dinlərə etiqad etmişdir. Dinlər Azərbaycan xalqının dünyagörüşünün tərkib hissəsi olub və bu günə kimi də bu davam edir. Bu dinlərin mənşəyi birbaşa Azərbaycanla bağlı olmasa da, onların xalqımızın mədəniyyətinə çox böyük təsiri olmuşdur. Həm də azərbaycanlılar bu dinlərin gələcək tarixində və inkişafında çox böyük rol oynamışlar. Bu baxımdan dünya dinlərinin ənənəsi eyni zamanda Azərbaycanın da mədəni irsi sayıla bilər.

§1. AVESTADA MULTİKULTURALİZM ELEMENTLƏRİ

Dünyanın ən qədim dinlərindən biri olan Zərdüştilik Azərbaycanın tarixində və mədəniyyətində dərin izlər buraxmışdır. Zərdüştün yaratdığı atəşpərəstlik dini uzun zaman Şərq dünyasının mədəni və ictimai həyatına ciddi təsir göstərmiş, tarixi-siyasi prosesləri istiqamətləndirmişdir. Dünya şərqşünaslarının böyük əksəriyyəti bəşəriyyətin bu təliminin[1], dünyada iki əbədi başlanğıcın – xeyir və şər arasında əbədi mübarizənin getdiyini göstərən dinin e.ə. VI əsrdə tarixi Azərbaycan ərazilərində yarandığını, ölkəmizlə yanaşı, Kanada, Hindistan və Orta Asiyada geniş yayıldığını qeyd edirlər. Hətta XX əsrə qədər Bakıda – Suraxanda Atəşpərəstliyin məbədi Atəşgah fəaliyyət göstərmiş və hazırda bu məbəd Azərbaycanın əsas mədəniyyət abidələrindən biridir. İbn Xordadbeh, Bəlazuri, İbn Fəqih, Məsudi, Həmzə İsfəhani, Yaqut Həməvi, Qəzvini, Əbül-Fəda kimi görkəmli İran və ərəb alim və tarixçiləri də bu fikri təsdiqləyərək ilk Zərdüşt alovunun Urmiya sahilində yerə endiyini, buradan digər atəşgədələrə paylandığını yazırlar...

Zərdüştün təlimində insanlığa, bəşəri humanizmə geniş yer verilmiş, onun doğruluğa, düzlüyə, bir sözlə, insanlığa xidmətə çağıran üç əsas prinsipi (xeyirxah düşüncə, xeyirxah söz və xeyirxah əməl) bəşəri əxlaqın müəyyənləş-

[1] Zərdüştilik köhnə icma tanrılarının kultunu-politeizmi rədd edir, bu təlim üçün öz ifadəsini ali allah Ahuraməzdaya inamda tapmış monoteist ideya səciyyəvidir. Lakin Zərdüştün təlimi sonrakı dövrlərdə təhriflərə məruz qalaraq dualizm xarakteri almışdır.

məsində xüsusi rol oynamışdır. Zərdüştün təlimində insanlar irqi, sosial, etnik və s. baxımdan deyil, yalnız əxlaqları ilə fərqlənirlər. Zərdüştilük əxlaqi təfəkkürdə, düşüncədə, sözdə, əməldə, arzu və istəkdə mötədilliyi təbliğ edir, insanları zülm və qanunsuzluqdan çəkinməyə çağırır. Bu təlimdə göstərilən əxlaq normalarının birbaşa Zərdüştlə bağlılığı bəzi "Qat"larda[1] (himnlərdə) özünü daha aydın hiss etdirir.

Qeyd etmək lazımdır ki, sonrakı dövrlərdə də Azərbaycan ərazilərində zərdüşt məbədləri fəaliyyət göstərmişdir. Azərbaycan əhalisinin böyük bir hissəsi "zərdüşti" dininə etiqat etmişdir. Sonralar Xristianlığın, daha sonralar isə İslamın yayılması ilə Zərdüştilük din kimi cəmiyyətdə zəifləmiş və zamanla insanların düşüncəsindən silinmişdir. Bütün bunlara baxmayaraq zərdüştilük elementləri insanların dünyagörüşü, inancı və məişətində özünü bu gün də hiss etdirməkdədir.

Multikulturalizm və tolerantlıq kontekstində qeyd etmək olar ki, onun ilkin prinsiplərinə Zərdüşt dinində, onun ilk mənbəyi olan "Avesta"da və onun şərhləri olan müxtəlif kitablarda rast gəlmək mümkündür. "Coğrafi poema" kimi tanınan "Avesta"nın "Vidivdad" kitabının birinci fəslini buna örnək göstərmək mümkündür. Orada tanrı Hörmüzün biri-birinin ardınca on altı ölkəni yaratmasından bəhs edilir. Bu ölkələrin "Avesta"da verilməsi qədim zərdüştilərin milli qapanmadan beynəlmiləlçiliyə doğru atılan ilk addımları kimi dəyərləndirilə

[1] "Avesta"da qat sözü nəğmə, himn mənasında işlənir. Onlarda şeir rforması heca üzrə düzəlir. Qatlar vəzn və misraların sayı baxımından beş yerə bölünür və hər fəslin ayrıca adı vardır: I fəsil – Əhnəvəyqata; II fəsil – Uştəvaydxata; III fəsil – İspentəmədqata; IV fəsil – Vohuxaştraqata, V bölmə – Vəhiştoiştəqat adlanır. Zərdüşt kahinləri belə bir fikir yayırdılar ki, qatlar Ahuraməzda tərəfindən Zərdüşt vasitəsilə nazil olmuş ilahi vəhylərdir.

bilər. Belə ki, bu ölkələr zərdüştiliyin yayıldığı yerləri əhatə edir. Həmçinin, burada şər qüvvələr olan divlər və onların insanlardan olan müttəfiqlərindən bəhs edilir. Bəşəriyyətin bir başlanqıcdan yaranması və bir olması ideyası "Avesta" mətnlərində aydın sezilir. Burada qeyd edilir ki, bütün varlığı, o cümlədən bəşəriyyəti bir olan Hörmüz yaratmışdır. O həm də xeyrin təcəssümüdür. Yaratdıqlarını xeyir üçün yaratmışdır.

Hörmüzd Spitama Zərdüştə dedi: "Ey Spitama Zərdüşt! Mən hər bir yeri xoşbəxt olmasa belə, xoşbəxt olması üçün yaratmasaydım bütün cismani aləm (şər olan) Airyanu Vaəcaha[1] doğru yönələrdi".

– Mən Hörmüz, on altıncı ən yaxşı yer kimi hakimiyyətsiz idarə olunan Ranqhanı və ona qarşı isə şər ruhu yaratdım. Bu, ziyanverici qış və zülmkar hakimiyyətdir (Vidivdad, 1).

[1] Airyanu Vaəcaha - Qədimdə ölkə adı

§2. BİBLİYADA MULTİKULTURAL İDEYALAR

Tarixən tolerant dəyərləri ilə seçilən Azərbaycanda yəhudilik və xristianlıq ənənəvi dinlərdən sayılır. Həmçinin günümüzdə bu dinlərin mənsubları, bütün dinlərin və konfessiyaların nümayəndələri kimi, bərabər hüquqlara və azadlıqlara malikdirlər.

Azərbaycana kənardan gəlmiş ilk din olan yəhudilik, həm də bu ərazilərdə yayılan ilk səmavi dindir. Dağ yəhudilərinin ən sıx məskunlaşdığı yer Quba rayonunun Qırmızı qəsəbəsidir. Bura "Qafqazın yerusəlimi" adlandırılır.

Bu mənada Bibliyada multikiltural məqamlara rast gəlmək mümkündür. Məsələn, Əhdi-Ətiqdə Tanrının bəşəriyyəti müxtəlif dillərdə danışan çoxlu xalqlara bölməsi haqda bəhs olunur: "Rəbb bütün dünyadakı adamların dilini qarışdırdı və onları bütün yer üzünə yaydı" (Yaradılış 11:9). Əhdi-Ətiqdə ta qədim zamanlardan bəri dünyada mövcud olan dil rəngarəngliyinə diqqət çəkilməsi təsadüfi deyildir. Çünki dil – milli özünəməxsusluğu qoruyan əsas elementlərdən biridir.

Xristianlıq ölkəmizdə qədim tarixə və zəngin dini ənənələrə malikdir. Çünki Azərbaycan dünyanın ən qədim kilsələrindən sayılan və həvari mənşəli olan Alban Apostol Avtokefal Kilsəsinin vətənidir. Bu səmavi dinin ölkəmizdə yayılması eramızın I əsrinə təsadüf edir. Tarixi mənbələrə görə, Azərbaycanda xristian dininin yayılmağa başlaması apostol Varfolomeyin və apostol

Faddeyin, eləcə də apostol Faddeyin şagirdləri olan Yeliseyin və Marın adları ilə bağlıdır. Yeliseyin fəaliyyəti nəticəsində indiki Şəki rayonunun Kiş kəndi ərazisində "Şərq kilsələrinin anası" kimi məşhurlaşan ilk xristian kilsəsinin əsası qoyulub. Təsadüfi deyildir ki, hazırda bu kənddə yerləşən qədim alban məbədi Müqəddəs Yelisey kilsəsi kimi tanınır. Bizim eranın IV əsrində xristianlıq qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasında rəsmi din səviyyəsinə qaldırılmışdır. Belə ki, Maarifçi Qriqori Alban hökmdarı Urnayrı və onun əyanlarını xaç suyuna salmış, 313-cü ildə isə xristianlıq Albaniyada dövlət dini elan edilmişdir. VII əsrdə İslamın Azərbaycana gəlişi ilə xristianlıq tədricən əvvəlki üstün mövqeyini itirmişdir. İslam dininin regionda hakim mövqeyə yüksəlməsinə baxmayaraq, əsrlər boyu ölkəmizdə müxtəlif xristian konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq içində yaşamış, çoxsaylı xristian kilsələri azad şəraitdə fəaliyyət göstərmişdir.

Bibliyanın aşağıdakı ayələrində bəşəriyyət barədə danışılarkən "bütün millətlər", "çox xalqlar", "bütün tayfalar" kimi ifadələr işlənilir, beləliklə xristianların müqəddəs kitabında növbəti dəfə dünyadakı etnik rəngarəngliyə önəm verilir:

Axır zamanda Rəbbin - evi olan dağların zirvəsində möhkəm duracaq, təpələrdən yuxarı ucalacaq. Bütün millətlər ona sarı gələcək. Çox xalqlar gəlib deyəcək: "Gəlin Rəbbin dağına, Yaqubun Tanrısının evinə qalxaq, Qoy Rəbbimiz bizə öz yollarını öyrətsin, Biz Onun izləri ilə gedək". Siondan Rəbbin təlimi, Ye-

rusəlimdən Onun kəlamı yayılacaq. Millətlər arasında Rəbb hakim olacaq, çox xalqlar haqqında qərar çıxaracaq" (Yeşaya 2: 2-4).

* * *

Səni millətlərə nur edəcəyəm ki, korların gözlərini açasan, zindandan dustaqları, zülmətdə, həbsxanada oturanları azad edəsən (Yeşaya 42: 6-7).

* * *

Səni millətlərə nur edəcəyəm ki, xilasım dünyanın ən uzaq yerlərinə yayılsın (Yeşaya 49: 6).

* * *

Hökmranlıq Rəbbindir, Millətlər üzərində səltənət sürən Odur! (Zəbur 22: 28-29).

* * *

Səmavi Padşahlığın bu müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada vəz ediləcək (Matta 24: 14).

* * *

Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq (Yaradılış 12: 3).

İncildə yer üzündəki çoxsaylı xalqlar bir bədənin fərqli üzvlərinə bənzədilir, bununla da müxtəlifliyin bəşəriyyətin ümumi neməti olduğuna, dünyaya zənginlik bəxş etdiyinə diqqət çəkilir:

* * *

Bədən birdir və üzvləri çoxdur. Bədən üzvləri çox olduğu halda bir bədən təşkil edirlər. Məsih də belədir; çünki istər Yəhudi, istər Yunan, istər qul, yaxud azad hamımız bir bədən olmaq üçün bir Ruhla vəftiz olunmuşuq və hamımız eyni Ruhdan içirilmişik. Bədən tək üzvdən deyil, çox üzvdən ibarətdir... (1 Korinflilərə 12: 12-26).

İncildə məhəbbətlə bağlı məqamlara xüsusi diqqət yetirilir. Sevgi bir ruhi məqamdır ki, onu bütün varlığa şamil etmək mümkündür. Kamil insan ətrafında olan insanları və varlıqları sevməli, ehtiram göstərməlidir. Multikultural dəyərlərin aşılanmasında da bu kimi ayələrin müstəsna rolu vardır. Çünki, insanlar arasında sevgi və səmimiyyət hissləri son nəticədə həm fərdlər, həm cəmiyyətlər, həm də millətlər arasında dostluq və əməkdaşlıq ab-havasının yaranmasına gətirib çıxarır. Bunun haqqında Əhdi-Cədiddə deyilir:

Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin, Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin. Əgər bir-birinizə məhəbbətiniz olsa, bütün insanlar biləcək ki, siz Mənim şagirdlərimsiniz (Yəhya 13: 34-35).

* * *

Çünki Tanrı dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman gətirən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun (Yəhya 3: 16).

* * *

Hər şeydən əvvəl, bir-birinizi can-dildən sevin, çünki məhəbbət çox günahı örtər. Şikayət etmədən bir-birinizə qonaqpərvərlik göstərin (1 Peter 4: 8-9).

* * *

Ey sevimlilər, bir-birimizi sevək, çünki məhəbbət Rəbdəndir (1 Yəhya 4: 7).

* * *

İncildə bağışlama ilə bağlı çoxlu ayələrə rast gəlmək mümkündür. Bağışlama əməli ictimai həyatda böyük əhəmiyyətə malikdir. Çünki bu əməl olmadan, bütün insanlar bir-birinə qarşı amansız olar. Fərdlərin bir-birini bağışlaması son nəticədə millətlər arasındakı münasibətlərə də təsir göstərir. Bu baxımdan bağışlama, əslində, multikultiral dəyərlərin təməlində yerləşir. Ona görə də aşağıdakı İncil ayələri olduqca hikmətlidir:

Tanrının Müqəddəs Ruhunu kədərləndirməyin. Çünki satınalınma günü üçün o Ruhla möhürləndiniz. Qoy hər cür kinlə birlikdə acılıq, hiddət, qəzəb, çığırtı, böhtançılıq büsbütün sizdən uzaq olsun. Amma bir-birinizə qarşı xeyirxah, rəhmli olun və Tanrı Məsih sizi bağışladığı kimi siz də bir-birinizi bağışlayın (Efeslilərə 4: 30-32).

* * *

Durub dua edəndə kimdən narazılığınız varsa, bağışlayın ki, göylərdə olan Atanız da təqsirlərinizi bağışlasın (Mark 11: 25).

* * *

Əgər başqa insanların təqsirlərini bağışlasanız, səmavi Atanız da sizi bağışlayar. Amma siz başqa insanları bağışlamasanız, Atanız da sizin təqsirlərinizi bağışlamaz (Matta 6: 14-15).

Qeyd edək ki, millətlərarası münasibətlərdə sülhün olması olduqca vacib amildir. Sülh olmadan heç bir ülvi hiss və dəyərlərdən, xüsusən də multikultural və tolerantlıq ənənələrindən bəhs etmək mümkün deyildir. Özəlliklə də, müxtəlif millətlərin, irqlərin və dinlərin bir dövlətdə yaşaması üçün sülh amili və qarşılıqlı anlaşma olduqca aktual problemdir. Nəticədə humanizmin keşiyində duran müqəddəs kitablarda da bu mövzuya böyük yer ayrılmışdır. Belə ki, sülh haqqında müqəddəs kitabda buyrulur:

Heç kimə pislik əvəzinə pislik etməyin. Hamının gözündə yaxşı olan işlər görməyə diqqət yetirin. İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində yaşayın (Romalılara 12: 17-18).

* * *

Hamı ilə birlikdə sülh içində yaşamağa və müqəddəs olmağa can atın, çünki müqəddəsliyə nail olmadan heç kim Rəbbi görməyəcək (İbranilərə 12: 14).

* * *

Nə bəxtiyardır sülh yaradanlar! Çünki, onlar Tanrının övladları adlanacaq (Matta 5: 9).

* * *

(İsa dedi:) Məndə sülhünüz olsun deyə bunları sizə söylədim. Dünyada əziyyətiniz var, amma cəsarətli olun! Mən dünya-

ya qalib gəldim" (Yəhya 17: 33); "Sülh qaynağı olan Rəbbin Özü isə sizə hər zaman və hər vəziyyətdə sülh versin! Rəbb hamınıza yar olsun! (2 Saloniklilərə 3: 16).

Onu da qeyd edək ki, İncilin bir çox ayələrində irqçilik qınanılır. Buna örnək olaraq aşağıdakı ayəni göstərmək mümkündür:

Əgər siz "qonşunu özün kimi sev" deyən müqəddəs yazıya görə, padşahınız Tanrının qanununa həqiqətən əməl edirsinizsə, yaxşı edirsiniz. Amma, əgər insanlar arasında tərəfkeşlik edirsinizsə günah etmiş olursunuz və qanuna əsasən onu pozanlar kimi məhkum olunacaqsınız (Yaqub 2: 8-9).

* * *

Allah bütün bəşəriyyətin millətlərini bir insandan yaratdı ki, bütün yer üzərində yaşasınlar (Həvarilərin İşləri 17: 26).

* * *

Mənə verilən lütflə sizin hər birinizə deyirəm ki, lazım olduğundan artıq özünüz barədə yüksək fikirdə olmayın; lakin hər biriniz Tanrının ona verdiyi imanın ölçüsünə görə ağıl-kamalla düşünün (Romalılara, 12:3).

* * *

Bütün dünyada bir dil və bir danışıq var idi. Sonra insanlar yığışıb göylərə çatan qüllə tikmək fikrinə gəldilər. Ona görə də Tanrı onların dillərini qarışdırdı və yer üzünə yaydı. Buna görə də o yerin adına Babil dedilər, çünki orada Rəbb bütün dünyadakı adamların dilini qarışdırdı və onları bütün yer üzünə yaydı (Yaradılış, 11: 1-9)

§3. QURANİ-KƏRİMDƏ MULTİKULTURAL DƏYƏRLƏR

Bəşər tarixində mövcud olan bir neçə sivilizasiya və dinlər haqqında məlumata sahibik və sivilizasiyalar müəyyən dövrlərdə öz spesifik xüsusiyyətlərinə görə bir-birlərindən fərqlənir. Bu sivilizasiyalar əsasən Şumer, Akkad, Babil, Misir, Hind, Çin, İran, Yəhudi, Xristian, Yunan və Roma sivilizasiyalarıdır. İslam sivilizasiyası isə bu mədəniyyətlərdən sonra tarix səhnəsinə çıxmış ən nəhəng sivilizasiyalardan biridir. Bu sivilizasiyaların yer üzündə dərin və zəngin mədəniyyətlərə çevrilməsi isə onların spesifik xüsusiyyətlərindən irəli gəlir. Belə ki, bu xüsusiyyətlər həm müsbət, həm də mənfi tendensiyalar üzrə inkişaf etmişdir. Bu mədəniyyətlərə nəzər saldıqda şahid oluruq ki, mutikultural və universal dəyərlərin bu cəmiyyətlərdə formalaşması müxtəlif şəkillərdə inkişaf etmişdir.

İslamın din kimi meydana gəlməsi həm də yeni sivilizasiya tipinin ortaya çıxmasına səbəb olmuşdur. İslam müxtəlif xüsusiyyətləri ilə digər din və mədəniyyətlərdən seçilməyə başlamışdır. İslam mədəniyyətini sivilizasiya kimi formalaşdıran bir çox səbəblər vardır ki, bu səbəb və xüsusiyyətlərin əsas mənbə və istinad nöqtəsi İslamın müqəddəs mətnləri olmuşdur. İslam dini və mədəniyyətinin istinad mənbəyi Quran, hədislər və məsum imamların sözləridir. İslamda multikultural və tolerant dəyərləri məhz bu qaynaqlarda axtarmaq lazımdır. İslam din kimi formalaşdıqdan sonra müsəlman cəmiyyətində bütün irqi ayrı seçkiliyi orta-

dan qaldırmış, onun yerinə "ümmət" anlayışı bərqərar olmuşdur. Yəni, İslam dinində irqindən, rəngindən, milliyyətindən asılı olmayaraq bütün müsəlmanların qardaş olduğu vurğulanmışdır.

İslam cəmiyyətdə qadınların statusuna da aydınlıq gətirmişdir. İslamdan öncəki mədəniyyətlərdə qadınlar əşya, nəslin artırılması üçün vasitə kimi dəyərləndirilirdi. Məhz İslam qadının dəyərini yüksəldərək onu ana, cəmiyyətin bütün sahələrində kişilərlə çiyin-çiyinə mübarizə aparan insan, dəyərli varlıq kimi qiymətləndirmişdir. İslamdan öncəki dövrlərdə ərəblər qadınları ancaq əyləncə vasitəsi kimi görürdülər. Saysız hesabsız qadınları, onların heç bir hiss və duyğuları nəzərə alınmadan, özlərinə zövcə etmələri ərəblərin qadınlara aşağı gözlə baxmalarından irəli gəlirdi.

İslam ənənəsində digər din və mədəniyyət mənsublarına da fərqli yanaşma var idi. Belə ki, İslam ənənəsində digər dinlərə: xristian, yəhudi, sabiilik və s. münasibət olduqca müsbət istiqamətdə inkişaf etmişdir. Əhli-kitabdan hesab edilən bu din mənsubları zimmidən[1] hesab edilərək cizyə vergisi qarşılığında qorunma altına alınırdılar.

§3.1. İctimai inteqrasiya prosesi:

– Birləşmək, birlik, bərabərlik kimi mənaları verən və Avropa dillərində "*integration*" sözünün qarşılığı, Azərbaycan dilində inteqrasiya kimi işlədilən "*bütövləşmə*" cəmiyyətdəki kiçik ya da alt qrupları, quruluşları,

[1] Zimmi: Əhli-kitabdan olan, ancaq müsəlman cəmiyyətində yaşayan insandır.

təbəqələri və s. digər müxtəlif ictimai sistemləri və bunlar arasındakı fərqli ünsürləri birləşdirmə, tamamlama kimi halları ifadə edir. Hər hansı bir din müəyyən bir cəmiyyətdə yayılıb yerləşdiyi və kök atdığı andan etibarən, orada müxtəlif inanclar, müəssisələr, normalar, dəyərlər, adət və ənənələr, davranış modelləri vasitəsi ilə canlılıq tapır və bu şəkildə həmin cəmiyyətin sosial varlığı ilə iç-içə girərək cəmiyyət və fərdləri dini, ictimai və mədəni istiqamətdə bütünləşdirir.

İslamiyyətin bütünləşdirici xüsusiyyətinin təməlində "tövhid" yer alır. Bu əqidə bir amal uğrunda birləşməyə, dostluq və qardaşlığa, inkişafa dəvət edən "tövhid" sisteminə əsaslanır. "Tövhid" idrakı Allahı tanımaq, onu görmək kimi davranmaqdır. Çünki, "tövhid" dedikdə Allahı tanımaqla bərabər, Onun göndərmiş olduğu dini də anlamaq lazımdır. Quranda yaradılışın qayəsi bu şəkildə ifadə edilir: *"Mən insanları və cinləri, ancaq mənə ibadət etsinlər deyə yaratdım"(Zariyat, 56).* "Ancaq mənə ibadət etsinlər" ifadəsi tövhidi vurğulamaq, insanların və cinlərin yaradılış qayəsi isə Allahı tanımaq və Ona ibadət etməkdir. Allah insanları bir-birlərinin şahidləri etməklə, bizləri yardımlaşmağa səsləyərək "tövhid" əqidəsi altında birləşdirməkdədir. Yəni, İslamda "*mən*" ilə bərabər "*biz*" şüuru da var. İslamda "*Biz*" şüuru və "tövhid" prinsipi əsasdır. Peyğəmbərin hədislərində bu şüuru görə bilərik. *"Müsəlman müsəlmanın qardaşıdır"* tərzindəki bütün hədislər cəmiyyətdəki birliyin, bərabərliyin, uzlaşmanın təməlini qoymuşdur. Əlbəttə ki, İslamın birləşdirici, bütünləşdirici və uzlaşdırıcı xü-

susiyyətləri Azərbaycanda da hər zaman özünü göstərmişdir. Onlarla millətin bir coğrafi məkanda qardaşlıq hissləri içərisində yaşamaları yenə də İslamın gücü ilə bağlıdır. Çünki, İslam dini dillərin və rənglərin fərqliliyini bir zənginlik olaraq dəyərləndirir. Bütün müsəlmanları "*ümmət*" anlayışı ətrafında birləşdirir.

* * *

(Ey müsəlmanlar!) Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız, Peyğəmbər də (Muhəmməd əleyhisəllam da) sizə şahid olsun. (Ya Rəsulum!) İndi yönəldiyin qibləni (Kəbəni) yalnız Peyğəmbərə tabe olanlarla, ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik. Bu, (qibləni Beytülmüqəddəsdən Kəbəyə tərəf çevirmək) ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir. Allah sizin imanınızı (bundan əvvəl Beytülmüqəddəsə üz tutaraq qıldığınız namazlarınızı) əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir **(Bəqərə, 143)**.

* * *

Əgər Allah diləsəydi, onların hamısını (eyni dində olan) vahid bir ümmət edərdi. Amma Allah istədiyini (haqq dinə gətirməklə) Öz mərhəmətinə qovuşdurar. Zalımların isə nə bir dostu olar, nə də bir imdada yetəni! **(Şura, 8)**.

* * *

İnsanlar (əvvəlcə) ancaq tək bir ümmət idilər (eyni bir dində idilər). Sonra (aralarında ixtilaf düşdüyü üçün) ayrıldılar. Əgər Rəbbin tərəfindən öncə bir söz (ilahi hökm, təqdir)

olmasaydı (sorğu-sual və cəza qiyamətə saxlanılmasaydı), ixtilafda olduqları məsələlər barəsində aralarında dərhal hökm verilmişdi **(Yunus, 19)**.

* * *

Əgər Rəbbin istəsəydi bütün insanları (eyni dində olan) tək bir ümmət edərdi. Onlar (yəhudi, xaçpərəst, atəşpərəst və i. a. olmaqla dinləri barəsində) hələ də ixtilafdadırlar. **(Hud, 118).**

* * *

İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi. Halbuki özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin (və həsəd) üzündən (dində) ixtilafda bulunanlar kitab əhlindən başqası deyildir. Onların ixtilafda olduqları həqiqətə Onun izni (idarəsi) ilə iman gətirənləri isə Allah doğru yola yönəltdi. Allah istədiyini düz yola istiqamətləndirər **(Bəqərə, 213)**.

* * *

§3.2. Tolerantlıq mövzusu:

Respublikamızda dövlətin digər dinlərə münasibəti onu göstərir ki, Azərbaycan tolerantlıq nümunəsidir. Azərbaycanda son dövrdə dini məbəd və abidələrin yenidən bərpası ona dəlalət edir ki, Azərbaycan dövləti ayrı-seçkilik etmədən bütün dinləri və dini abidələri Azərbaycan xalqının zəngin mədəni və tarixi irsi kimi dəyərləndirir. Bu zənginlik Azərbaycan xalqının tarixi köklərinə bağlıdır. Belə

ki, Azərbaycan mədəniyyəti uzun tarixi mərhələlərdən keçərək böyük və zəngin irsə sahib olmuşdur. Qədim türk mifologiyası, Zərdüştilük ənənəsi, sonra Xristianlığın dərin təsiri və nəhayət İslam dəyərlərinin Azərbaycan cəmiyyətinə nüfuzu onu unikal mədəniyyətə çevirmişdir. Burada İslamın müqəddəs kitabı olan Quranın və İslamın digər dəyərlərinin böyük rolu olmuşdur.

Qeyd etmək lazımdır ki, İslam sülh və barış dinidir. Çünki Quranın demək olar ki, bütün surələri Rəhman və Rəhim olan (bağışlayan və rəhm edən) Allahın adı ilə başlayır. Sülh və barış dini olaraq İslam insanları bütün xarakter və xüsusiyyətləri ilə birlikdə qiymətləndirir. Onların həm müsbət, həm də mənfi xüsusiyyətlərini qeyd edir. Zaman-zaman onlar arasında sevgi ilə bərabər kinin də yaşandığı göstərilir. İnsanlar arasında həm dost, həm də bir-birlərinə qarşı düşmənçilik hissi ortaya çıxır. Bütün bunlara baxmayaraq biz insani keyfiyyətlərimiz səbəbi ilə etdiyimiz əməllərdən peşman da ola bilirik. Bu zaman bir-birmizi bağışlamağı bacarmalı, bir-birmizə qarşı tolerant yanaşmalıyıq. Necə ki, bu Quran ayələrində buyrulur:

Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır. (Onlar din və ya dünya işlərində sizin əleyhinizə çıxar, sizi ibadətdən, yaxşı əməllərdən yayındırarlar. Hətta siz bir dəfə Məkkədən Mədinəyə hicrət etmək istədiyiniz zaman onlar müxtəlif bəhanələrlə sizi bu fikrinizdən daşındırmışdılar). Onlardan özünüzü gözləyin! Amma (tövbə edəcəkləri təqdirdə) onları əfv etsəniz, (təqsirlərindən) keçsəniz və bağışlasanız (daha yaxşı olar). Çünki Allah (günahları çox) bağışlayandır, rəhm edəndir! (**Təqabün, 14)**.

* * *

Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrəbaya, miskinlərə və Allah yolunda hicrət edənlərə (heç bir şey) verməyəcəklərinə and içməsinlər. (Onları) əfv edib, (cəzalandırmaqdan) vaz keçsinlər! Məgər siz (bu yaxşılıq müqabilində) Allahın sizi (günahlarınızı) bağışlamağını istəmirsiniz? Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir! (**Nur, 22**).

* * *

Qadınlarınızın mehrlərini könül xoşluğuyla verin! Əgər onlar qəlbən, öz razılıqları ilə bundan sizə bir şey bağışlasalar, onu halal olaraq, nuşcanlıqla yeyin! **(Nisa, 4).**

* * *

Sonra əhdlərini pozduqları üçün onları lənətlədik və ürəklərini sərtləşdirdik. Onlar sözlərin (Tövratda peyğəmbərin vəsfinə dair kəlmələrin və bəzi başqa ayələrin) yerlərini dəyişib təhrif edir və xəbərdar edildikləri şeylərin bir hissəsini (Muhəmməd peyğəmbərə iman gətirməyi) unudurlar. Onların az bir qismi müstəsna olmaqla, sən onlardan həmişə xəyanət görəcəksən. Bununla belə, onları bağışla, günahlarından keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər! **(Maidə, 13)**.

* * *

Biz göyləri, yeri və onlar arasında olan hər şeyi yalnız haqq-ədalətlə (hər şeyi yerli-yerində, bir-birinə uyğun şəkildə) yaratdıq. O saat (qiyamət saatı) mütləq gələcəkdir. Sən (müşriklərdən) yaxşıca üz döndər (və ya onları alicənablıqla bağışla. Allah onsuz da onların cəzasını verəcəkdir!) **(Hicr, 85)**.

* * *

§3.3. Mədəni müxtəliflik:

Mədəni müxtəliflilik anlayışı prizmasında milli-mənəvi və dini dəyərlərin yerini və istiqamətini, uzlaşdığı və kəsişdiyi nöqtələri müəyyən edib göstərmək o qədər də asan deyil. Ancaq qeyd edə bilərik ki, mədəni və dini müxtəliflilik cəmiyyətlər üçün bir rəngarənglik və zənginlikdir. Burada milli, dini və etnik zəmində heç bir ayrıseçkiliyə yol verilməməlidir. İnsan sadəcə bir dəyər kimi qəbul edilir və onun varlığı yüksəldilir. Hələ antik dövrdən başlayaraq orta əsr Avropasında ortaya çıxan intibah ilə daha da dərinləşmiş humanizm dalğası insanı əsl bir dəyər kimi daha da ucaltmışdır.

Qeyd etmək lazımdır ki, əslində intibah dövründən əvvəl İslamın ortaya çıxması ilə insan amili dəyər qazanmışdı. İslam insanı bütün yaradılmışların, yəni bütün kainatın xəlifəsi kimi qiymətləndirmiş, onun əsl dəyərini ortaya qoymuşdur. Hətta dini rəvayətlərdə qeyd edilir ki, Allah insanı yaratmış, sonra bütün mövcud varlıqlara insana səcdə etmələrini əmr etmişdir. Bu onu göstərir ki, Allah insanı məxluqların ən şərəflisi olaraq yaratmışdır. Bu baxımdan insanın irqi, milli, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq onun əsl dəyər kimi təcəssüm etdirilməsini məhz İslamda müşahidə edirik. Belə ki, İslamın müqəddəs kitabı Quranda mədəni və dini müxtəliflilik açıq-aşkar bu şəkildə qeyd edilmişdir:

Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah ya-

nında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır (**Hucurat, 13**).

* * *

Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır! **(Rum, 22)**.

* * *

Rəbbinin mərhəmət etdiyi kimsələr istisnadır. (Rəbbin) onları bunun üçün (belə bir ixtilafa düşdüklərinə görə xoşbəxt və bədbəxt, mömin və kafir, cənnət və cəhənnəm əhli) yaratmışdır. (Allah insanların dində ixtilafda olub-olmayacaqlarını, özlərini necə aparacaqlarını əzəldən bildiyi üçün onların bütün gələcək işlərini və hərəkətlərini öz qüdrət qələmi ilə lövhi-məhfuzda yazmışdır). Artıq Rəbbinin (mələklərə dediyi): "Mən Cəhənnəmi (Allahı inkar edən) bütün cinlər və insanlarla dolduracağam!" - sözü tamamilə yerinə yetdi! **(Hud, 119).**

* * *

§3.4. Digər dinlərə münasibət:

Quranda müsəlmanlarla birlikdə digər din mənsublarına münasibət açıq şəkildə qeyd edilməkdədir. Belə ki, Quranda yəhudi, xristian və sabiilər haqqında fikirlər yer almaqdadır. Quranda onlar haqqında belə buyurulur:

İman gətirənlərdən (müsəlmanlardan), musavi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər **(Bəqərə, 62**).

* * *

Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər! **(Maidə, 69).**

* * *

Dedilər ki: Onlar dedilər: "Yəhudilərdən və xaçpərəstlərdən başqa heç kəs Cənnətə daxil olmayacaq!" Bu onların xam xəyallarıdır. De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!" **(Bəqərə, 111)**.

* * *

Yəhudilərin bir qismi (Tövratdakı) sözlərin yerini dəyişib təhrif edir və dillərini əyərək dinə (islama) tənə vurmaq məqsədilə (sənə qarşı): "Eşitdik və qəbul etmədik; eşit, eşitməz olasan (kar olasan) və raina", – deyirlər. Əgər onlar: "Eşitdik və itaət etdik; eşit və bizə tərəf bax!", – desəydilər, əlbəttə, onlar üçün daha xeyirli və daha doğru olardı. Lakin Allah onları öz küfrləri ucundan lənətə düçar etmişdir. Onların yalnız az bir hissəsi iman gətirmişdir **(Nisa, 46).**

* * *

Biz xaçpərəstik", – deyənlərdən də əhd almışdıq. Sonra onlar xəbərdar olunduqları şeylərin bir hissəsini (Muhəmməd peyğəmbərə iman gətirməyi) unutdular. Biz də aralarına qiyamət gününə qədər davam edəcək ədavət və kin saldıq. Allah onlara gördükləri işlər barəsində xəbər verəcəkdir! **(Maidə, 14).**

* * *

(*Ya Rəsulum!) Sən yəhudi və xaçpərəstlərin millətlərinə (dinlərinə) tabe olmayınca onlar səndən qətiyyən razı qalmayacaqdır. (Onlara) de: "Düzgün yol yalnız Allahın göstərdiyi yoldur!" Əgər sənə gələn elmdən (vəhydən) sonra onların (nəfslərindən gələn) istəklərinə uysan, o zaman səni Allahdan (Allahın əzabından) qoruyacaq nə bir dost, nə də bir köməkçi tapılar"* **(Bəqərə, 120)**.

* * *

§3.5. Qadına münasibət:

İslam qadın haqqları üzərində diqqətlə durmuş və qadını heç bir nizam və sistemin verə bilmədiyi müstəsna bir məqama yüksəltmişdir. Necə ki, Allah Quranda buyurur: "*Kişilərin qadınlar üzərində haqları olduğu kimi, qadınların da kişilər üzərində haqları vardır"* (**Bəqərə, 187)**.

* * *

Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib aldıqda, onu yazın! Bunu (bu sənədi) aranızdan bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yazsın! Borclu olan şəxs borcu-

nu söyləyərək (deyə-deyə) yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan (borcdan) bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə (qoca və ya uşaqdırsa), yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun (əvəzinə) vəkili ədalətlə deyib (borcu) yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər (qadınlardan) biri (şəhadəti) unudarsa, o birisi onun yadına salsın ... **(Bəqərə, 282)**.

* * *

Kəbin haqlarını təyin etmiş olduğunuz qadınları yaxınlıq etmədən əvvəl boşayarsınızsa, təyin olunmuş kəbin haqqının yarısını onlara verməlisiniz! Bununla belə, onlar (qadınlar) bunu (ərlərinə), yaxud əlində nikah müqaviləsi olanlar (ərlər) kəbin haqqının hamısını qadınlara bağışlaya bilərlər. (Ey kişilər!) Sizin bağışlamağınız (güzəştə getməyiniz) müttəqiliyə daha yaxındır. Bir-birinizə yaxşılıq etməyi unutmayın! Şübhəsiz ki, Allah sizin etdiklərinizi görəndir **(Bəqərə, 237).**

* * *

Sizlərdən vəfat edib özlərindən sonra arvadlarını qoyub gedən şəxslər həmin qadınlara öz evindən çıxarılmamaq şərtilə, bir il müddətində baxılmasını (vərəsələrinə) vəsiyyət etməlidirlər. Əgər onlar (öz arzuları ilə) çıxıb gedərlərsə, o zaman onların qəbul olunmuş qayda üzrə (şəriətə müvafiq) öz barələrində görəcəkləri işlər üçün siz günahkar deyilsiniz. Allah yenilməz qüvvət, hikmət sahibidir! **(Bəqərə, 240)**.

* * *

Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar **(Maidə, 5).**

* * *

§3.6. Sülhün əhəmiyyətinə dair:

Quranda insanları sülhə səsləyən bir çox ayələr vardır. Bu ayələrdə insanların əmin-amanlıq və sülh şəraitində yaşamaları tövsiyyə edilir. Çünki, sülh, əmim-amanlıq olmayan yerdə kin, nifrət, özbaşnalıq, hərcimərclik, yəni haqsızlıq baş qaldırır. Belə vəziyyətdə isə heç bir halda cəmiyyətin inkişafından söz gedə bilməz. Bu baxımdan da Quranda sülhün əhəmiyyəti vurğulanaraq buyrulur:

Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşmənizdir! **(Bəqərə, 208)**.

* * *

Əgər onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O (Allah hamınızın sözlərini) eşidəndir, (niyyətlərinizi) biləndir! **(Ənfal,61)**.

* * *

Bütün dinlər kimi İslam da insanları sevgi və ehtirama səsləməkdədir. Quranda sevgi hər şeyin əsasını təşkil edir. Sevgi ən asas prinsip kimi dinin də təməlində yer almaqdadır. Quranda sevgi və ehtiramla əlaqədar bir çox ayələr vardır ki, onlar insanlararası münasibətə yeni bir pəncərə açır. İnsanları insan olduqları üçün sevmələrini tövsiyə edir. Bu baxımdan, İslam insanı olduqça yüksək bir mərtəbəyə yüksəldir. Quranda insanları sevgiyə səsləyən bəzi ayələr bunlardır:

(Ey möminlər!) Ola bilsin ki, Allah sizinlə düşmənçilik etdiyiniz kimsələr (Məkkə müşrikləri) arasında (onları İslam dininə gətirməklə) dostluq (məhəbbət) yaratsın. Allah (hər şeyə) qadirdir. Allah bağışlayandır, rəhm edəndir! **(Mümtəhinə, 7)**.

* * *

Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabını (mükafatını) artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!) **(Şura, 23).**

* * *

Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha, həm sizə, həm də özlərinə nazil olanlara (Qurana, Tövrata və İncilə) inanır, Allaha boyun əyərək Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir **(Əli-İmran, 199).**

II FƏSİL

ORTA ƏSR AZƏRBAYCAN FİKİR TARİXİNDƏ MULTİKULTURALİZM

"Multikulturalizm" termini elmi leksikona son illər ərzində daxil olmuşdur. Buna baxmayaraq onun vasitəsilə ifadə olunan sosial gerçəklik, antologiyanın daxili məntiqindən də göründüyü kimi, öz başlanğıcını bəşər tarixinin ən qədim dövrlərindən alır. Müxtəlif mədəniyyət növləri ziddiyyət və qarşıdurmanın bir-birini tamamlama, bir-biri ilə vəhdət təşkil etmə məqamlarının meydana çıxmasını şərtləndirmişdir. Bu hallardan hər biri, sonuncu hal üstünlük təşkil etmək şərtilə, bütövlükdə Azərbaycan tarixi üçün, o cümlədən də ölkəmizin orta əsr fikir tarixi üçün səciyyəvidir.

Azərbaycanın elmi-fəlsəfi fikir tarixinin orta əsrlər dövrü, əslində, mədəniyyətlərin mətnlərdə bir-birinə qovuşması ilə başlayır. Tariximizdə İslam dininin qəbul edilməsi nəticəsində orta əsrlər dövründə bir tərəfdən İslam mədəniyyətinin xristian Alban mədəniyyəti və türk mədəniyyəti ilə, digər tərəfdən isə atəşpərəstliyin mövcudluğu şəraitində bu mədəniyyətlərin, bu xalqların, bu dinlərin qədim Azərbaycan coğrafiyasında qaynayıb qarışmasına səbəb olmuşdur. Bu isə özlüyündə multikultural dəyərlərin orta əsr Azərbaycanı üçün mühüm

əhəmiyyət kəsb etməsindən xəbər verir. Orta əsrlərdə ölkəmizdə müxtəlif xalqların, mədəniyyətlərin, dinlərin, dillərin, adət və ənənələrinin daha da çulğalaşdığı və bir-birilərini zənginləşdirdiyi məkan olduğu tarixi reallıqdır. Tolerantlıq, yəni bu vaxta qədər qəbul olunmuş, adi və düzgün hesab edilən normalardan fərqli olan, bu vaxta qədər əslində yad hesab edilən dəyərlərə, adət və ənənələrə münasibətdə səbr və dözümlülük göstərmək, həmin dəyərlərdə, həmin adət və ənənələrdə ruhuna və mentalitetinə yaxın olan məqamların axtarılıb tapılması və bunun nəticəsində əvvəllər özgə hesab edilən dəyərlərin, adət və ənənələrin doğmalaşdırılması, ənnənəvi olan və yeni qəbul edilən dəyərləri uğurla sintez edə bilmək keyfiyyətlərini Azərbaycanın orta əsr fikir tarixində müşahidə etmək mümkündür.

Uzun inkişafı boyu Azərbaycan mədəniyyətinin kəsb etdiyi tolerantlıq keyfiyyətləri Azərbaycan mədəniyyətinin başqa mədəniyyətlərlə dialoqa açıq olduğunu nümayiş etdirmişdir. Tolerantlıq, eləcə də multikultural dəyərlər orta əsrlər Azərbaycanında da öz təzahürünü tapa bilmişdir.

Azərbaycan xalqının multikultural dəyərlərə sadiq olması onun həm bütövlükdə bir toplum, bir xalq olaraq mənəvi dəyərlərində, dünyanı dərk etmə üslubunda, həm də xalqımızın bir çox görkəmli şəxsiyyətlərinin simasında, o cümlədən də orta əsrlərdə fəaliyyət göstərən, orta əsr ruhunda yazıb-yaradan şəxsiyyətlərin yaradıcılığında aşkar tərzdə görünür. Son dərəcə səciyyəvi haldır ki, multikultural dəyərlərə münasibətdə bu sadiqliyin

nümunələrini biz Azərbaycanın ən dahi, ən görkəmli şəxsiyyətlərinin həm genetik mənşələrində, həm həyat tərzlərində, həm də onların yaradıcılığında aydın görə bilirik.

Azərbaycan mütəfəkkirlərinin ərəb və fars dillərini mükəmməl bilmələri və bu dillərdə möhtəşəm əsərlər ortaya qoymaları Azərbaycan ədəbiyyatı, elmi-fəlsəfi düşüncəsi üçün xüsusi əhəmiyyət kəsb edir. Dünyamiqyaslı görkəmli filosoflarımızdan Nəsirəddin Tusi, Şihabəddin Sührəvərdi, Siracəddin Urməvi, Nəcməddin Naxçıvani həm ərəb və fars dillərini, o cümlədən yunan, yəhudi dillərini də mükəmməl bilərək, dünya elm tarixinə öz töhfələrini vermişlər. Nəsirəddin Tusi İslam mədəniyyətini ona tamamilə yad olan köçəri monqol mədəniyyəti ilə ortaq məxrəcə gətirə bilmiş nəhəng simalardan biri olmuşdur. Misal üçün qeyd etmək mümkündür ki, Tusinin formalaşdırdığı Marağa rəsədxanasında Çinli alim-astronom belə çalışırmış. Siracəddin Urməvi xristan dininə və mədəniyyətləinə mükəmməl bələd olması sayəsində Əyyubi Sultanı Nəcməddin Əyyubun dövründə (1240-1249) sultanın elçisi kimi 7-ci səlib yürüşünə başçılıq etmiş Fransa kralı IX Lüdovikin (1214-1270) sarayına getmiş, məntiqə dair yazdığı əsəri krala ithaf etmişdir. Nəticədə IX Lüdovik də öz növbəsində ona böyük hörmət və ehtiram göstərmişdir.

ƏBÜLHƏSƏN BƏHMƏNYAR əl-AZƏRBAYCANİ

(993-1066)

Əbülhəsən Bəhmənyar əl-Azərbaycani orta əsrlərdə Azərbaycanda və bütün müsəlman dünyasında geniş yayılmış əsas fəlsəfi cərəyanlardan biri olan peripatetizmin (məşşai) ən görkəmli nümayəndələrindən biridir. O, İbn Sinanın ən qabaqcıl tələbələrindən biri olmuşdur. Belə ki, İbn Sina ilə Bəhmənyarın fəlsəfi müzakirələrini ehtiva edən "əl-Mübahəsat" (Müzakirələr) adlı əsərdə İbn Sinanın Bəhmənyarı "Fəzilətli şeyx" (əş-şeyxul-fazil) adlandırması müəlliminin ona verdiyi dəyəri göstərir.

Bəhmənyar əsərlərini ərəb dilində yazmışdır. Filosofun əsərlərindən bizə qədər gəlib çatanlar bunlardır: "Metafizika elminin mövzusu haqqında" və "Mövcudatın mərtəbələri" (hər iki traktat 1911-ci ildə Qahirədə, həmçinin alman dilinə tərcüməsi ilə birlikdə Leypsiqdə nəşr edilmişdir). Bundan başqa, Bəhmənyarın üç kitabdan ibarət ensiklopedik "Ət-Təhsil" əsəri ərəb dilində Tehranda və Qahirədə, tam şəkildə rus dilində, qismən Azərbaycan dilində Bakıda nəşr edilmişdir. Bu əsərin rus dilinə tərcüməsi isə A.Saqadeyev tərəfindən həyata keçirilib və ən uğurlu tərcümələrdən biri hesab edilir.

Bəhmənyarın əsərlərindən bir çox bölümlər görkəmli alim Zakir Məmmədov tərəfindən Azərbaycan dilinə tər-

cümə edilib, nəşr olunmuşdur.[1] Filosofun əsərlərində tolerantlığın əsasını təşkil edən dözümlülük, başqasına qarşı nifrəti büruzə verməmə, xoşgörü kimi hisslər"qəzəb" və "bədəməllik" kateqoriyalarına aid edilir.

Bəhmənyar qəzəb və bədəməlliyi özünütəcrid, birlik və bərabərliyi isə xeyrə yönəlmə kimi xarakterizə edir. Məhz özünütəcrid, birlik və bərabərlik məfhumları multikulturalizmin əsas anlayışlarındandır.

* * *

Bədəməllik – varlığın olmaması və ya varlığın mükəmməlliyinin olmamasıdır.

* * *

Əgər qüvvə xoş olan bir şeyə çalışırsa, bu arzu qüvvəsidir, əgər qüvvə nəyinsə üzərində üstünlük əldə etməyə çalışırsa və özünə qarşı durana müqavimət göstərirsə, bu qəzəb qüvvəsidir.

* * *

Tanrı yaxşılıq və gözəlliyin özüdür.

* * *

Tanrı bütün varlıqları sevəndir.[2] Özü də seviləndir.

* * *

Həqiqi həzz əqli həzzdir.

---

[1] Zakir Məmmədov "Şərq Fəlsəfəsi" (IX-XII əsrlər), 1999.

[2] Burada varlıqlar deyildikdə mövcudat aləmi, yəni xarici aləmlə yanaşı ictimai səviyyənin, cəmiyyətin də varlıq sahəsinə daxil olduğuna işarə vardır.

EYNƏLQÜZAT MİYANƏÇİ

(1099-1131)

Azərbaycan fəlsəfi fikrinin tanınmış simalarından, əslən Təbrizlə Naxçıvan arasında yerləşən Miyana şəhərindən olan Eynəlquzat Miyanəçi Həmədanda doğulmuşdur. Gənc yaşlarından filosof kimi formalaşan insanlardan biridir. Tanınmış bir ailədən olan Miyanəçi yüksək intellektinə, savadına, əxlaqi keyfiyyətlərinə görə Həmədanın baş qazısı vəzifəsinə qədər yüksəlmişdi. Amma, öz dünyagörüşü sayəsində o dövrün şəriət çərçivələrini aşdığına, azad fikirli bir insan kimi tanındığına görə 28-29 yaşlarından başlayaraq ona qısqanclıq hissi ilə yanaşan bəzi mühafizəkar fəqihlər tərəfindən təqib olunmağa başlanmışdır. Ayrı-ayrı yerlərdə onu kafir elan edib, ölümünə fətva verilirdi. Fətvaların verilməsində onun müridi olan məşhur siyasi xadim Əzizəddin Müstövfinin siyasi rəqibi olan Sultan Səncərin vəziri Qivaməddin Dərgəzininin xüsusi rolu olmuşdur. Bu ittihamlar nəticəsində Miyanəci 1128-ci ildə həbs edilmiş və Bağdad həbsxanasına salınmışdır. Həbsxanada fikirlərinin küfr olmadığını müdaifə üçün dostlarına xitabən "Ölkələrin alimlərinə vətəndən ayrı salınmış qəribin şikayəti" (Şəkval-Ğarib) adlı əsərini yazmışdır. Miyanəçi 33 yaşında Həmədanda bir vaxtlar dərs dediyi mədrəsədə edam edilmişdir.

Onun "Həqiqətlərin məğzi" (Zübdətül-Həqaiq),"-Müqəddimələr" (Müqaddimət) və "Qəribin şikayəti" adlı əsərlərində təsəvvüfün müxtəlif məsələlərinə dərindən diqqət yetirilmiş, onların bir çoxu Quran ayələrinin

daxili məzmun və batini yozumları ilə bitkin fəlsəfi düşüncə ilə izah edilmişdir. Miyanəcinin düşüncə sisteminin formalaşmasında məşhur sufi mütəfəkkir Əhməd Qəzalinin xüsusi rolu olmuşdur.

Miyanəçi eyni zamanda istedadlı şair olmuşdur. O, öz şeirlərində fəlsəfi düşüncələrini poetik bir dillə əks etdirirdi. Onun istər elmi əsərlərində, istərsə də şeirlərində humanizm, Allahın bəndəsi olan bütün insanlara məhəbbət prinsipləri geniş əks olunmuşdur. İrəli sürdüyü idrak təlimi ilə vəhdəti-vücud prinsiplərinə, təsəvvüfi mövqeyə yaxın olan mütəfəkkir, şəriət qanunlarının təkmilləşdirilməsində idrak amilinə də mühüm yer verilməli olduğunu dediyindən, azadfikirlilik – İslamı normaların təftişi tərəfdarı kimi tanınmışdır.

Filosof öz əsərlərində açıq şəkildə ifadə edir ki, dini kitabları əsas gətirərək yaradılan məzhəblərin heç biri həmin dini kitabların tələblərinə cavab vermir. Onların hamısında yanlışlıqlar vardır. Bu fikirdən isə o anlaşılır ki, cəmiyyətdə məzhəblər əsasında qarşıdurma yarandıqda hansı məzhəbin daha doğru movqedə olduğunu qəbul etmədən əvvəl, onların dediklərinin, irəli sürdükləri tələblərin əsaslandıqları dini kitabların tələblərinə nə dərəcədə uyğun olduğunu yoxlamaq lazımdır. Bu prinsip multikultural mühitin yaradılmasında çox mühüm rol oynaya bilər. Dostu qazı Kamalüddövləyə yazdığı məktubunda o, xurafata qarşı etirazını əks etdirir. Dini təlimlərin hansı vəziyyətdə olduğunu, bütün bunlardan bezdiyini, bu sahədə düşündüklərini deyə bilmədiyini, belə dolaşıqlıq içərisində yaşamaqdansa ölüb getməyin daha məqbul olduğunu söyləyir. Bu məktub tarixin bütün dövrlərində dində cəhalətin güclənməsinin cəmiyyətdə gərginlik yaratdığını göstərir.

Miyanəciyə görə, kainat ilahi eşqin əsəridir. Buna görə də Allahı tanımağın yeganə yolu eşqdir. Eşq bütün varlıqlara öz rəngini vermə qabiliyyətinə malik olan bir substansiyadır. Miyanəciyə görə, bütün varlıqlar tək bir ilahi eşqin əsəridir və bu baxımdan Allahın yaratdığı bütün varlıqlara və bu varlıqların ən seçilmişi olan insana hörmətlə yanaşmaq lazımdır. İctimai zəmində isə bütün mədəniyyətlərin formaca müxtəlif, ancaq məzmunca eyni olduğunu irəli sürmək mümkündür. Belə ki, kainatda olan hər şey tək bir eşq substansiyasının müxtəlif rənglərdir.

* * *

Bir qövmün qarşılaşdığı təhlükələr başqa qövm üçün faydalı ola bilər[1].

Sənlə mənim arasında çəkişir mənimlə "mənliyim", lütfünlə qaldır aramızdan bu "mənliyimi" mənim.[2]

Varlıq (mövcudat) Haqqın isim və sifətlərinin təzahürüdür.

* * *

"Mülk aləmi əşya, kəlmə və hisslərdən ibarətdir".[3]

---

[1] Burada müxtəlif etnoslar üçün müxtəlif dəyərlərin izafi və fərqli mənalara gəliyindən bəhs edilir.

[2] Təsəvvüfdəki "mən" və "sən" məfhumları eyni zamanda multikulturalizmdəki "mən" və "başqası" kateqoriyaları ilə paralellik təşkil edir. Metafizik cəhətdən təsəvvüf fəlsəfəsində "mən" və "sən" İlahi mərtəbədə "O"na çevrilir. Nəticədə nə "mən" qalır, nə də "sən", yalnız "O"...

[3] Miyanəçi mövcudat, mülk aləmi dedikdə eyni zamanda ictimai münasibətləri, ictimai sahəni də varlıq kateqoriyası baxımından qeyd edir:

XAQANİ ŞİRVANİ
(1126-1199)

Xaqani Şirvani Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Şamaxıda dünyaya gəlmişdir. İlk təhsilini əmisindən alan Şirvani gənc yaşlarından dini elmlərlə yanaşı təbiət emlərinə də maraq göstərmişdir. O, böyük şair-filosof kimi şöhrət qazanmış və dövrünün hökmdarı onu sarayına dəvət etmişdir. Sarayda da o, elm, dini, fəlsəfi dünyagörüşü ilə diqqət çəkmiş və daha böyük şöhrət qazanmışdır. Xaqani Şirvani ömrünün sonlarını Təbrizdə keçirmiş və orada da vəfat etmişdir.

Xaqaninin ədəbi-bədii irsi əsasən şeir, qəzəl, mədhiyyə, mərsiyə və rübailərdən ibarət 17 min beytlik şeirlər divanı, "hfətul-İraqeyn" poemasından və 60 məktubdan ibarətdir[1].

Xaqaninin ədəbi-bədii, dini-fəlsəfi yaradıcılığına nəzər saldıqda görərik ki, o döğrudan da mədəni kimliyə sahib şəxsiyyət olmuşdur. O, bütün din və mədəniyyətlərə əsl filosof kimi münasibət bəsləmiş, insanları dini və irqi mənsubiyyətlərinə görə deyil, məhz onların malik olduqları mənəvi keyfiyyətlərinə görə qiymətləndirmişdir.

[1] Məlumat üçün bax. *"Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları"*, (səh 22-32) *Elmi redaktor.*

* * *

Şirvan məhbəsindən uzağa getdim,
Bir məqsəd dalınca İraqa getdim.
Qaldı Qara dəniz mənim arxamda,
Səfidrud çaynı keçdim bir anda.
Gördüm Kuhistana çatıb, nəhayət,
Səkkiz behişt kimi yeddi vilayət.
Torpağı İsaya tutiya verər,
Daşları Musaya kimiya verər[1].

* * *

Zərdüştün adının əvvəlidir zər,
Zərə səcdə edir atəşpərəstlər.

* * *

Pars odu püskürür dodaqlarımdan,
Edib hind xəncəri qəlbimi şan-şan.

* * *

Bir ovucdur onlar - İsmayililər,
Bunlar bir dəstədir - israyililər.

* * *

O vüqarlı, süsən iyli türk gözəlin görəndə,
Mənim könül sirlərimi sanayarsan, ey nəsim!

* * *

Budur, bir fars hicazlıyla yola çıxdı qol-qola,
Kəsra dəxi çağrıldı ki, Nemanı[2] *salsın yola.*

---

[1] Bu beyt məşhur dini rəvayət ilə bağlıdır.Rəvayətə görə İsa peyğəmbər korun gözünü açmışdır. Musa peyğəmbərin isə əli işıq verirmiş. Xaqani burada Kuhistan torpağının bərəkət qüdrətini göstərmək üçün onun İsanın gözlərini işıqlandıra biləcəyini, Musanı özünün möcüzəsi ilə heyran edəcəyini nəzərə çatdırmaq istəyir.

[2] Neman (Neman ibn Münzir) - orta əsrlərdə Ərəb İraqında öz mərkəzi şəhərinin (Hiyrə) adı ilə adlanan bir ərəb məmləkətinin 18 hökmdarından biri olmuşdur. Hiyrə uzun zaman Sasanilərin hakimiyyəti altında olmuş, onun məlikləri də Sasani hökmdarları tərəfindən təyin edilmişdir. Neman 22 il Hiyrədə Nuşirəvanın və onun oğlu Xosrov Pərvizin vassalı vəziyyətində hakimiyyət sürdükdən sonra Mədainin Qəsri-Kəsra sarayında yaşayan ərəb rəislərindən Zeyd ibn Ədnin fitnəsi ilə Nuşirəvanın əmrilə öldürülmüşdür.

NİZAMİ GƏNCƏVİ

(1141-1209)

Nizami Gəncəvi dünya tarixinin ən tanınmış, dahi şair-filosoflarından biridir. Azərbaycanın Gəncə şəhərində anadan olmuş və orada da vəfat etmişdir. Əsərlərinin əksəriyyəti "Xəmsə"(beşlik) adlı beşcildlikdə toplanmışdır. Onun yaradıcılığında mənəvi zənginlik, fəlsəfi fikir, milli və beynəlmiləl ruh, dünyəvi və ilahiyyat elmləri ilə poeziyanın qeyri adi bir vəhdəti yaranmışdır. Təkcə Şərqin deyil, Qərbin də əksər şair və mütəfəkkirləri Nizami yaradıcılığından hər zaman heyranlıqla bəhs etmişlər. Nizami dünya poeziyasının, dünya mədəniyyətinin bir nəhəng siması kimi qəbul olunmuşdur[1].

Nizaminin multikiltural və universal dəyərləri ehtiva edən fikir və ideyaları onun bütün əsərlərində öz əksini tapmışdır. Nizamiyə görə kainatda hər şey cəzbə bağlıdırsa, təbii ki, o zaman ölkə əhalisi arasında da cəzb, qarşılıqlı məhəbbət hissləri olacaqdır. Çünki bu, kainatın, təbiətin və cəmiyyətin qanunudur. Ölkənin abadlığı, tərəqqisi məhz əhali arasında qarşılıqlı ahəngdar münasibətlərin və məhəbbətin olmasından asılıdır. O, ölkənin tərəqqi etməsi üçün ilk növbədə burada yaşayan əhalinin bütün təbəqələri arasında mehribanlıq, qarşılıqlı hörmət və məhəbbət hisslərinin olmasının vacib-

[1] Müqaiyəs üçün bax." *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları*" (səh 35-44). *Elmi redaktor.*

liyini vurğulayır. Aydındır ki, qədim Şərqdə "adil şah", yəni ağıllı, ədalətli şah obrazı və modeli hər zaman ideal olaraq götürülmüşdür. Nizami də bütün əsərlərində şahın adil olmasının əsas şərtlərini göstərir. Şahın əsas vəzifəsi ölkədəki əhalinin rahat yaşamasını təmin etmək, insanlar arasındakı münasibətləri düzgün tənzimləmək və bütün bunların nəticəsində isə cəmiyyətdə bolluq və əmin amanlıq yaratmaqdan ibarətdir.

Şair dəfələrlə qeyd edir ki, artıq bütün yer üzü, tarix boyu bunu sınamışdır ki, harada kin varsa orada zərər, harada sülh varsa orada hökmən xeyir vardır. Əks təqdirdə insanlar arasında münaqişə, bunun nəticəsində isə cəmiyyətdə xaos yaranacaqdır. Bu baxımdan o, birlik və bərabərliyin nə qədər zəruri olduğunu göstərir. Çünki, birlik olan yerdə güç və zəfər vardır.

"İsgəndərnamə" poemasında Nizami dəfələrlə qeyd edir ki, İsgəndər tutduğu hər torpaqda ancaq nizam-intizam, qayda-qanun yaratmaq, oranın çalışanlarını, əhalisini pis əməllərdən çəkindirmək, dövrün arzu olunmaz vərdişlərindən islah etməyə çalışırdı. O, heç kimə zərər verməməyə çalışır, hər kəsin haqqını qoruyurdu. Məhz elə bu xüsusiyyətlərinə görə o, tarixə belə böyük sərkərdə kimi düşmüşdür. Poema İsgəndərin dünyanı fəth etmə arzusunun multikultural dəyərlərə söykəndiyini göstərir. Yunan fəlsəfəsinin qızıl dövrünün ideyalarına köklənən fatehin dünyanı fəth etməkdə əsas məqsədinin yer üzündə hər yolundan azanı tərbiyə etmək, zülmü ortadan qaldırmaq, bütün münasibətləri ədalət prinsipi üzərində formalaşdıraraq, xalqlar arasında ahəngdar münasibət

qurmaq olmuşdur. Bu, tarixin bütün dövrlərində dünyanın dahi, mütərəqqi insanları tərəfindən multikultural dəyərlərə bir tələbat olduğunu göstərir.

Bu baxımdan Nizami əsərlərində hər dəfə müxtəlif dinlər və etnik mənsubiyyətləri hörmətlə yad edərək, onları bir ocaqdakı közlər kimi təsvir edir. Ocaq isə Nizamidə müqəddəslik rəmzi, həyat və inkişaf simvoludur. Bu baxımdan, cəmiyyətin bir ocaq kimi yanmasına ehtiyac vardır. Həmin ocaqda hər bir kəsin öz yeri, öz rəngi, öz payı görünməkdədir. Şair cəmiyyətdə insanlar arasında qarşılıqlı hörmət və ahəngdar münasibətin mövcudluğunu ölkənin tərəqqisinin, əhalinin rahatlığının təminatçısı kimi görür.

* * *

Şah çalışıb ölkəni abad edər,
Qayğı ilə xalqı müdam şad edər.
Onda məhəbbətlə baxar xalq ona
Tabe olar verdiyi hər fərmana.

* * *

Müxtəlif nəğmələr, müxtəlif pərdə
Birləşsə xoş ahəng çıxar bir yerdə.

* * *

...Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhdən xeyir almış, kinindən ziyan.

* * *

İsgəndər uğurlu şah olduğundan
İşində ayıqdı hər an, hər zaman.

Dünyanın sazını əlinə aldı,
Ancaq şəfqət deyə xoş hava çaldı.
Kəməndi altına girincə dünya,
Uymadı ürəyə yatmaz havaya.
Böyük kimsələrə vermədi ziyan,
Asayiş altında yaşadı hər yan.

* * *

Bir türkdü, rumluydu əsil nəsəbi,
Hindlilər göz nuru vermiş ləqəbi.
Yunisin məşəli, kəlim çırağı,
İsanın bəzmidir[1]*, İbrahim bağı.*

[1] bəzm - məclis

ŞİHABƏDDİN YƏHYA SÜHRƏVƏRDİ
(1154-1191)

Şihabəddin Yəhya Sührəvərdi Cənubi Azərbaycanın Zəncan əyalətindəki Sührəvərd kəndində dünyaya göz açmışdır. İlk təhsilini Marağada alan Şihabəddin dövrünün böyük filosofu kimi tanınmış, təsəvvüf fəlsəfəsinin görkəmli nümayəndələrindən biri, işraqilik fəlsəfəsinin yaradıcısı kimi elm və fəlsəfə tarixində özünəməxsus yer tutmuşdur. O, hələ gənclik illərindən mütərəqqi fəlsəfi ideyaları ilə çıxış edərək azadfikirlilik tərəfdarı kimi şan-şöhrət qazanmışdır. Məhz onun bu xüsusiyyətləri görünüşdə ənənə tərəfdarları kimi bəzi siyasi xadimləri və din adamlarını təşvişə salmış və onların təhriki ilə də öldürülmüşdür. Buna görə də o öldürülmüş mənasını verən "Şeyx əl-Məqtul" ləqəbi ilə də tanınır. Əksər Şərq müdrikləri kimi, onun da poeziyaya xüsusi rəğbəti olmuş, şeirlərində sufi, işraqilik görüşləri əks olunmuşur[1]. Ümumiyyətlə, onun əlliyə yaxın elmi əsərinin olduğu bilinməkdədir.

Sührəvərdinin əsərlərində, ümumiyyətlə fəlsəfə elmində "aksidensiya" ("ərəz") dedikdə təsadüfi, dəyişən, müvəqqəti, qeyri mühüm olanlar nəzərdə tutulur. Bu fəlsəfəyə görə hər bir ölkəni, müqayisədə cisim kimi götürdükdə, orada olan müxtəlif sosial-psixoloji

[1] Bax. "*Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları*" (səh. 45-46) *Elmi redaktor.*

özəllikləri, o cümlədən müxtəlif dini, etnik mənsubiyyətləri və s. aksidensiyalar kimi götürmək mümkündür. Ölkə də, onun özəllikləri, müxtəlif sosial-psixoloji təbəqələri də onları yaradan qüvvənin konkret qanunauyğunluqlarının təsiri altındadırlar.

Sührəvərdinin fəlsəfi sistemində nur və zülmət görüşü xüsusi yerə malikdir. İşraq fəlsəfəsinin əsasını Nurun təbiəti və yayılması düşüncəsi təşkil edir. Filosof əşyanın ya nur, ya da qaranlıq olduğunu deyir. Ancaq bu iki məfhum arasında bir mübarizə yox, bir dərəcələnmə mövcuddur. Belə ki, hər pillə özündən sonrakına görə qaranlıq, özündən əvvəlkinə görə nurdur. Filosofun bu düşüncələrini ictimai zəmində dəyərləndirsək, deyə bilərik ki, bütün varlıqlar öz nurunu, aralarında dərəcələnmə fərqi olmaqla birlikdə, Nurlar – Nuru olan Tanrıdan alır. Bu baxımdan bütün varlıqlar ilahi nurun əsəridir. Ona görə də, insan kainata və kainatın bir hissəsi olan cəmiyyətə bölücü deyil, bütünləşdirici gözlə baxmalı, müxtəlif mədəniyyətlər arasındakı zahiri fərqlilikləri eyni bir nurun fərqli mərhələlərdəki təzahürü kimi görməlidir. Bu baxımdan deyə bilərik ki, Sührəvərdinin fəlsəfi sistemi ictimai zəmin üçün müxtəlif mədəniyyətlərin bir-birini qəbul etməsini mümkün edir.

Sührəvərdinin fikirlərindən həm də o fəlsəfi nəticə çıxır ki, əgər yer üzündə, cəmiyyətdə hansısa bir nizam pozulursa, təbii, dialektik inkişaf qanunlarına zidd olaraq fəaliyyətdə olursa, o zaman göy üzü – kainat qüvvələri də buna müdaxilə edib, nizam yaratmağa çalışır. Alimin fikrincə, cəmiyyət sadəcə özü-özünü tənzimləyə bilməz, onun idarə olunmağa ehtiyacı vardır. Deməli,

cəmiyyətdə multikultural mühit öz-özünə yarana bilməz. Bu mühitin yaranması üçün hökmən ciddi idarəetmə mexanizmi olmalıdır.

Sührəvərdi belə hesab edir ki, cəmiyyətdə insanlar, sosial təbəqələr arasında fərqli münasibətlər, qarşıdurmalar sonradan meydana gələn "düşüncəli nəfsin" hesabına üzə çıxır.

Sührəvərdi fəlsəfəsindən irəli gələrək cəmiyyətin mahiyyəti ilə onun müxtəlif sosial təbəqələrdə inikas olunmuş təsəvvürləri arasında fərqi araşdırmaq mümkündür. Müxtəlif sosial təbəqələrdə cəmiyyət barədə təsəvvürlər də müxtəlif olur. Bu təbəqələr arasında qarşıdurma yarandıqda, həmin münaqişə cəmiyyətin mahiyyəti nəzərə alınmaqla həll edilməlidir. Cəmiyyətin təbii mahiyyətində isə ahəng – multikultural mahiyyət dayanır. Onun fikirlərinə görə hər bir şəxs daxilən təmizlənmək, kainat aləminə, kainat qanunlarına köklənib, ondan enerji almaq üçün qidalanmalıdır. Bu zaman maddi dəyərlərə diqqət etməli,yaşamını məhdudlaşdırmalı, yəni aşırı israf etməməlidir. Eləcə də, cəmiyyətdə maddiyata aludəlik multukultural dəyərlərin formalaşmasına ciddi zərbə vurur. Cəmiyyətdə multikultural mühitin yaranması üçün hökmən mənəvi mühit daha çox inkişaf etməlidir. Belə olan cəmiyyət həm də kainatdan aldığı enerji ilə özü- özünü tənzimləyir.

Sührəverdi insanların birliyini, özündə hamını görə bilmək istəyini ifadə etməklə, əslində, "öz" və "özgə" arasındakı fərqi inkar etmiş və dilindən, dinindən asılı olmayaraq bütün insanlığı tərənnüm etmişdir. Bu, multikulturalizmin əsas mənəvi şərtlərindəndir:

"Mən özümü sizsiz görmürəm, hesab edirəm ki, siz elə mənsiniz".

* * *

"İnsan canlı varlıqlardan ən şərəflisidir. O, materiyadan təcrid olunmuş düşüncəli nəfslə səciyyələnir".

* * *

Varlıq olaraq insanın mahiyyəti, fərd və cəmiyyətin metafizik dəyəri Sührəverdi fəlsəfəsində mühüm yer tutur. Multikulturalizmin əsasını da bu baxımdan məhz fərdi və ictimai müxtəliflik təşkil edir:

"Fərd olaraq insan üçün hərəkət etməyən, dəyişməyən kiçik və böyüklüyünə, aydın və tutqunluğuna görə müxtəlif güzgülər vardır. Bu güzgülərdə kiçik və böyüklüyə görə o insanın müxtəlif surətləri meydana çıxar. Rəngin aşkara çıxmasının kamilliyi və nöqsanı surət sahibinin müxtəlifliyinə və dəyişməsinə görə deyil, əksinə, əksetdiricilərə görədir".

* * *

"Bədənlərimizin düşüncəli nəfsi olduğu kimi, göylərin də diri, bilici, öz yaradıcısına aşiq, əbədi ehtirasla sevən düçüncəli nəfsləri vardır ki, onlar həmişə daima vəcd, aramsız həzz içindədir. Onların həzzləri öz bədənlərinə sirayət edir. Beləliklə, onların bədənləri təcrid əhlindən olan vəcd sahibi kimi hərəkətə gəlir. Hər nəfsin bir göy sferası var, onların hərəkətləri buna görə müxtəlifdir. Onların hərəkətləri səbəbinə bu aləmdə daima xeyir mövcuddur."

SİRACƏDDİN MAHMUD İBN ƏBUBƏKR URMƏVİ

(1198-1283)

Siracəddin Urməvi Azərbaycanın görkəmli filosofu, hüquqşünası, müsiqişünası və dövlət xadimi olmuşdur. Qədim Azərbaycanın Urmiya şəhərində anadan olmuş və uşaqlıq illəri də orada keçmişdir. Mosulda təhsil aldıqdan sonra bir müddət Dəməşqdə yaşamış, sonra Kiçik Asiyaya köçmüşdür. Urməvi multikultural bir mühitdə yetişmişdir. Belə ki, onun təhsil aldığı Mosul şəhərində müsəlmanlar, yəhudilər və xristianlar birlikdə yaşayır və bir-birlərinin mədəniyyətindən bəhrələnirdilər. Urməvi də bu üç dinin mənbələrinə yaxşı bələd olmuşdur. Mənbələrdə qeyd olunur ki, onun müəllimlərindən biri olan Kəmaləddin ibn Yunis Tövrat və İncili yəhudi və xristian alimlərindən belə daha yaxşı şərh etməsi ilə məşhur idi. Urməvi müəlliminin bu biliklərini əxz etmiş, müxtəlif mədəniyyətlərin nailiyyətlərinə yaxından bələd olmuşdu. Təsadüfi deyil ki, məhz xristan dininə və mədəniyyətinə mükəmməl bələd olması sayəsində Urməvi Əyyubi Sultanı Nəcməddin Əyyubun dövründə (1240-1249) sultanın elçisi kimi 7-ci səlib yürüşünə başçılıq etmiş Fransa kralı IX Lüdovikin (1214-1270) sarayına getmiş, məntiqə dair yazdığı əsəri krala ithaf etmiş, IX Lüdovik də öz növbəsində ona böyük hörmət göstərmişdir. Ümumiyyətlə yaşadığı dövrdə Siracəddin Urməvi vətəni Azərbaycandan başqa İraq, Suriya, Misir, Anadolu kimi müxtəlif bölgələrə səfər-

lər etmiş, bu bölgələrin mədəniyyəti ilə yaxından tanış olmuş və idarəçilər tərəfindən böyük hörmət görmüşdür.

Öz dövrünün görkəmli hüquqşünası olan Siracəddin Urməvi bu sahədə ən ciddi disputların iştirakçısı kimi fərqlənirdi. 1240-cı ilin ortalarından başlayaraq Konya şəhərinin qazısı kimi fəaliyyətini davam etdirmişdir. Orta əsrlərdəki elmi mənbələr təsdiq edir ki, o, bütün elm sahələrində şöhrət qazanmışdır. Onun ən məşhur əsəri məntiqə dair yazdığı və orta əsr İslam mədrəsələrində dərs kitabı kimi tədris edilən "Nurların doğuluşu" (Mətaliul-ənvar) əsəri hesab olunur. Eyni zamanda "Hikmət incəlikləri" (Lətaiful-hikmə) adlı iri həcmli əsəri bilinməkdədir. Ayrıca, onun peripatetizmin bütün istiqamətlərinə aid dəyərli elmi fikirləri də vardır. Onun varlıq təlimi, idrak nəzəriyyəsi, məntiqə dair xeyli tədqiqat işləri mövcuddur. Urməvinin sosial-siyasi sahədəki əsərləri ilə tanış olduqda sosiologiya, sosial idarəetmə, dövlət idarəciliyi, etika, iqtisadiyyat baxımından da xeyli qiymətli mülahizələrinin olduğu üzə çıxır. Ona görə də, bu əsərlər multikulturalizm baxımından olduqca qiyməli mənbələrdir.

Filosof göstərir ki, cəmiyyət heç zaman özü-özünü tənzimləmir. Onun tənzimlənməyə, yəni cəmiyyətdə baş verən proseslərin idarə olunmasına ehtiyac vardır. Multikultural mühit də öz-özünə yarana bilməz. Bunun üçün ciddi elmi əsaslarla idarəetmə mexanizmi yaradılmalı və həyata keçirilməlidir. Burada müəllif Qurani-Kərimə, Məhəmməd peyğəmbərə istinad edərək, cəmiyyətdəki proseslərin idarə olunmasını, insanların xarakterinin dəyişilə bilməsinin mümkün olduğunu qeyd

edir. Hər bir şəxsin xarakteri müəyyən qədər dəyişə, cəmiyyətdəki proseslər də tənzimlənə bilər. Bu eyni zamanda "cəmiyyətin xarakterində multikulturallıq yoxdur, sivilaziyalar, mədəniyyətlər, milli maraqlar toqquşmalıdır" kimi məkrli fikir sahiblərinə də tutarlı cavabdır. O, ağlın, intellektin kainatın prinsiplərinə uyğun olaraq formalaşması zərurətini irəli sürür. Belə olduğu halda bu ağıl cəmiyyətin mənafeləri ilə öz mənafeləri arasında bir ahəng axtaracaqdır.

Urməvinin idarəetməyə dair fikirləri olduqca mühümdür. Bu baxımdan o belə bir misal gətirir: "...baş bədəni tibbin qanunauyğunlaqına uyğun olaraq idarə etdikdə, bədən daha sağlam olar və bu da öz növbəsində başın daha sağlam olub, daha düzgün qərarlar verməsinə səbəb olar...". Burada ortaya qoyulan fəlsəfə odur ki, cəmiyyət - idarəedici tərəfindən qanunauğunluqlara müvafiq idarə olunmalıdır. Multikultural mühit də bu prinsiplərlə qurulmalıdır. Bu da öz növbəsində idarəedicinin daha uğurlu fəaliyyətinə səbəb ola bilər. Bütün cəmiyyətin ahəngdar inkişafında, eləcə də multikultural mühitin yaranmasında ən mühüm şərtlərdən birinin hər kəsin öz qabiliyyətinə, bacarığına, təcrübəsinə uyğun fəaliyyətlə təmin olunması cəmiyyətin əsas tələbi kimi irəli sürülür.

Urməvinin bir çox fikirləri cəmiyyətin idarə olunmasının, eyni zamanda multikultural mühitin yaranmasının mühüm kompleks prinsipləri kimi qəbul edilə bilər və bu, sistemli yanaşma baxımından əhəmiyyətlidir. Filosofa görə, cəmiyyətdə dövri olaraq bütün proseslər bir-biri ilə bağlıdır. Bunun üçün ədalətli siyasətlə quruculuq işləri aparılmalıdır ki, ədalətli sərvət yığımı olsun.

Filosof tərbiyə sisteminə mühüm əhəmiyyət verir. Cəmiyyətdə tərbiyə sisteminin, maarifləndirmənin nə dərəcədə mühüm olduğunu önə çəkir. Aydındır ki, hər kəs təbii qanunauyğunluqla doğulur. Yalnız tərbiyə sistemi onları fərqləndirir və ya cəmiyyətdə qarşıdurmaların yaranmasına səbəb olur. Ona görə də, multikultural mühitin yaranması, tərbiyə sisteminin mükəmməlləşməsi yeni nəslin yetişdirilməsi prinsipləri ilə sıx bağlıdır.

* * *

Xalq arasında təhrikedici (sövqedici) və qadağanedici gərəkdir ki, zülm və zorakılıq aradan qalxa və ya azala, bununla aləmin(cəmiyyətin) nizamı baqi[1] qala.

* * *

Belə demişlər: mülk yalnız adamlarla, adamlar yalnız sərvətlə, sərvət yalnız quruculuqla, quruculuq yalnız ədalət və siyasət(idarə etmə) ilə olur.

* * *

Hər kəs öz bacarığına münasib işlərdə çalışmalıdır, əks təqdirdə nəinki başqaları, hətta özü zərər çəkər.

* * *

Bil ki, insanın, istər fərdin, istərsə də insani növün qalmasında möhtac olduğu şey iki qisimdir: onlardan biri heç vaxt heç kəsə məxsus olmayan su, bitki, çöl ovu, dəniz ovu və buna bənzər mülkiyyətdir, digəri isə odur ki, şəxslərdən kiməsə məxsusdur.

[1] baqi - əbədi

* * *

Ədalət, insaf və yaxşılıq padşahın mayasında möhkəmləndikcə, onun sayəsində vilayətin işi nizama düşər, dövlət din və millət düşmənlərinə qarşı qüvvət, fəth, zəfər və qələbədə yüksələr, dağıntı vilayətə yol tapmaz. Bunun əksi olduqda hər nə desən – xof, həlak, məhv, dağıntı və zaval baş verər.

* * *

Əgər xasiyyətləri (əxlaqı) dəyişdirmək və başqası ilə əvəz etmək mümkün olmasaydı, xasiyyətləri (əxlaqı) yaxşılaşdırmağı buyurmaq qeyri-mümkün idi.

* * *

Bil ki, ağlın işləri və keyfiyyətləri onun özünün mənafeyinə və aləmin (cəmiyyətin) mənafeyinə uyğun olmalıdır.

NƏSİRƏDDİN TUSİ

(1201-1274)

XIII əsrdə yaşamış Əbu Cəfər Məhəmməd Nəsrəddin Tusi elm tarixində olduqca yüksək və mühüm mövqe tutan mütəfəkkirlərdən biri kimi tanınır. O, uzun müddət Ələmut qalasında sürgün həyatı yaşamışdır. Lakin, Çingiz xanın nəvəsi Hülakü xan 1256-cı ildə Tusini azad etmiş və özünə məsləhətçi təyin etmişdir. Sonralar Nəsirəddin Tusi Hülakü xanın dəstəyi ilə Marağa rəsədxanasını inşa etdirmişdir. Tusi o dövrdə İslam dünyasında və hətta Çində yaşayan ən qabaqcıl alimləri, xüsusən də dəqiq və təbiət elmlərilə məşğul olanları rəsədxanaya dəvət edərək, onların sərbəst şəkildə öz tədqiqatlarını aparmaları üçün lazımi şərait yaratmışdı. O, eyni zamanda rəsədxananın nəzdində, monqol işğalı nəticəsində Bağdad qarət edilərkən oradakı kitabxanalardan xilas etməyə müvəffəq olduğu xeyli sayda ədəbiyyat daxil olmaqla, (mənbələrdə sayı dörd yüz min kimi mübaliğəli bir rəqəmlə ifadə olunan) böyük bir kitabxana da qurmuşdu. Rəsədxana yalnız astronomiya deyil, eyni zamanda əqli və nəqli elmlərdə tədqiqatlar aparan alimlərin fəaliyyət göstərdiyi bir akademiya idi. Orada fəlsəfə, məntiq və kəlam sahələrində Qütbəddin Şirazi (ö. 710/1311) və Nəcməddin Katibi (ö. 675/1277), həndəsə və astronomiyada Müəyyiduddin əl-Urzi əd-Diməşqi (ö. 664/1265), riyaziyyatda Fəxrəddin Mərağı

(ö. 667/1268) və Muhyiddin əl-Qurtubi (ö.682/1283), tibb sahəsində Fəxrəddin Əxlati (ö. VII yüzyıl) kimi alimlər fəaliyyət göstərirdilər. Bu alimlər monqolların İslam dünyasını talan etdiyi və elmi müəssisələrin dağıdıldığı bir dövrdə Marağa rəsədxanasında çox rahat şəraitdə öz fəaliyyətlərini davam etdirirdilər. Rəsədxanada Fau Mun Ji (Fu Menq-çi) adlı çinli astronom da fəaliyyət göstərirdi. Bütün bu fəaliyyətlər deməyə imkan verir ki, Marağa rəsədxanasında tam mənası ilə multikultural bir mühit formalaşmışdı. Tusi burada dinindən və məzhəbindən asılı olmayaraq dünyanın bir çox yerindən qabaqcıl alimləri toplamış və onlara öz düşüncələrini həyata keçirmək üçün münasib şərait yaratmışdı.

Tusi rəsədxanada, bir qismi öz tələbələri olan bu alimlərin köməyi ilə astronomik kataloqları ehtiva edən "Zici-Elxani"ni yazmışdır. Lakin vəfatı səbəbilə əsər tamamlanmamışdır. Öz dövrünə qədər mövcud olmuş kataloqların hamısından daha mükəmməl olan bu tədqiqat başda Çin olmaqla, bütün Asiyada məşhur idi.

Nəsrəddin Tusi elmin bir çox sahələri ilə məşğul olmuş və bu sahələrdə ciddi nəticələr göstərmişdir. Faktiki olaraq Tusi elmin hansı sahəsi ilə məşğul olmuşdursa, o sahəni sadəcə öyrənməmiş, onu daha da təkmilləşdirmiş, yeni elmi istiqamətlər yaratmışdır. Tusi öz tədqiqat işlərində müxtəlif elm sahələrinin imkanlarından istifadəni zəruri sayırdı. Amma, həmin elm sahələrinin imkanlarından istifadə etdikdə mövcud metodların heç də bəs etmədiyini görürdü. Tusinin böyük dühası bu zaman həmin elm sahələrinin daha da dərinləşməsinə yönəlirdi və hə-

min sahəni daha da inkişaf etdirirdi. Ümumiyyətlə, Tusi ilahiyyat elmləri ilə ilə yanaşı dünyəvi elmlərin də mahir bilicisi idi. Demək olar ki, onun hər iki istiqamət üzrə elmi əsərləri mövcuddur.

Tusi yaradıcılığına diqqətlə fikir verdikdə, onun, elmin köməyi ilə dünyanın, yer üzünün, cəmiyyətin mahiyyətini daha əhatəli, daha müfəssəl dərk edilməsi ilə insanların qarşısında duran problemlərin daha uğurla həll edilməsi yollarını axtardığını görmək mümkündür. "Əxlaqi Nasiri" kitabından göründüyü kimi fərdin, ailənin, cəmiyyətin mahiyyətini, onların təkmilləşməsi yollarını axtarmaqla yanaşı, eyni zamanda onların kompleks şəkildə, ahəngdar olaraq nəzərə alınması ilə tərəqqi yollarını axtarmış, bu sahədə konkret metodlar təklif etmişdir. Müəllifin "Övsafül-Əşraf" (Şərəfli insanların xüsusiyyətləri) kimi əsərini misal göstərərək bu yolda onun hansı fəlsəfəyə söykəndiyini görmək mümkündür. Digər tərəfdən Tusi kainatı dərk etməyə can atırdı. Axı, yer üzü kainatın kiçik bir hissəsidir. Kainatda gedən prosesləri dərk etmədikcə, yer üzündəki, cəmiyyətdəki proseslərin lazımınca dərk oluna bilməyəcəyini düşünə bilən böyük alim, astronomiya elmində böyük uğurlar qazanmışdır. Tusi sadəcə elmi yaradıcılıqla, nəzəri tədqiqatlarla, kitab yazmaqla məşğul olmurdu. O, həm də elmin köməyi ilə konkret işlər görmək istəyirdi. Elmi olaraq əldə etdiklərini tətbiq etmək həvəsi ilə yaşayırdı. Buna görə də, o, əlinə imkan düşən kimi elmi biliklərini əxlaq və tərbiyə məsələlərində istifadə edirdi. Çünki, kainat və əxlaq Tusi üçün vəhdət demək idi.

Onun çoxsahəli yaradıcılığına misal olaraq İbn Sinanın məşhur "əl-İşarat vət-tənbihat" adlı əsərinə yazdığı şərh (Şərhul-İşarat), İslam əqidəsi sahəsində yazdığı "Təcridul-etiqad", "Füsul", dəqiq elmlərə dair Evklidin (IV əsr) "Əsaslar"ına yazdığı "Təhriru Uqlides", həmçinin "Şəklul-qətta", əxlaqa dair yazdığı "Əxlaqi-Nasiri" və s. kitabların adını çəkmək kifayətdir.

Tusinin cəmiyyətlə bağlı əsərlərində bir çox multikultural elementləri görmək mümkündür. Belə ki, Tusi hər zaman ahəngdar birgəyaşayış qanunlarının axtarılması ilə bağlı mülahizələr yürüdür. O, cəmiyyəti bir bədən timsalında görür və burada bütün orqanların bir-birinə məhəbbətlə birləşərək vəhdət içərisində olduqlarını qeyd edirdi. Bu orqanlar biri-biri ilə mübarizə apararaq deyil, qarşılıqlı ahəngdə fəaliyyət göstərməlidirlər ki, bədən daha sağlam olsun. Onun əsərlərində indi adına "tolerantlıq" dediyimiz analayışa da münasibət aydın görünür. "Tolerantlıq" sözü müasir dövrdə daha çox "biri-birinə dözmək" mənasında işlənir. Bu, ən yaxşı halda ədalət hissidir. Ədalət hissi dözmək hissindən üstündür. Məhəbbət hissini ədalət hissindən daha üstün və təbii hesab edən Tusinin fikirlərindən belə anlaşılır ki, cəmiyyətin daha təbii hissi məhəbbət hissidir. Yəni cəmiyyətdə insanların biri-birinə dözərək deyil, bir birinə məhəbbət hissi ilə yaşaması daha təbii və düzgündür. Amma o, "ədalət" hissini insani fəzilətin ən kamil zirvəsi hesab edərək, onu insanlar arasında məhəbbət hissi olmadıqda, yaxud az olduqda, nizam-intizamı saxlamaq üçün zəruri hesab edir. Deməli, "tolerantlıq" sözünün "biri-birinə dözərək", nizam-intizam yaradaraq yaşamaq

mənası daha aşağı səviyyədir. Tusi özündən əvvəl yaşamış qədim filosofların da fikirlərini nəzərə alaraq biri-birinə dözməyin, məcburən bir yerdə yaşamağın inkişafa mane olduğu fikrindədir. Azərbaycanın dünyaya yaymaq istədiyi multikulturalizm siyasətinin kökündə zor, süni nizamlama deyil, məhəbbət dayanır.

Filosofa görə imansız cəmiyyət çox təhlükəli cəmiyyətdir. Ancaq kamil iman üçün ölkədə normal dini sistem mövcud olmalıdır. Bu dini sistem dövlətlə sıx təmasda olduqda, dövlətçilik maraqlarını uca tutduqda, əhalidə də dövlətçilik hissi yüksək olar. Eyni zamanda, normal dini sistemin mövcud olması üçün ona dövlət dəstəyi lazımdır. Normal dini sistem ölkədəki dini, etnik və s. fərqliliklərin bir ahəngdə mövcud olmasında mühüm rol oynayır. Onun fikrincə, ən kamil və arzu olunan cəmiyyət insanın, əhalinin, ölkənin tərəqqisinə kömək edən nizam-intizamın olduğu cəmiyyətdir. Bu fikirlər multikulturalizm mühitinin yaradılması meyarları haqda faydalı bilgilər almağa kömək edir.

Yaşadığı dövrün ümumi düşüncə tərzindən fərqli olaraq Tusi İslam dünyasındakı məzhəb təəssübkeşliyinə qarşı çıxmış, fərqli məzhəblərə qarşı təəssüb hissi ilə yanaşan bir alim olmamışdır.Təsadüfi deyildir ki, onun İslam əqidəsi sahəsində yazdığı məşhur "Təcridul-etiqad" adlı əsərinə İslamın hər iki böyük məzhəbinin alimləri şərh yazmışlar. Bu orta əsrlərdə İslam dünyasında nadir nümunələrdən biridir.

Göründüyü kimi, Tusinin xalqın xeyir və rifahı üçün sadaladığı prinsiplər yalnız o zaman mümkündür ki, ölkədə

multikulturalizm ideyaları dolğun olaraq həyata keçsin və yaşansın. Bu baxımdan Tusinin multikultural ideyaları özünü aşağıdakı kimi təcəssüm etdirməkdədir:

* * *

...bir-birinə kömək edən bütün insanları vahid bir bədən timsalında birləşdirən bir quruluşun yaranması zəruriyyəti meydana çıxar. İnsan öz təbiəti etibarı ilə inkişafa meyl edən bir varlıq kimi yaradıldığından, təbiətən belə birləşməyə möhtacdır. Birləşməyə olan şövq "məhəbbət" adlanır.

* * *

Əcəm padşahı, fars filosofu Ərdəşir Babəkan demişdir: "din və ölkədarlıq iki sirdaşdırlar, hərəsinin tamamlığı o birindən asılıdır. Din qaydadır, dövlət onun sütunları; bünovrə sütunsuz zaye olduğu kimi, sütun da bünövrəsiz dura bilməz. Eləcə də, din dövlətsiz mənfəət əldə etmədiyi kimi, dövlət də dinsiz möhkəm ola bilməz.

* * *

"Fəzilətli icma" insanların elə xüsusi birləşməsinə deyilir ki, onların birgə səyləri xeyir işlər görməyə, şəri aradan qaldırmağa yönəldilmiş olsun.

* * *

Xalqın xeyiri əminamanlıq, sakitlik, biri-birinə kömək, dostluq, ədalət, səadət, iffət, mehribanlıq və bu kimi işlərdə olar. Xalqın zərəri qarışıqlıq, iztirab, qorxu, vahimə, iğtişaş, dava-dalaş, zülm, əziyyət, paxıllıq, riyakarlıq, xəyanət, təhqir, qeybət və bu kimi işlərdə olar.

* * *

Dövlətlərin bünövrəsinin "ittifaq" olmasının səbəbi odur ki, hər adamın gücü təklikdə az olar, hamısı ittifaq bağlayıb çoxaldıqca, onların qüvvələri ən azı hər adamın gücü qədər artar. Onların ittifaqının tərkibi və quruluşu bir bədənə oxşadığından dünyada bunları özünə tabe edə bilmiş adamın qüdrəti də bu qədər olar...

* * *

Dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər. Ədalətin birinci şərti odur ki, xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılsın.

* * *

... hər sinfin arasında uyğunluq yaratdıqdan və hər adamın ləyaqət və istedadına görə rütbə verdikdən sonra, onlar arasında olan ümumi gəliri mühafizə etməyə, hərənin öz payına düşəni özünə verməyə səy göstərməli, burada haqqa və xidmətə fikir verilməlidir.

NƏCMƏDDİN NAXÇIVANİ

(1222-1302)

Nəcməddin Əhməd bin Əbubəkr bin Məhəmməd Naxçıvani Naxçıvan şəhərində doğulmuşdur. O, ilk təhsilini Naçxıvanda dövrünün məşhur müdərrislərindən aldıqdan sonra, Yaxın Şərqə səyahət etmiş, sonra isə Anadoluda yaşamışdır. Böyük İslam tarixçisi İbnul-İbri Naxçıvanini "imamül-muazzam" (böyük imam) adlandırmış və onu bütün elmlərdə dalğalanan dənizə, işıq saçan nura və yağmur dolu buluda bənzətmişdir. Tarixçinin verdiyi məlumata görə Naxçıvani istər fəlsəfi, istərsə də ilahiyyat elmlərində böyük uğur əldə etmiş bir alimdir. Hətta, Anadolu Səlcuqlu dövlətinin səltənət naibi Cəlaləddin Qaratay N.Naxçıvaniyə vəzirlik vəzifəsini təklif etmiş, o isə dövlət məmurlarının maaşlarının yarıya düşürülməsi şərti ilə bu təklifi qəbul edəcəyini bildirmiş, Cəlaləddin də onun şərtini qəbul etmişdir. Bununla da, Naxçıvani bu vəzifədə beş il fəaliyyət göstərmiş, bu illər ərzisndə dövlət nəzdində olan rüşvət problemini həll edə bilmədiyini görüb vəzifəsindən istefa etmiş, sonra isə Anadolunu tərk edərək Hələbə yerləşmişdir. O, burada özünü demək olar ki, tam elmə həsr etmiş, İbn Sinanın kitablarını oxumuş və əsərlərində İbn Sinanı tənqid etmişdir. Azərbaycanlı alim Əfzələddin Xunəci özünün "Kəşfü`l-Əsrar" əsərində isə Naxçıvani İbn Sinanı tənqid etdiyinə görə tənqid et-

mişdir. İbnul-İbri Naxçıvaninin işraqi fəlsəfəsəinə meyilləndiyini qeyd edir. Bu isə ona dəlalət edir ki, Naxçıvani məhz ona görə məşşai (peripatetizmi) fəlsəfəsini tənqid edirmiş. Çünki o, Hələbdə qətl edilən Məktul Şihabəddin Suhrəvərdidən təsirlənmişdi.

Naxçıvani onlarla elmi əsər və fəlsəfi traktatların müəllifi olmasına baxmayaraq, onlardan yalnız bəziləri günümüzə gəlib çatmışdır. Onun "Şərhü`l-işarət vət-tənbihat", "Hall şukulu`l-qanun fi-tibb" əsərləri İbn Sinanın " Əl-İşarat və`t-Tənbihat" və " əl-Qanun fi`t-Tıbb" adlı iki kitabının şərhidir.

Nəcməddin Naxçıvaninin keçdiyi həyat yoluna nəzər saldıqda görürük ki o, həqiqətən də olduqça keçməkeşli və mənalı ömür yaşamışdır və bütün bunlar onun böyük təbib, filosof və alim kimi formalaşmasında öz rolunu oynamışdır. Onun şəxsiyyətinə gəldikdə isə deyə bilərik ki, Nəcməddin Naçıvaninin dolğun həyat təcrübəsi onun tolerant bir şəxsiyyət kimi formalaşmasına öz töhfəsini vermişdir. Naxçıvaninin filosof və təbib kimliyi isə ona dəlalət edir ki, o insan varlığını ən yüksək dəyər kimi qəbul etmiş və bütün ömrünü insan həyatının xilasına həsr etmişdir.

ƏKMƏLƏDDİN MÜƏYYƏD NAXÇIVANİ

(XIII əsr)

Haqqında mənbələrdə məhdud məlumatlar olan Əkmələddin Naxçıvani XIII əsrdə yaşayıb. O, Mövlana Cəlaləddin Ruminin yaxın dostu və həkimi olmuşdur. Alimin adı Səlcuqlulara aid bir neçə tarixi sənəddə Əkmələddin ət-Təbib şəklində geçir.

Təxəllüsündən də məlum olduğu kimi Əkmələddin Naxçıvani Naxçıvanda anadan olmuşdur. Ancaq, onun nə vaxt anadan olduğu, harada və kimlərin yanında təhsil aldığı bilinməməkdədir. Konya Səlcuqlu Sarayında həkimbaşı, I Ələddin Keyqubadın "Daru`ş-Şifasında" (Xəstəxana) baş həkim və müəllimlik etmişdir. Şəhabəddin Uzluka görə Naxçıvani tibb təhsilini tamamladıqdan sonra Konyaya gəlmişdir.

Cəlaləddin Ruminin oğlu Sultan Vələdin (ö.1312) "Divan"-nındakı 41 beytlik qəsidənin əvvəlindən 22-ci beytə qədər olan hissəsində başlanğıç hərfləri ilə şaquli olaraq "Əkmələddin Müəyyəd Naxçıvani" adı oxunur.

Əhməd Əflaki "Mənaqibü`l-Arifin" (Ariflərin yolu) əsərində Əkmələddin Naxçıvaninin Mövlana Cəlaləddin Ruminin sevimli müridləri sırasında olduğunu qeyd edir. Naxçıvani Mövlanaya böyük hörmət və ehtiram bəsləmişdir. Rəvayət olunur ki, hətta Naxçıvani hər zaman bahalı paltarlar geyindiyi halda, bir gün Mövlana-

nın söhbət məclisində bu geydiyi paltarlara görə özünü pis hiss edir və Movlana onu sakitləşdirir. Bundan sonra Naxçıvani belə paltarlar geyinməkdən əl çəkir.

Ümumiyyətlə o dövrə aid bir çox mənbələrdə və "dövrün Hippokratı", "dövrün Platonu", "dünyanın həkimi", "Anadolu həkimlərinin başı", bənzəri olmayan həkim kimi epitetlərlə qeyd olunur. Bəzən də müəllimliyinin ifadə olunması üçün "xoca" ləqəbi ilə tanınan Əkmələddin Naxçivani haqqında "Əkmələddin Təbib də bütün bəylər və alimlər ilə səmanı seyr edir", "Əkmələddin təbib zamanın bütün həkim və böyüklərinin ortasında hekayə edir ki..." kimi ifadələrin işlədilməsi onun dövlət adamları və alimlər arasındakı xüsusi yerini göstərir.

Əkmələddin Naxçıvaninin həm dövlət adamları, həm də alimlər arasında sözü keçən biri olduğunu Mövlananın ona yazdığı məktublar sayəsində öyrənirik. Bu məktubların birində Mövlana ondan bir mədrəsə müəllimliyinə təyin etmə işində vasitəçi olmasını istəməkdə və bu işi ancaq onun həll edə biləcəyini ifadə edərək "şirin suyun sahili izdihamli olar" demək surəti ilə onun alicənablığına işarət edir. Ayrıca, Naxçıvaninin xalq arasında "Bəy Həkim" təxəllüssü ilə yad edildiyi rəvayət olunur. Hal-hazırda Konyada Ələddin Təpəsinin Qərbində yerləşən Bəy həkim məhəlləsində Əkmələddin Naxçıvaniyə aid edilən bir məscid və türbə mövcuddur.

Əkmələddin Naxçıvaninin elmi yaradıcılığına gəldikdə isə o, dövrünün ən böyük təbibi və alimlərindən biri idi. Əkmələddin Naxçıvani, İbn Sina intellektual məktəbinin nümayəndəsi olub peripatetik(məşşai) sistemin içində yer alır.

Naxçıvani bəzi mövzularda isə İbn Sinadan fərqli düşündüyünü qeyd edir. Naxçıvani Şəhabəddin Sührəvərdinin düşüncə sistemini də müəyyən aspektlərdən qəbul edib öz düşüncə sistemində təhlil etmişdir. Əkmələddin Naxçıvani bütün yaradıcılığında İbn Sinanın daha doğru şəkildə başa düşülməsinə cəhd etmişdir. Əkmələddin Naxçıvanin İbn Sinanın məşhur əsərinə yazdığı şərh "Şərh əl-İşarat və`t-Tənbihat" (İşarələr və qedlərin şərhi) adlanır. Onun digər mühüm əsərinin adı "əl-Əcvibə"dir (Cavablar).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan məktəbinə məxsus iki alim-filosof Nəsrəddin Tusi və Əkmələddin Naxçıvani İbn Sinanın iki böyük əsərini şərh və tənqid edən Fəxrəddin Raziyə qarşı çıxaraq İbn Sinanı müdafiə etmişlər. Bu, o dövrdəki elmi prosesinin inkişafını və Azərbaycanlı müəlliflərin İbn Sinanın fəlsəfi-elmi sistemini necə dərindən mənimsədiyini də göstərir. Elm tarixi və Azərbaycan məktəbinin inkişaf mərhələləri baxımından bu, əvəzsiz elmi-tarixi fakt təşkil edir.

Onun şəxsiyyətinə gəldikdə isə deyə bilərik ki, doğrudan da Əkmələddin Naxçıvani bir multikulturalizm nümunəsidir. Səlcuqlular dövründə imperiya hüdudları daxilində yaşaması onun multikultural şəxsiyyətini ortaya çıxarır. Əkmələddin Naxçıvaninin dövrünün böyük təbibi və filosofu olması ona dəlalət edir ki o, əsla tək yönlü insan deyil, dini, məzhəbi və irqi ayrıseçkiliyi qəbul etməyən, humanist dəyərlərə sahib, böyük bir şəxsiyyətdir.

Mövlana Cəlaləddin Ruminin oğlu Sultan Vələdin Əkmələddin Naxçıvaniyə ithaf etdiyi qəsidədən bir parça:

Sən bir ay kimisən! Hər əsrdə sənin kimisi nadirən olur. Sənin yaradılman bir lütfdür! Sən bu dövrdə tibb, fəlsəfə və mərifətdə Əflatunsan!

* * *

Mövlana Cəlaləddin Rumi Əkmələddin Naxçıvaniyə yazırdı:

"Mərifət dənizinin inciləri, filosoflar padişahı, təbiblərin fəxri, dövrünün ər insanı, Haqq dostlarından biri …"

MAHMUD ŞƏBÜSTƏRİ

(1287-1320)

Azərbaycanın tanınmış şair-filosofu Mahmud Şəbüstəri Təbriz yaxınlığında yerləşən Şəbüstər qəsəbəsində dünyaya gəlmişdir. O, qədim sufi ənənələrinin, eləcə də dünya dinlərinin böyük bilicisi idi və mistik duyğularını qələmə almaqla tanınmışdır. Onun mistik baxışları dini fəlsəfə, xüsusən yeni-platonçuluğun bəzi məqamları ilə də kəsişirdi. Şəbüstəri həm də ensiklopedik biliyi ilə fərqlənirdi.

Şəbüstəriyə görə dünyanın vəhdəti ideyası bütün varlıqlara qarşı sevgi hislərinin bəslənməsini aşılayır. Bu baxımdan Şəbüstərinin sufi təlimi təbiətə və insanlara məhəbbətlə doludur. Çünki, onların hamısı bir Vahidin hissəcikləri kimi təsəvvür edilməkdədir. Bu ideyalarını Şəbüstəri "Gülşəni-raz" adlanan mistik əsərində açıqlamışdır. Bütün sufilər kimi Şəbüstəri "kamil insan" məqamına çatmağı Vahidə qovuşmanın şərti kimi ortaya qoyurdu. O, bütün insanları bəşər övladı kimi təsəvvür edir və onlar arasında heç bir milli və ya irqi məhdudiyyətlər qoymurdu.

Şəbüstəriyə görə bütün insanlığın məqsədi Allahı dərk edib, ona qovuşmaqdır. O düşünür ki, dünyada baş verən bütün savaşlar, ixtilaflar, həmçinin dini, milli və irqi ayrıseçkilik, eləcə də müxtəlif sosial problemlər ona görə yaranır ki, insanlar dünya işlərinə gərəkdiyindən çox önəm verirlər.

Şəbüstəri həm də əxlaqa çox böyük önəm verir, onu bir tərəfdən Allahla qovuşma yolunda, digər tərəfdən isə insanlar arasında sağlam münasibətlərin qurulmasında vacib amil kimi qəbul edirdi. Yalnız yüksək əxlaq sahibi bəşəriyyəti və ətrafda olan təbiəti sevər, onlara dəyər verər. Təkəbbür isə bütün bədbəxtçiliklərin, nadanlığın və zəlalətin təməlində durur.

Göründüyü kimi Mahmud Şəbüstəri öz mistik baxışlarında digər insanlara qarşı dözümlülük, sevgi, paylaşma, münasibətlərdə ədalətli davranma kimi vicdani məsələləri cəmiyyətdə vəhdət yaratma baxımından əhəmiyyətli hesab etmişdir. Məhz, bu prinsiplər gələcəkdə formalaşan Azərbaycan multikulturalizminin nəzəri əsaslarını təşkil edən amillərdən biri kimi qarşımıza çıxmaqdadır. Ayrıca, Şəbüstəri bütün insanların eyni dəyərlərə, eyni əqidəyə xidmət etdiyini iddia edərək onların hər birinin məqsədinin Haqqı dərk etmək olduğunu bildirir və Şəbüstəriyə görə, bu yolda insanlar tərəfindən seçilən istənilən dünyagörüşü məqbuldur.

* * *

Gözəl əxlaq ədalətdir, ədalət,
Və hikmət sonrasa iffət, şücaət.
Bu dörd əxlaqə sahib şəxs kimdir,
Gözəl sözlü, gözəl işli həkimdir.
O qavrar hikməti ruhla, ürəklə,
Ömür sürməz səfehlik ya kələklə.
Oturmuş şəhvəti iffət donunda,
Sönüklük ya hərislik yoxdur onda.

Zəlalət[1] ya təkəbbürdən uzaqdır,
Şücaətçün qəzəb, qorxu yasaqdır.

* * *

Büt eşqin məzhəri[2] ya rəmzi-vəhdət,
Və zünnar[3] bağlamaq bir əhdi-xidmət.
Küfrlə dinə Haqdır təkcə malik,
Demək, tövhidlə birdir bütpərəstlik.
Bütün əşyalar eylər Haqqı zahir,
O əşyadan biri bütdür ki, axır.
Düşün diqqətlə büt haqda, ey aqil,
Deyil büt Haqq cəhətdən, bil ki batil.
Onu xəlq eyləyən Adil gözəldir,
Gözəldən hər nə gəlsə, bil gözəldir.
Nədə vardırsa, Haqq ol xeyrə təndir,
Əgər şərdirsə, qeyri mənbədəndir.

[1] Zəlalət - alçaqlıq
[2] Məzhər - zahir olduğu yer
[3] Zünnar - rahiblərin bel sarığı

HİNDUŞAH NAXÇIVANİ
(XIII-XIV)

Hinduşah Naxçıvani haqqında tarixi mənbələrdə məhdud məlumatlar mövcuddur. XIII-XIV əsrlərdə yaşayıb-yaratmış Hinduşah Naxçıvani, Naxçıvanın qədim Kiran şəhərində dünyaya gəlmişdir. Hinduşah Naxçıvani Bağdadda Müstənsiriyyə mədrəsəsində təhsil almış, daha sonra isə bu mədrəsədə özü də dərs demişdir. Ayrıca, Hinduşah Naxçıvani qardaşı Seydəddin Mahmud Naxçıvani ilə birlikdə Elxanilərin sarayında qulluq etmiş və Elxanilərin vəzirlərindən sahibi-divan Əlaəddin Ətaü'l-Mülk Cüveyni və onun oğlu Şəmsəddin Muhəmmədlə yaxın münasibətləri səbəbiylə "əs-Sahibi" ləqəbi ilə tanınmışdı.

1275-ci ildə Seyfəddin Mahmud Naxçıvani Elxanilər tərəfindən Kaşan hakimliyinə, qardaşı Hinduşah Naxçıvani isə onun naibliyinə – köməkçiliyinə təyin olunmuşdur. Ömrünün son illərində isə Hinduşah Naxçıvani Luristan atabəylərindən Nüsrətəddin Əhməd ibn Yusifşahın (1295-1330) sarayında işləmişdir. Hinduşah Naxçıvani tarixçi, dilçi və ədəbiyyatçı olaraq elm aləmində tanınır. Alimin ölüm tarixi 1330 ildən sonraya təsadüf edir.

Hinduşah Naxçıvaninin ən məşhur əsəri onun 1324-ci ildə yazıb başa çatdırdığı və Luristan atabəyi Əhmədə ithaf etdiyi "Təcaribü's-Sələf" adlı farsca əsərdir. Bundan başqa onun digər bir əsəri "Sihahü'l-Əcəmiyyə" adlı farsca-türkcə lüğətdir. Hinduşah Naxçıvani 1330-cu

ildə yazıb bitirdiyi "Məvaridü'l-Ədəb" adlı əsəri isə ərəb dilində şeir antologiyasıdır.

Hinduşah Naxçıvaninin həyat və yaradıcılığına nəzər yetirdikdən sonra belə bir nəticəyə gəlmək olar ki o, doğrudan da dövrünün ən multikultural şəxsiyyətlərindən biridir. Onun əsərlərində həm ərəb, həm fars, həm də türk dillərindən məharətlə istifadə olunmasını görürük, bu da bizə imkan verir ki, Hinduşah Naxçıvaninin tolerant, multikultural və humanist dəyərlərə bağlı olduğunu deyə bilək.

* * *

"Əvvəlkilərin təcrübələri" kitabından parça:

Bu əsərdə Məhəmməd peyğəbərin dövrü, xəlifələr tarixi, Əməvi, Abbasi, Biveyhi və Səlcuqlu dövlətlər haqqında məlumatlar mövcuddur.

FƏZLULLAH NƏİMİ

(1340-1401)

Dövrünün tanınmış alim, şair və filosofu Nəimi müxtəlif elmi mənbələrdə həm Təbrizi, həm əl-Hürufi, həm də Astrabadi kimi təxəllüslərlə tanınır. Azərbaycanın ən böyük sufilərindən biri olan Nəimi Şah Fəzlullah ibn Əbu Məhəmməd Təbrizi (Fəzl) təsəvvüfi cərəyan olan hürufiliyin əsaını qoymuşdur. Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin mənəvi müəllimi olmuşdur. Nəiminin və onun ardıcıllarının səyi nəticəsində hürufilik XV əsrdə Türkiyə, İran, İraq, Suriya və müsəlman Şərqinin digər ölkələrində geniş yayılmışdır.

O, əsərlərini "quş dili" deyilən olduqca sirli şifrələrlə yazmışdır. Bəzilərini yalnız güzgüyə saldıqda oxumaq mümkün olur. Nəimi "Cavidannamə" adlı əsərini 1394-cü ildə Şirvanda həbsxanada yazmışdır.

Nəiminin iddialarına görə, hürufiliyi (hərflər elmini) ilk olaraq peyğəmbərlər əsaslandırmışlar. Musa peyğəmbər Allahın həmsöhbəti, İsa peyğəmbər Allahın sözüdür. Məhəmməd peyğəmbər isə Allahı sözün yaradıcısı kimi ucaldan, insanlara daha yaxşı tanıdan olmuşdur. Nəimiyə görə, İsa Allahın sözü olaraq hürufilər üçün ali ideya idi. Onlar İsa müqəddəsliyi ilə şiə-mehdiçilik müqəddəsliyini vəhdətdə götürür, bir vaxt İsanın Mehdi şəklində gələcəyini düşünürdülər. Bu baxımdan Nəimi ideyaları, yəni hürufilik, eyni zamanda bir multikultural mahiyyətə də malikdir.

Onun əsərlərində xalqın birlikdə, bir haqq ideya uğrunda səcdədə olması Allahın tələbi kimi qəbul olunur. Nəimiyə görə ümumi səcdədən qaçıb, öz bildikləri kimi səcdə etmək səhv yol hesab olunur və eyni zamanda o, ümumi səcdədən qaçdıqları üçün bir qisim insanların zillətə düçar olacaqlarının qaçılmaz olduğunu iddia edir.

"Cavidannamə"nin ikinci fəslində verilən bir parça dinlərin, xüsusi ilə İslam dini ilə Xristian dininin bir-birinə nə dərəcədə yaxın olduğunu, ayrı-seçkiliyin mənasız olduğunu təlqin edir. Burada Adəm, İsa, Məhəmməd, Mehdi bir-biri ilə qarşılıqlı vəhdətdə, bütün insanlıq üçün eyni haqq yolunun müqəddəsləri kimi təqdim olunur. İstər xristian, istər müsəlman, istərsə də haqq yoluna dəvət edən digər dinlərin mahiyyətcə bir olduğu fikri Nəiminin multikultural şəxsiyyət olmasının ən bariz nümunəsidir.

İslamda Məhəmməd peyğəmbərin meraca getməsi ən önəmli məsələlərdən, ən müqəddəs məqamlardan biridir. Merac əhvalatı Cavidannamədə multikultural bir şəkildə verilmişdir. Beləki, Cəbrayıl tərəfindən göylərə aparılan Məhəmməd peyğəmbəri hər yanda mələklər qarşılayır və o, göyün müxtəlif qatlarında Adəm, Yəhya, İsa, Yusif, İdris, Harun, Musa, İbrahim peyğəmbərlə görüşür, onların xeyir-duasını alır. Bundan sonra o, Allahın məqamına yüksəlir.

Buradan belə bir fəlsəfi nəticə ortaya çıxır ki, əgər dünyada müxtəlif dinlərin, məzhəblərin və təriqətlərin üz tutduğu, özlərinin peyğəmbəri hesab etdikləri müqəddəslər Allahın eyni yolunun üstədirlərsə, eyni yola çağırırlarsa, o zaman müxtəlif dini sistemlərin insanları parçalaması səhv

yoldur. Bir müqəddəs yol vardır ki, hər kəs o yolun haqq, ədalət meyarlarını əsas tutaraq birləşməyə borcludur. Multikulturalizm ideyalarının da kökündə dini baxımdan bu ideyaların durması, təbliğ olunması daha doğrudur.

Bütün Şərq aləmində məşhur olan bir neçə müdrik insanın istinad etdiyi yeddi kor insanın küçədə bir filə rast gəlib onun müxtəlif yerlərinə əl vuraraq, sonradan isə onu öz bildikləri kimi təsvir etməsi barədə hekayət Nəiminin təfsirində daha multikultural görünür. Yəni, lider insanların əksəriyyəti kor insan kimi gerçəkliyi görmədən və duymadan, həqiqəti öz dərk etdikləri kimi görməyə və anlatmağa çalışırlar. Əslində onların insanlara təlqin etdikləri həqiqətin özü deyil, müəyyən yöndən bəzi insanlar tərəfindən anlaşılan tərəfidir. Amma, günlərin bir günü, bir insan ortaya çıxıb həqiqətin özünü əhatəli şəkildə anlatsa belə, təəssüf ki, insanlar yenə də onun arxasınca getmirlər. Nəimiyə görə hər kəsin bir tərəfə getməsinə baxmayaraq əslində bir həqiqi yol vardır. Buradan alınan yekun fikir odur ki, insanların, cəmiyyətin vahid ideya ətrafında ahəngdar şəkildə birləşməsi mümkündür. Multikulturalizm də bacardıqca insanları belə bəşəri dəyərlər ətrafında birləşdirə bilər.

İsaya Fatimə övladı kimi baxan Nəimi əslində ciddi fəlsəfi bir ümumiləşmə aparır. İnsanlara fiziki olaraq deyil, mahiyyətnə görə münasibət bildirir. İsa təbii ki, fiziki olaraq Fatimənin övladı deyildir. Ancaq, mahiyyətcə o da Fatimə olan yoldadır. Adəm də, İsa da, Məhəmməd də və s. bütün həqiqi müqəddəs insanlar bu yoldadırlar. Bu ideya multikulturalizm tərəfdarlarına bir daha onu deyir ki, insanlığın, bəşəriyyətin bir doğru yolu var. Bütün dini kitabların təlqin etdiyi ədalət və haqq yoludur.

* * *

İsa gedərkən; Mən yenə axırzaman peyğəmbərinin ümməti şəklində gələrəm və Məhəmmədin bayrağı olan liva-yi həmdi (Məhəmməd ümmətinin məhşər günü altında toplanacağı bayraq) gətirib Mehdi namində ortaya çıxaram.

* * *

...Cəbrayil öndə, Adəmin mərtəbəsinə yüksəldilər. Cəbrayil dedi: – Ya Məhəmməd, bu atan Adəmdir. Ona salam ver. Məhəmməd salam verdi. Adəm onun salamını alaraq: – xoş gəldin, ey mənim Saleh oğlum – dedi. Sonra onlar göyün ikinci qatına yüksəldilər. Orada eyni şəkildə qapını açıb içəri daxil oldular. Cəbrayil Yəhya və İsa peyğəmbəri Məhəmmədə göstərdi. Məhəmməd peyğəmbər onlara da salam verdi. Onlar da salamı alıb: – xoş gəldin, Saleh qardaşımız – dedilər. Oradan geçib göyün üçüncü qatına yüksəldilər. Orada onlar Yusif peyğəmbəri gördülər. Göyün dördüncü qatında İdris peyğəmbəri, beşinci qatda Harun peyğəmbəri gördülər. Göyün altıncı qatında isə onlar Musa peyğəmbərin ağladığını görüb ondan ağlamağının səbəbini soruşdular. Musa dedi: – Məndən sonra bir peyğəmbər gələcəkmiş, onun ümmətindən cənnətə girənlər mənim ümmətimdən daha çox olacağı üçün ağlayıram. Sonra onlar göyün yeddinci qatına yüksələrək İbrahim peyğəmbəri gördülər. Cəbrayıl dedi: Bu sənin atandır….

* * *

İsaya vəcihən -fi'd-dünya vəl-ahirəti- (dünya və axirətdə tanınan) deyilmişdir. Yəni, Məryəmin xilqətinə (yaranmasına) yol tapdı və cənnət əhli emrəd (gənc) olub yeddi xətt sahibi oldu…

YÜSİF MÜSKİRİ ŞİRVANİ
(XIV)

Yusif Müskirinin ulu babaları XIII əsrdə Mədinədən Qarabağa, oradan da Qubanın Müskür nahiyəsinə gəlmişlər. Şeyx Yusif Müsküri XIV əsrin ortalarında burada dünyaya gəlmişdir. Xəlvəti təriqətinə mənsub olan mövlana Yusif Müsküri Seyyid Yəhya Bakuvinin müridi olmuş, irşad xirqəsini ondan almışdı. O, Müskürə qayıdaraq burada irşad və mənəvi tərbiyə ilə məşğul olmuşdu. Ehtimal olunur ki, Müskiri burada öz şeyxinin xəlifəsi olmuşdur. Mövlana Yusif Müskürinin məzarı və onun yurdu sonralar Şeyxlər (indi Xaçmazın Şıxlar kəndi) adı ilə məşhur olmuşdur. Mövlana Yusif Müskürinin ölüm tarixi XV əsrin ortalarına təsadüf edir.

XIX əsrin tanınmış Azərbaycan ədəbiyyatşünası və mətnşünası Əbdülqəni Nüxəvinin bildirdiyinə görə, Şeyx Molla Yusif Müskiri sufizmin "afdalul-üləma" (alimlərin ən fəzilətlisi), şeyxul-muhəqqiqin(araşdırmacıların şeyxi, başçısı)kimi yüksək adlara layiq görülmüşdür. Müskiri həmçinin sufizm iyerarxiyasında ən yüksək ad hesab edilən və kamil insana bərabər tutulan qutbu-şutyux (şeyxlərin qütbü)adını daşımışdır.

Mövlana Yusif Müskiri "Bəyanü'l-Əsrar" (Sirlərin bəyanı) adlı əsərini ərəbcə qələmə almışdır. Əsərdə əşyanın maddi və mənəvi xüsusiyyətlərinə, təsəvvüf əhlinin adət və ədəb qaydalarına, ruh, idrak və varlığın birliyi

(vəhdətü`l-vucud) kimi mövzulara toxunulur. Traktatın girişində Müskiri təsəvvüfi aspektdən şəriət və mərifət məfhumlarını açıqlayır. Ona görə zahiri idrak Tanrının atributlarının dərki, mərifət isə Onun zatının dərkidir. Müskiri Cənnəti də ezoterik baxımdan açıqlayır. Müskiriyə görə bu dünyadan fərqli olaraq insanlar Tanrını görəcək və tamaşa edə biləcəklər. Digər tərəfdən Yusif Müskiri dünyanın yaradılışı və dərkini də əxlaqi cəhətdən qiymətləndirir. Müəllifə görə insanı digər varlıqlardan mahiyyətcə ayıran səbəblərdən biri də onun əxlaqlı varlıq olmasıdır. Belə ki, hər hansı bir canlıda utanma, vicdan və ictimai şüuur kimi məfhumların olmaması birbaşa Tanrının yaradılışı ilə bağlıdır.

Yusif Müskiri təsəvvüf fəlsəfəsinə sadiq qalaraq digər varlıqların yaranmasıyla bağlı da əsərində orjinal fikirlərə yer verir.

Yusif Müskiri əsərlərində həm rasional, həm də daxili aləmi əks etdirən mövzulara kompleks şəkildə toxunmuşdur. Müəllif daxili aləm dedikdə, nəfsin hallarını və məqamlarını nəzərdə tutur. O, nəfsin maddi noqsan və qüsurlardan təmizlənməsi üçün irfani mərhələlərdən keçməsini vacib sayır. Yusif Müskirinin "Bəyanül-Əsrar" kitabı təsəvvüf ədəbiyyatı baxımından olduqca sanballı bir əsərdir və təsəvvüf fəlsəfəsinin izahları ilə zəngindir.

Müskirinin varlıq və təsəvvüf fəlsəfəsi tanrı mərkəzli olub, bütün insanların bu varlıq aləmində əxlaqlı, məsuliyyətli və vicdanlı olmalarına istinad edir. Məhz buna görə təsəvvüf fəlsəfəsinə müvafiq olaraq, insanların ictimai şüuru multikultural və tolerant ideyaları ehtiva edir.

* * *

Varlıq vəhdət (birlik) dairəsindən Tanrının nuru vasitəsilə kəsrət (çoxluqlar) dünyasına yayılmışdır. Məhz, ülvi aləmdən sufli (aşağı) aləmə doğru varlıqlar hərəkət etmişdir. Buna görə də varlıq mərtəbələrinə (məratibu`l-vucud) müvafiq olaraq varlıqlar xüsusi rollarını yerinə yetirirlər.

İMADƏDDİN NƏSİMİ

(1369-1417)

Ədəbi-fəlsəfi fikrin ən böyük dühalarından biri sayılan İmadəddin Nəsimi Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Şamaxıda dünyaya göz açmışdır. Nəsiminin doğulduğu və böyüdüyü mühit onun gələcəkdə böyük şair-filosof kimi inkişaf etməsində xüsusi rol oynamışdır. Onun yaradıcılığına nəzər saldıqda görürük ki, Nəsimi dövrünün yüksək tələblərinə cavab verən mədrəsələrdə təhsil almışdır. O, Şərq fəlsəfəsi ilə yanaşı, Qədim Yunan filosoflarının yaradıcılığına bələd olmuş, məntiq, astronomiya, riyaziyyat və tibb kimi elm sahələri ilə yanaşı ilahiyyat elmini də dərindən mənimsəmişdir. Nəsimi əsərlərini Azərbaycan türkçəsi, fars və ərəb dillərində qələmə almışdır.

Nəsiminin yaşadığı dövr bununla xarakterizə olunur ki, o dövrdə müxtəlif sufi təriqətləri ortaya çıxmış və onların arasında gedən qızğın mübahisələr səngimək bilməmişdir. O dövrdə geniş yayılan sufi ordenlərindən biri də məhz hurufilik olmuşdur. Nəsimi də məhz hürufilik təriqətinin əsas nümayəndələrindən biri kimi bu sufi təriqətinin təbliğatçısı olmuşdur. Ümumiyyətlə, Nəsimi yaradıcılığında insana böyük qiymət vermişdir. O, dini və irqi mənsubiyyətindən aslı olmayaraq insanı kamillik dərəcəsinə yüksəltməklə Tanrıda əridərək, ona ölməzlik qazandırır və insanı hər şeyin meyarı

kimi dəyərləndirirdi. Nəsiminin dini-fəlsəfi dünyagörüşü ənənəvi xarakter daşımadığından, birmənalı qəbul edilməmiş, məhz buna görə də edam olunmuşdur.

Nəsiminin fəlsəfəsinə və onun yaradıcılığına müraciət etdikdə görərik ki, o insanları dini və irqi xüsusiyyətlərinə görə deyil, yalnız onların mənəviyyatına, daxili gözəlliklərinə və təqvalarına görə qiymətləndirir. Onun gözündə insan İlahi məzmun və mahiyyət daşıyır[1]. İnsanın dini mənsubiyyəti o qədər də əhəmiyyət kəsb etmir. Nəsimin multikultural şəxsiyyəti və insanlığa yanaşması özünü şairin aşağıdakı misralarında əks etdirməkdədir.

* * *

Hər kim ki, müştaq olmadı şol dilbərin didarinə,
Yetişmədi Musa kimi anəstünarın narinə.

* * *

Hər kim ki, tövhid əhlidir, ol didü vadid əhlidir,
Ruzi-əzəldən ta əbəd istər kəmali-müntəha[2].

* * *

Yaxıldı canına canı dəmi-İsa Nəsiminin
Vüsali dərdinə dərman, irişdi cani-bimarə.

[1] Müqayisə üçün bax." *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları"* (səh 61-67). *Elmi redaktor.*

[2] Müntəha – Quranın 53-cü surəsininı 13-cü ayəsindən iqtibas olunmuşdur. Dini rəvayətə görə bu ağac göydədir və çox böyük ağacdır. Quranda bu ifadə "Sidrətülmüntəha" kimi yazılmış. Məhəmməd peyğəmbər meraca gedən zaman Allahı ikinci dəfə həmin ağacın yanında görmüşdür.

* * *

Gəh çıxmışam Isa kimi, çərx üstünə oturmuşam,
Gəh varmışam Yusif kimi, Misirdə sultan olmuşam.

* * *

Həyatı Xızr ilə İsa bilir, arif necə buldu,
Rümuzi-eşq[1] ilə irdi dodağın eyni-abından.

* * *

Mülki-İran, Mülki-Turan, Mülki-Hindü, Mülki-Sind,
Mülki-Şamam, Mülki-qeysər, Rumiyəm, Ənkuriyəm.

[1] Rümuz – rəmzlər deməkdir.

MƏHƏMMƏD ŞİRVANİ

(1375-1451)

Məhəmməd ibn Mahmud Şirvani haqqında müxtəlif fikirlər vardır. XV əsrin ilk yarısından etibarən Şirvandan gələrək Anadoluda məşhur bir həkim kimi qəbul edilən Məhəmməd ibn Mahmud Şirvaninin həyatı haqqında mənbələrdə kifayət qədər məlumat yoxdur. Məhəmməd Şirvaninin Anadoluya nə zaman gəldiyi və ailəsi ilə burada nə vaxt məskunılaşdığı qeyri-müəyyəndir. Bəzi müəlliflər isə səhvən onun Buxaradan, Şirvan qəsəbəsindən gəldiyini bildirirlər. Olduqca zəngin elmi yaradıcılığıa malik olan Məhəmməd Şirvani dövrünün ən tanınmış alimlərindən biri olmuşdur. Mentəşə oğlu İlyas bəyə "İlyasiyyə", Germiyan oğlu Yaqub bəyə "Yaqubiyyə", Osmanlı hökmdarı Çələbi Məhəmmədə "Sultaniyyə", II Murada "Töhfeyi-Muradi", Osmanlı dövlət xadimlərindən Timurtaş oğlu Umur bəyə "Cövhər-namə" və dövlət xadimi Vəliyəddinə "Ravzatu`l-İtr" əsərlərini ithaf etdiyini nəzərə alsaq, XV əsrin ilk yarısında Məhəmməd ibn Mahmud Şirvaninin yaradıcılığının zəngin olduğunu müəyyən edə bilərik.

Osmanlı tibb tarixində Mahmud Şirvani kimi tibblə bağlı çoxlu əsər yazan ikinci bir həkim yoxdur. "Kəşfu`z-Zunun" əsərində Mahmud Şirvaninin "İlyasiyyə" adlı tibbə dair əsərindən bəhs edildiyindən, mənbələr "İlyasiyyə" adlı kitabın mövcudluğunu iddia edir. Bu

mənbəyə görə Şirvani Mentəşə oğullarından İlyas ibn Məhməd Bəyin adına" İlyasiyyə" adlı ərəbcə bir əsər yazmış, sonra isə İlyas bəyin istəyi ilə bu əsəri Türk dilinə tərcümə etmişdir.

Məhəmməd Şirvani "Töhfəi-Muradi" adlı əsərinin müqəddiməsində Osmanlı sultanı II Muradın himayədarlığı üçün ona dua etdiyini, hökmdarın ona bəxş etdiyi ianələrdən razı qaldığını və daha əvəllər Çələbi Məhəmmədin də ona qayğı göstərdiyini qeyd edir.

M.Şirvani göz xəstəliklərinə dair son əsəri olan "Mürşidi"ni 1438-ci ildə yazdıqdan bir neçə il sonra vəfat etmişdir. Məhz, yaşadığı dövrün bütün dövlət adamlarına ithaf etdiyi əsərlər olduğuna görə Sultan Məhəmməd Fatihə əsər ithaf etməməsi onun 1451-ci ildən öncə vəfat etdiyini göstərir.

İlk dövr Osmanlı dönəmində tibb sahəsində ən çox elmi əsər yazan Məhəmməd ibn Mahmud Şirvani olmuşdur. Məhz əsərlərinin çoxunu sadə Türk dilndə yazması bu əsərlərin əhəmiyyətini daha da artırmaqdadır. Şirvani eyni zamanda Məhəmməd ibn Həsən əl-Katib əl-Bağdadinin kulinariyaya dair "Kitabu`t-Tabix minə`l-ətimə fi qablə`t-tıbb" adlı əsərini Türk dilinə bəzi əlavələr edərək tərcümə etmişdir. Məhəmməd ibn Mahmud Şirvani əsərlərindən altısını ərəb dilində yazmışdır. Xüsusilə tibbə dair kitabları qələmə alarkən özündən əvvəl yaşamış müsəlman həkimlər ilə klassik yunan təbiblərinin əsərlərindən iqtibaslar etdiyini görmək mümkündür.

Ümumiyyətlə, Məhəmməd Şirvani çox yönlü bir alim və həkim olmuşdur. XV əsrin ilk yarısında onun

qədər tibbə dair əsər yazan başqa bir müəllif yoxdur. Bəzi tibb terminlərinin türkçə verməsi də türk dilinin zəngilşməsinə səbəb olmuşdur. Ayrıca, M.Şirvaninin "Yaqubiyyə" adlı əsəri sağlamlıq, qida, yemə-içmə, idman və dərmanlar barəsində müxtəlif mövzulardan bəhs edən ərəb dilində yazılmış bir əsərdir. Bu əsər Germiyan hökmdarı Əmir Yaqub ibn Süleymana (1402-1429) təqdim edilmişdir. Əsərin giriş hissəsində insanın yaradılış məqsədi, sağlamlığın mühafizə edilməsinin şərtləri və kitabı yazmaqdakı məqsəd açıqlanır. Ümumi olaraq ağır və yüngül qidalar, ata minmə, qış və yay idman növləri, yuxu, yuyunma, sakitləşdirici dərmanlar, cinsi gücü artıracaq məcunlar və bəzi bitki çaylarının hazırlanması kimi mövzular iyirmi üç fəsildə geniş şəkildə izah edilir.

Məhəmməd Şirvaninin "Ravzatu`l-İtr" adlı əsəri əczaçılığa dair ərəb dilində yazılmış əsərdir. Bir müqəddimə və qırx dörd fəsildən ibarət olan əsərdə dərmanlar, içəcəklər və xoş ətirlərlə bağlı məlumatlar verilir. Müqəddimə hissəsində elmi tədqiqatlarda hökm verərkən çox diqqətli olma, əczaçılıq sənətinin necə idarə olunacağı, xüsusi dərmanların hazırlanması üçün bitkilərin necə toplanması, yuyulması, təmizlənməsi, adlandırılması, ölçüləri verilmişdir. Kitabın fəsillərində isə məcunlar, sakitləşdirilcilər, məlhəmlər, yağlar, həblər və s. haqqında məlumat verilir. Ayrıca, dərmanların hazırlanması, faydaları, istifadə olunacağı zaman və müddəti, yan təsirləri hər maddədə ayrı-ayrı izah edilmişdir.

M.Şirvaninin "Risalətu`l-Qulunc" bel ağrısı şəklində olan xəstəliyə və xəstəliyin müalicə metodlarına dair ərəb dilində yazılmış əsəri müqəddimə və bir fəsildən ibarətdir.

Bundan başqa M.Şirvaninin ilahiyyat elmlərinə də diqqəti böyük olmuşdur. Belə ki, onun Quranın təfsirinə dair öz mülahizələri ilə zənginləşdirilmiş "Miftahu`n-Nəcat li-ma yənfətihu bihi əbvabu`l-birri və`s-səadət" əsəri Quranın dərk olunması və dil fəlsəfəsi baxımından xüsusi əhəmiyyətlidir. Onu qeyd edə bilərik ki, tibbə dair Türk dilində altı, ərəb dilində isə dörd əsər qələmə almış M.Şirvani Osmanlı tibb tarixinin məhsuldar müəlliflərindəndir.

M.Şirvanin elmi-fəlsəfi yaradıcılığı olduqca zəngindir. Xüsusən də, tibb elminə verdiyi töhfələr onu dünya elm tarixində əvəzsiz edir. Yəni, M.Şirvani elmi yaradıcılığı və şəxsiyyəti ilə cahanşümül bir insan olmuşdur. Bu da onun multikultural və tolerant dəyərlərlə zənginləşən şəxsiyyətindən xəbər verir.

* * *

Mən fəqir, həqir Məhəmməd İbnu Mahmud Şirvani, "ulum-ilahi və ulumi-dünya"[1] təhsilindən sonra Rum məmləkətində tibb elmləri ilə məşğul oldum.

* * *

Gördüm ki, hər kəsin qiymətli daş-qaşlara meyli çoxalıb. Ancaq bunların yaxşılarının, xalislərinin seçilməsi müşkül hal almışdı. Bunlar çox baha satılar, işəyaramaz qiymətli daş-qaşlar

[1] Dini və dünyəvi elmlər

və zinət əşyaları ilə müsəlmanları aldadırlardı. Bu məqsədlə mən türk dilində "Cövhər-namə" adlı bir kitab yazmağa başladım.

* * *

Tibb elminə dair "Sultaniyyə" adlı bu kitabı yazdım ki, hər kəs faydalansın.

1.

SEYİD YƏHYA ŞİRVANİ (BAKUVİ)

(1410-1462)

Şamaxıda anadan olan Seyid Yəhya Şirvani (Bakuvi) dövrünün sufi şairi və mütəfəkkir alimi kimi tarixə düşmüşdür. Onun Şirvanşah I Xəlilullahın himayəsində, saray mühitində yaşayıb yaratdığı bilinir. Şirvani elm və təhsil əldə etmək üçün İslam dünyasının elm mərkəzlərinə səyahət etmiş, həm elmini artırmış, həm də çoxlu sayda tələbələr yetişdirmişdir. Onun tələbələri arasında Osmanlı saraylarında şan-şöhrətə sahib böyük sufilər də yer almışdır. Davamçıları Seyid Yəhyanın xəlvətilik təriqətində göstərdiyi xidmətə görə ona təriqətin ikinci piri (piri-sani) adını vermişlər. 40 ildən çox Bakıda yaşayıb yaradan mütəfəkkir burada dəfn olunmuşdur. Seyid Yəhya Şirvaninin ətraf bölgələrə göndərdiyi xəlifələrin təbliğatı nəticəsində xəlvətilik Azərbaycanla məhdudlaşmayaraq, Balkan yarımadasından Şimali Afrikaya qədər, bütün İslam dünyasında yayılmışdı və hal-hazırda da İslam dünyasının ən böyük təriqətlərindən biri hesab olunur.

Seyid Yəhya Şirvaninin elmi və irfani yaradıcılığı olduqca zəngindir. O, əsərlərini Azərbaycan türkcəsi ilə yanaşı ərəb və fars dillərində də yazmışdır. Onun yüzdən çox əsəri bilinməkdədir. Azərbaycan türkcəsində yazdığı tək əsəri olan "Şəfa əl-Əsrar" kitabı təsəvvüf fəlsəfəsinin izahı baxımdan məşhurdur. Şirvaninin "Qisseyi-Mənsur" əsərində isə sufizm və şəriətin vəhdəti ortaya qoyu-

lur, şəriət məhkəməsi tərəfindən edam edilən böyük sufi Mənsur Həllacın qətli qınanılır, sufizm tərənnüm edilir. Görkəmli mütəfəkkir əhli-sünnə məzhəbinə aid olmasına baxmayaraq, İslami-vəhdət yolunu seçmiş, "Virdü-Sət-tar", "Mənazilül-aşiqin" və s. əsərlərində əhli-beyt sevgi-sini təbliğ etmişdir. Onun əsərləri insanın mənəvi saflaş-ması, kamillik mərtəbəsinə yüksəlməsi məsələlərinə həsr olunmuşdur.

Seyid Yəhya Şirvani elmi, dini və fəlsəfi dünyagörü-şündə multikultural kimliyə sahib olmuşdur. O, sufi mənə-viyyatına sahib olduğundan heç vaxt insanları dini və milli mənsubiyyətinə görə dəyərləndirmir, mənəvi paklığa yük-sək dəyər verirdi. Görkəmli tarixçi A.A.Bakıxanov Seyid Yəhyanı təriqət böyüklərindən saymış, onun haqqında "fə-zilət və gözəl xasiyyətləri məşhurdur" demişdir.

* * *

Nuhun elmini, Yəhyanın zöhdünü[1], İsa peyğəmbərin kəlamını Əlidən tələb et ki, bunların hamısı Əlidir.

* * *

Alimlərin məqamı nəbilərin məqamıdır.

* * *

Varlıqlar Onun (Allahın) nurundandır.

* * *

Cahil şeyx ilə büt arasında heç bir fərq yoxdur.

* * *

Ey haqqı tələb edən mömin! Kafirləri söymə.

[1] Zöhd - zahidlik, tərkidünyalıq

FƏTULLAH ŞİRVANİ

(1417-1486)

Fətullah Şirvani Şamaxıda anadan olmuşdur. O, ilk təhsilini Şamaxıda atasından almışdır. Sonra Səraxs və Tus şəhərlərində təhsilini davam etdirmişdir. Tus şəhərində şiə alimi Seyyid Əbu Talibin tövsiyəsi ilə Seyyid Şərif əl-Cürcaninin "Şərh əl-Təzkirə fi elm əl-Heyət" (astronomiyaya dair şərh) adlı əsərini oxumuşdur. Sonra, 1435-ci ildə Səmərqəndə getmiş və Səmərqənd mədrəsəsində Musa Qazı-zadə Rumidən astronomiya, teologiya (kəlam) və dilçilik elmlərini öyrənərək 1440-cı ildə icazətnamə almış, şafi hüququna dair Cəmaləddin Yusif Bəy İbrahim əl-Ərdəbilinin "əl Ənvar li`l Əməl və`l-Əbrar" (Əməl və yaxşılıqların nurları) adlı əsərini şərh edərək Səmərqənd hakimi Uluğ Bəyə təqdim etmişdir.

Fətullah Şirvani Səmərqənddəki beş illik təhsilindən sonra Şirvana qayıtmış, bir müddət burada mədrəsələrdə dərs verdikdən sonra müəllimi Qazı-zadənin tövsiyyəsi ilə Sultan II Murad dövrünün (1421-1451) axırlarında Anadoluya getmiş, Kastamonu şəhərində Çandaroğlu İsmayıl Bəyin hörmətini qazanaraq, bu şəhərdəki mədrəsələrdə dərs verməyə başlamışdı. Onun tələbələrindən İbrahim əl-Niksari və Kəmaləddin Məsud əl-Şirvani ən məşhurlarından idi.

Fətullah Şirvani 1453-cü ildə Bursaya gedərək Osmanlı vəziri Çandarlı Xəlil Paşaya ithaf etdiyi təfsirlə

bağlı əsərini ona təqdim edir. Yenə bu tarixlərdə "Məcəllə fi`l Musiqi" (Musiqi risaləsi) adlı əsərini Fateh Sultan Məhəmmədə təqdim edir. Müəllif bu əsəri qələmə alarkən Yunan filosoflarının düşüncələri ilə bərabər İbn Sina, Nəsirəddin Tusi, Səfiəddin Urməvi, Əbdülqadir Marağayi və s. alimlərin əsərlərindən də müqayisəli şəkildə istifadə etmişdir. O, bu əsərində Türk musiqisində istifadə olunan bəzi məqamların insanlara təsirlərindən bəhs edir. Bu baxımdan insana müxtəlif zamanlarda təsir edən musiqinin tədqiqi əhəmiyyət kəsb edir. Ayrıca Fətullah Şirvani hansı vaxtlarda hansı musiqinin insane necə təsir edəcəyini də əsərində göstərmişdir. Məhz bu əsərdə müxtəlif xalqların musiqi zövqləri və hansı məqamların nə zaman ifa olunacağına dair önəmli məlumatlar mövcuddur. Bu əsər dilimizə Əmirşah Əmirəhmədov tərəfindən tərcümə edilmişdir[1].

İstanbulun fəthindən sonra dəyişən siyasi atmosfer içərisində himayədarı vəzir Xəlil Paşa edam edilincə, Fətullah Şirvani yenidən Kastamonuya geri qayıtmışdır. Şirvani bu hadisədən sonra Qazı-zadənin "Şərh əl-Mulaxxas fi elm əl-Heyət" (astranomiya elminə həsr olunmuş kiçik şərh) əsərinə "əl-Fəraid və`l-Fəvaid" adlı bir haşiyə yazıb Fateh Sultan Məhəmmədə təqdim etsə də, ondan böyük rəğbət görməyib. F.Şirvani 1465-ci ildə Həccə gedərkən bir müddət İraqda olur və orada mədrəsələrdə dərslər deyir. Ziyarəti yerinə yetirdikdən sonra Məkkədə (1467) qalaraq burada təlim-tədrislə məşğul olur. Bəzi klassik mənbələrin səhv verdikləri məlumatların, yəni, Şirvaninin 1453-cü ildə

[1] Fətullah Şirvani, ***"Musiqi məcəlləsi"***, Bakı, Şərq-Qərb nəşr, 2006.

öldüyünün əksinə, Məkkədə ikən onunla görüşən Şəmsəddin Səhavi hələ 1475-ci ildə Şirvaninin ziyarətdən qayıdaraq Qahirəyə getdiyini qeyd edir.

Həccdən qayıtdıqdan sonra Fətullah Şirvani bir müddət İstanbulda yaşamış və bəzi mənbələrə görə 1478-ci ildə vətəninə dönərək 1486-cı ildə Şamaxıda vəfat etmişdir. Ancaq bu tarix hələ ki, qəti deyildir. Çünki uzun illər Şirvaninin yaşadığı Kastamonu şəhərində də Şirvani adlanan məhəllədə onun qəbrinin olduğu bilinməkdədir.

Şirvani bir çox yerləri ziyarət etmiş və o dövrün böyük alimləri ilə ünsiyyətdə olmuşdur. Onun astronomiya, riyaziyyat, dilçilik, ədəbiyyat, məntiq, fəlsəfə və musiqi nəzəriyyəsi və sair elmlərə aid əsərləri mövcuddur.

* * *

İnsanoğlu yaradılış baxçasında gülən bir gül kimidir,
Ancaq, sənin də bildiyin kimi, baqi qalma ümidi yoxdur.

* * *

Məqamlarının bir hissəsi insanda cəsarət və tam rahatlıq təsiri yaradar. Bəzi məqamlar isə insanda xoş bir ləzzət hissi əmələ gətirər. Digər məqamlar isə hüzün və kədər yaradar

* * *

Həyat gözəldir amma nə yazıq ki, əbədi deyidir,
O halda beş günlük fani ömrə etimad yoxdur.

* * *

Ağac kimi uzanan sevgilinin boyu və yellənərək gedən insan,
Daima meyvə kimi tərü-tazə qalıcı deyildir.

* * *

Müvafiq olan səs nəfsin, kədərin dərinliklərindən rahatlığın zirvəsinə çıxmaq üçün bəmdən zilə doğru izlənən səsdir. Hüznə uyğun olanı isə nəfsi rahatlığın zirvəsindən kədərin içinə salmaq üçün zildən başlayıb bəmə doğru fərahlığa enməkdir".[1]

[1] Fətullah Şirvaninin yaradıcılığında musiqi və onun məqamları müxtəlifliyin, çoxmədəniyyətliyin reallığına işarə edir.

SEYİD İBRAHİM GÜLŞƏNİ

(1423-1534)

Seyid İbrahim Gülşəni təsəvvüf alimi və xəlvətiliyin "gülşəni" qolunun qurucusudur. Onun doğum yeri haqqında fərqli iki fikir mövcuddur ki, bunlardan biri Gülşəninin Bərdədə, digəri isə Diyarbəkirdə doğulması ilə əlaqədardır. Seyid İbrahim Gülşəni ziyalı bir ailədə dünyaya göz açmışdır. Atası Məhəmməd Amidi fiqh, kəlam və məntiq üzrə əsərlər yazmış din alimi olmuşdur. Ancaq, oğlunu böyüdüb boya başa çatdırmaq ona nəsib olmamış, İbrahimin iki yaşı olanda atası vəfat etmişdir. Bundan sonra onu əmisi Seyid Əli öz himayəsinə götürmüş və İbrahim ilk təhsilinə də onun yanında başlamışdır. Onu da qeyd etmək lazımdı ki, İbrahimin əmisi Seyid Əli də təsəvvüf şeyxlərindən biri olmuşdur.

Tarixi mənbələrə görə Gülşəni sonra Təbrizə gedir və orada Sultan Uzun Həsənlə tanış olur və zamanla onun etibarını qazanır. Hətta sultana o qədər yaxın olur ki, Uzun Həsən ona istədiyi vaxt yanına gedib-gəlməsi üçün icazə verir və buna görə ona "Tərxan" ləqəbini verirlər. Uzun Həsənin istəyi üzərinə Qarabağa gedən Seyid İbrahim Gülşəni orada Dədə Ömər Rövşəni ilə görüşür və onun mənəvi durumunu yaxından hiss edən İbrahim bundan o qədər təsirlənir ki, hətta mənən ona bağlanır. Hətta, bəzi mənbələrə görə Dədə Ömər Rövşəni vəfatından öncə Seyid İbrahim Gülşənini xəlifəsi elan edir.

Gülşəninin "Ruznamə", "Simurqnamə", "Qədəmnamə", "Məsnəvi-xəfi"adlı əsərləri, İbn Əl-Farizin "Qəsideyi-Taiyyə" əsərinə yazdığı şərhi və türk, ərəb və fars dillərində yazdığı divanı bilinməkdədir. Seyid İbrahim Gülşəninin daxili dünyasına şeirlərinin işığında səyahət etdikdə onun bir çox sufilərdə olduğu kimi, nə qədər humanist, nə qədər tolerant olduğunun şahidi oluruq. Belə ki, İbrahim Gülşəni ömrü boyu səhayətlərdə olmuş, dini, məzhəbi fərqli olan insanlarla ünsiyyət saxlamış, qarşılıqlı təsirlərə məruz qalmışdır. O, hal adamı olduğu üçün dinə dinin fövqündən baxa bilmişdir. Hətta, bəzi mənbələrdə qeyd edilir ki, Seyid İbrahim Gülşəni Dədə Ömər Rövşəni ilə tanış olduqdan sonra ondan o qədər təsirlənmişdir ki, hətta bəzi zamanlar, ekstaz halında əlində şərab, küçələrdə belə gəzirmiş.

Ümumiyyətlə, Seyid İbrahim Gülşəni şəxsiyyəti və yaradıcılığı yalnız bir xalqa, millətə mənsub deyil, ümumtürk və ümumşərq miqyaslıdır. Çünki, onun poeziyası yanız gözəllikləri və sevgini tərənnüm etmir, həm də özündə dərin məna və ideyalar ehtiva edir. Bu da o deməkdir ki, Seyid İbrahim Gülşəni həm də dövrünün böyük mütəfəkkiri olmuşdur. Çünki, onun poeziyasında sətirlərdə gizlənmiş fəlsəfi mənalar kəsb edən dərin fikirlər insanı düşündürməyə bilmir. Onun fəlsəfi dərinliyi olan poeziyasında insanlara qarşı yönələn sevgi, məhəbbət, hörmət, tolerant və multikultural ideyalar isə demək olar ki, əsas ana xətt kimi keçir.

* * *

...Misirdir məskəni mavi durağum,
Anunçun qılmışam anı yatağum.

* * *

...Hər nəfəs bir elmə məzhər an ilə şan olmuşam,
Mərifətdən ana görə eyni irfan olmuşam.
Biləməzəm nə yüzdən eşidürəm,
Misirdən çıxmadan Rumdan sorağum.
Nedim (dost) taliblərün Rum ilə Şamda
Tolar güllər dəmasından (nəfəs) qulağum.

* * *

Gün kimi rövşən (parlaq) cəmalun mahi-taban
(parlayan ay) bulmuşam,
Görəli xədd ilə xalun küfrü iman bulmuşam.
Olalı zahir cəmalun, ey mələk yüzlü bəşər,
Əhsəni-təqvimə (ən gözəl yaradılış) məzhər,
lövhi-Qur`an (Quran lövhəsi) bulmuşam.

KƏMALƏDDİN ŞİRVANİ

(XV əsr)

Kəmələddin Məsud ibn Hüseyn Şirvani Teymurilər dövlətində (1368-1499) yaşamış məşhur alim və mütəfəkkirlərindən, Fəthullah əş-Şabrani Şirvaninin (öl. 1486) tələbələrindən biri olmuşdur. Görkəmli İran alimi Səid Nəfisi onun həmçinin Molla Caminin yetirmələrindən biri olduğunu da qeyd etmişdir.

Kəmaləddin Şirvani Teymurilərin idarə etdiyi Xorasana getmiş və Heratdakı mədrəsələrdə tədrislə məşğul olmuş, bu şəhərdəki İxlasiyyə və Gövhərşad mədrəsələrində kəlam, məntiq və hikmət dərsləri vermişdir. Onun dərslərini dinləmək üçün hər gün yüzlərlə tələbə mədrəsəyə toplaşırdı. Kəmaləddin Şirvani bir müddət sonra Gövhərşad mədrəsəsini tərk etmiş və Qiyasiyyə mədrəsəsində dərs verməyə başlamışdır.

Dərin bilik və dünyagörüşünə sahib alim kimi onun şöhrəti bütün Xorasana yayılmışdı. Teymurilər dövrünün bir çox tanınmış alimi, o cümlədən Nizaməddin Əlişir Nəvai (1441-1501) onun şöhrətini duyub dərslərində iştirak edirmiş. Onun qələmə aldığı əsərlərdən biri Şəmsəddin Muhəmməd ibn Əşrəf Səmərqəndinin (öl. təqribən 1204) əxlaq fəlsəfəsinə dair "Adabu'l-fazıl" (Fəzilətə dair) əsərinə yazdığı şərhdir.

Müəyyən edə bildiyimiz digər iki əsəri isə Əzudəddin əl-İcinin (öl. 1355) əxlaq və ictimaiyyətə dair

"Risalə fi Adabü'l-Bəhs" (Araşdırma metoduna dair risalə) və "Risalətü'l-Vəziyyə" (Dil fəlsəfəsinə dair) adlı əsərlərinə yazdığı şərhlərdir. Onun ən məhur əsərlərindən biri Səmərqəndinin "Ədəbul-bəhs" əsərinə yazdığı şərhdir. Bu şərhin metodu sintez mahiyyəti daşıyır. Belə ki, Məsud Şirvani həm Şəmsəddin Səmərqəndinin, həm də Fərabi, İbn Sina və antik yunan məntiqçilərinin metodlarını bu əsərində cəmləşdirir.

Kəmaləddin Məsud Şirvani məşhur İslam mütəfəkkiri Katib əl-Qəzvinin əsərinə bir haşiyə də yazmışdır. Əsər "Haşiyə ələ Hikmətü'l-Ayn" adlanır. K.M.Şirvani bu haşiyəsində fəlsəfi elmlərin təsnifatını verir. Şirvani haşiyədə İbn Sina, Fəxrəddin Razi, Seyyid Şərif Cürcaninin adlarını qeyd edir. Müəllif haşiydə daha çox problemli mövzuları anlamağa və açıqlamağa çalışır və mövzuları təfərrüatlı şəkildə şərh edir.

Aldığı təhsil, səyahətləri əsnasında görüşdüyü alimlər və yaşadığı mühit onun humanist, tolerant və multikultural dəyərlərlə bəslənmiş bir şəxsiyyət kimi formalaşmasına öz töhfəsini vermişdir.

* * *

Oxu ədəbdən Hüseyniyə ilə, Ədəb Mirin,
Şah Hüseyn ilə Qara Haşiyə, Məsud hər birin[1].

[1] Osmanlı mədrəsələrində məntiq və araşdırma metodlarına (adabul-bəhs) dair oxudulan müəlliflərin adları , o cümlədən Kəmaləddin Məsud Şirvaninin adı beytdə qeyd olunur. *Elmi redaktor*

MƏHƏMMƏD FÜZULİ

(1494-1556)

Görkəmli Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Süleyman oğlu Füzuli Kərbəla şəhərində anadan olmuşdur. Bütün ömrü boyu bu şəhərdə yaşamış, burada da vəfat etmişdir. Atası Azərbaycan mənşəli Bayat tayfasındandır, İraqa Azərbaycanın Ərəş mahalından köçmüşdür.

Məhəmməd Füzuli əsərlərini türk, fars və ərəb dillərində yazmışdır. Onun ən məşhur əsərləri "Leyli və Məcnun", "Bəngü Badə" poemaları və "Şikayətnamə" əsəridir. Məhəmməd Füzuli görkəmli şair olmaqla yanaşı, həm də böyük filosof idi. O, fəlsəfə tarixi üzrə əsər yazan ilk Azərbaycan müəllifidir desək, -yanılmarıq. Onun "Mətləül-Etiqad" (Etiqadın doğuşu) adlandırdığı bu əsəri mütəfəkkirin digər mədəniyyətlərə, digər dinlərə qarşı göstərdiyi dözümlülüyü və ehtiramı parlaq şəkildə nümayiş etdirir. Bu əsərində Məhəmməd Füzuli antik yunan fəlsəfəsinin görkəmli nümayəndələrinin fəlsəfi fikirləri ilə İslam düşüncəsini sintez edərək, dinlə fəlsəfənin həqiqətin dərk olunması yolunda iki fərqli yol olmasının bariz nümunəsini vermişdir. Ayrıca, bu əsərdən onu da anlaşılır ki, Məhəmməd Füzuli həm də cəmiyyətdə müxtəlifliyi qəbul edən bir şəxsiyyətdir. Dini və milli fərqliliklərindən aslı olmayaraq Yunan filosoflarının müdrik fikirlərindən əsərlərində istifadə etməsi onun böyük dünyagörüşə sahib olmasından xəbər verir.

* * *

Sofistlər (səfsətəçilər) deyirlər ki, aləm xəyali və boş mövhumatdan ibarət olub, həqiqəti yoxdur. Belə bir iddia nəhayət (dərəcədə) tərslikdir. Ona görə ki, onların (səfsətəçilərin) özü də aləmin bir hissəsidirlər və aləmin həqiqətini inkar etmək haqqında mühakimə yürüdürlər. Beləliklə, əgər onlar öz mühakimələrini etibarlı hesab edirlərsə, bununla sabit olar ki, aləmin də həqiqəti vardır və onların iddiası və yaxud hökmü boşdur[1].

* * *

Filosoflardan Miletli Fales demişdir: "Aləmin bir yaradıcısı vardır. Ağıllar bu yaradıcının sifətini mahiyyətcə deyil, ancaq onun əsərləri etibarı ilə dərk edə bilərlər. O, elə bir ünsür yaratmışdır ki, onda varlıqlar və məfhumların şəkli vardır. İstər mənəvi, istərsə də maddi aləmdə olan bütün varlıqların şəkli həmin ünsürdə vardır".

* * *

Əflatun isə ona (Falesə) əsaslanmış və həmin ünsürü "Əflatun qəlibləri" adı ilə məşhur olan qəliblərdə ifadə edərək demişdir: "Aləm iki aləmdən ibarətdir: 1. Əql aləmi ki, əqli qəliblər və ruhani surətlər oradadır. 2. İçərisində cismani bədənlər və növə mənsub cisimlər olan və parlaq bir güzgü kimi əşyanın şəklini özündə əks etdirən duyğu (hiss) aləmi; belə ki, bu aləmdəki varlıqlar o aləmdəki varlıqların izləri (inikası)dir".

* * *

Rəvayətə görə, Fales demişdir: "İlk ünsür sudan ibarətdir, suyun hər bir şəklə düşmək qabiliyyəti olduğuna görə, onun

[1] Göründüyü kimi Füzuli öz etirazlarını ümumiyyətlə digər dinin və digər mədəniyyətin daşıyıcılarına deyil, yalnız düzgün düşüncə sahibi olmayanlara – sofistlərə yönəldir.

sıxlaşıb bərkiməsindən yer, durulmasından (incələşməsindən) od və hava əmələ gəlmişdir. Göy isə odun tüstüsündən törənmişdir" (Bu fikir Tanrının dediyi "Onun ərşi su üzərində idi" (Hud, 7) sözünə uyğundur)[1].

* * *

Miletli Empedokl isə demişdir: "İlk ünsür mütləq bəsit (deyil, içərisində) məhəbbət (cəlbedici) və qələbə (rəddedici) olan birləşmədir. Bu ünsürdən həm bəsit və ruhani cövhərlər, həm də mürəkkəb və cismani cövhərlər törənmişdir və bu nöqteyi-nəzərdən qoşalar növ və sinifcə bir-birilə birləşərək varlıqlara çevrilmişdir. Lakin əksliklər bir-birilə ziddiyyətə girərək fəsada (pozulub parçalanmaya) səbəb olmuşdur".

* * *

Pifaqor demişdir: "Tanrı ağıl ilə ruhu eyni zamanda yaratdıqdan sonra, onların vasitəsilə (ağıl ilə ruhdan), aşağıdakıların (aşağı dərəcəli şeylərin) hamısını yaratmışdır".

* * *

Plutarx Sokratdan rəvayət edir ki, Sokrat demişdir: "Əsaslar üçdür: bunlar yaradıcı, ünsür (element) və surətdən ibarətdir".

* * *

Demokrit demişdir: "Əsaslar yalnız element və ya ağıl deyil, dörd qatışmadan ibarət olmuş və bunlardan bütün bəsit şeylər eyni zamanda (dərhal) törənmişdir. Bunların ardınca sonradan mürəkkəb şeylər növ üzrə əmələ gəlmiş, sonra bütün aləm törənmişdir. Bütün bunlar əbədidir; çünki daimi olan aləmlə bağlıdır".

---

[1] "Füzuli antik yunan və İslami dünyagörüşlər arasında qarşıdurma deyil, ümumi cəhətlər axtarır" *Elmi redaktor*

* * *

Ərəstu demişdir: "Vahid yaradıcıdan ilkin fəal ağıl nəşət etmişdir. Ağıl öz mahiyyəti etibarı ilə mümkün, lakin öz səbəbiyyəti etibarilə vacibdir. Ağıl öz mahiyyətini və səbəbiyyətini xatırlamış və bu xatırlamadan şeylər nəşət etmişdir" (Bu fikir (peyğəmbərin) dediyi "Tanrının ilk yaratdığı şey ağıldır" sözünə uyğundur)[1].

* * *

Filosof Heraklit demişdir: "İlk ünsür bir dəfə özünü, bir dəfə mənşəyini, bir dəfə də həmin mənşəyə olan münasibətini təsəvvür etmiş və beləliklə, əmələ gəlmiş bu üç təsəvvürdən ruh və ağıl yaranmışdır. Sonra ünsürlərin ruhda təcəssüm etməsindən məhəbbət və ədavət (cəlb etmə və rədd etmə) əmələ gəlmişdir. Sonra ruhdakıların ağılda təcəssüm etməsindən məhəbbətlə ədavətdən qarışıq olan varlıqlar yaranmışdır. Beləliklə, varlığın səbəbi məhəbbətdir. Məhəbbət isə birləşmənin səbəbidir. Fəsadın (pozulub dağılmanın) səbəbi isə ədavətdir. Ədavət isə ayrılmanın səbəbidir. Məhəbbətlə ədavət xeyir və şərin səbəbləridir". Belə bir üsul qiyamətə qədər davam edəcək. Qiyamət günündə xeyir şərdən azad ediləcək. "(Xeyir iş görənlər) dəstəsi behiştə, (şər iş görənlər) dəstəsi isə cəhənnəmə gedəcəkdir" (Şura 7)[2].

---

[1] Füzulinin Quran ayələrini antik yunan düşüncəsilə müqayisə edərək şərh və təfsir etməsi klassik İslam düşüncəsində ənənəvi tendensiyanın bariz nümunəsidir. Bu tendensiyanı İbn Sina, İbn Rüşd, Nəsirəddin Tusi vs. filosofların əsərlərində müşahidə edə bilərik. – *Elmi redaktor*.

[2] Füzuli burada da Qərb və atəşpərəstliyin timsalında Şərq dünyagörüşləri arasında qarşıdurma deyil, ümumi cəhətlər axtarır *Elmi redaktor*

MƏHƏMMƏD SƏDRƏDDİN ŞİRVANİ

(1552-1627)

Məhəmməd Əmin ibn Sədrəddin Şirvani qədim Şamaxı qəzasında yerləşən Bico kəndində dünyaya gəlmişdir. O, ilk təhsilini atası Molla Sədrəddindən almış, sonra əllamə Hüseyn Xalxalidən əqaid, məntiq və digər elmləri təhsil etmişdir. Səfəvilər o əraziləri tutduqdan sonra orada əhli-sünnət mənsubları təqib edildiyi üçün ailəsi ilə birlikdə Hələbə, oradan Diyarbəkrə köçmüşdür. Burada Şirvani, Nasuh Paşanın müəllimi olmuş, məhz bunun üçün də Nasuh Paşa vəzir təyin edilincə ustadı Şirvanini özü ilə İstanbula aparmışdır. Beləliklə, Şirvani elmi potensialı ilə qısa vaxt ərzində I Muradın və o dövrün alimlərinin təqdirini qazanmışdır. Bu illər ərzində o, müxtəlif mədrəsələrdə müdərrislik etmiş, müəyyən zamanlar hətta qazı vəzifəsində işləmişdir. Bundan başqa o, xidmətlərinə görə 1615-ci ildə Hələb və Məkkə piyaləsi mükafatı ilə də təltif olunmuşdur. Şirvani 1627-ci ildə İstanbulda vəfat etmiş və orada da dəfn olunmuşdur.

Şirvani təfsir, hədis, fiqh, kəlam, təsəvvüf, məntiq, astranomiya və s. elmlərə həsr olunmuş onlarla əsərin müəlifidir. Onun "Haşiyə ala təfsiru`l-Beyzavi" (Beyzavi təfsirini haşiyə), varlıq, yoxluq və ruh-bədən münasibətlərinə həsr olunmuş "Risalə fi təhqiqi`l-məbdə və`l-məad" (Dünya və axirət haqqında risalə), "Risalə li-halli məsələti`d-dairəti`l-Hindiyyə" (Hindistan hövzəsinə dair risalə), yenə məntiqə dair "Haşiyə alə`l-haşiyə-

ti`s-suğra li`s-Seyyid"(Seyidin haşiyyəsi üzərinə kiçik haşiyyə) kimi əsərləri və bundan başqa müxtəlif elmlərə həsr olunmuş risalələri günümüzə gəlib çatmışdır.

Məhəmməd Əmin Şirvani məşhur İslam mütəfəkkiri Məhəmməd Qəzzalinin "ər-Risalətu`l-Qudsiyyə fi Qəvaidi`l-Əqaid" adlı əsərinin şərhini yazmaqda məqsədinin yaşadığı dövrdəki ictimai münasbiətlərlə əlaqələndirir. O, açıq şəkildə münasibətlərin parçalanmasından, vətən, övlad və dostlarından ayrıldığından bəhs edərək günlərinin pis geçdiyini vurğulayır. Böyük ehtimalla, o, belə bir atmosferdə sakitliyin bərpa olunması üçün etiqad əsaslarını yenidən şərh etmə məqsədini güdmüşdür. O, bunu məhz Şirvandan köçdükdən sonra qələmə almışdır.

Şirvaninin həyat yoluna və elmi yaradıcılığına nəzər saldıqda görürük ki o, böyük elm və irfan adamı olmuşdur. Böyük alim insanları dini, məzhəbi və irqi fərqliliklərinə görə deyil, sahib olduqları insani keyfiyyətləri ilə bir-birlərindən fərqləndirmişdir. Səfəvi-osmanlı çəkişmələri nəticəsində Şirvandakı tolerant mühitin pozulması, məzhəbi ayrı-seçkilik və dözümsüzlük halları ortaya çıxdığına görə Şirvani vətənini tərk etməli olmuşdur. Bu baxımdan o, dözümsüzlükdən zərər çəkmiş bir insan kimi mühacirət həyatı yaşamışdır. Ona görə də, Şirvani həyatı boyu cahillik, savadsızlıq və digər insani olmayan keyfiyyətlərə qarşı mübarizə aparmış, ətrafında tolerant və multikultural mühitin formalaşması üçün əlindən gələn etmişdir.

* * *

...Ümmətlərin ixtilafı və Adəm oğlunun məzhəblərinin fərqliliyinin çox qədim bir gediş və köhnə bir yol olduğunu bil...

* * *

...Bu səbəbdən də Məhəmməd Ümməti müxtəlif firqələrə bölünmüşdür...

* * *

Həyatın başlanğıcı və son haqqında məlumatlara gedən yol iki növdür. Birincisi nəzəriyyə və dəlillərə malik alimlərin, ikincisi isə kəşf və nəfsi riyazət yoludur. Birincilərin bu istiqamətdəki məlumatları hər hansı bir peyğəmbərin dininə istinad edirsə, bunlar kəlamcılar(teoloqlar), etmirsə bunlar (peripatetiklər) məşşailər adlanır. İkincilər isə şəriətə müvafiqlik təşkil edirsə, bunlar sufilər, əks halda işraqi filosoflar adlanır.

* * *

Fars mütəfəkkirləri, ondan başqa Hermes, Pifaqor, Platon və s. filosoflar mövcudatta olan hər bir növün nur aləmində bir idarəedicisi olduğunu irəli sürmüşlər. Bütün varlıq aləmi nurun kölgələridir.

* * *

Əgər əxlaq dəyişmə və dönüşməni qəbul edirsə, əxlaq elminin faydasından bəhs etmək mümkündür.

MƏHƏMMƏD QARABAĞİ

(XVI əsr)

Muhyiddin Məhəmməd Qarabağı Azərbaycanın Qarabağ bölgəsində anadan olmuşdur. O, Qarabağda ilk təhsilini aldıqdan sonra Anadoluya, oradan da İstanbula gedərək burada yaşamışdır. Qarabağı İstanbulda müxtəlif mədrəsələrdə müəllimlik etmişdir. Bu müddət ərzində böyük alimlərin yetişməsində böyük rolu olan Qarabağı Əbdürrəhman Merzifonlu kimi məşhur Osmanlı aliminin ustadı olmuşdur. Bundan başqa, ərəb dili və ədəbiyyatı, təfsir, hədis, fiqh, kəlam və fəlsəfə kimi elmlərdə geniş biliyə sahib olan Qarabağinin həyatından bəhs edən mənbələr, onu dövrünün ən böyük alimi kimi tərif edir. O, fəlsəfə və əqli elmlərə daha çox meyil göstərmişdir.

Məhəmməd Qarabağinin çoxsaylı əsərləri əsasən əxlaq, ərəb dili və ədəbiyyatı, təfsir, hədis, fiqh, kəlam və fəlsəfəyə aiddir. Onun fəlsəfəyə dair "Elmin və idrakın mahiyyətinin təhqiqinə dair" traktatı, dini, fəlsəfi, etik və siyasi məsələləri özündə ehtiva edən "Mühazirələr" kitabı mövcuddur. Fəlsəfə sahəsindəki digər önəmli əsərlərindən biri isə "Hocazadənin filosofların təkzibi əsərinə dair şərh"dir (Taliqə alə təhafü`l-fəlasifə li Hocazadə) Bu əsər Əl-Qəzali ilə İbn Rüşdün fəlsəfi mübahisələri üzərinə yazılmışdır. Müəllif bu əsərində əsasən barışdırıcı mövqedən çıxış edərək gah peripatetikləri, gah da mütəkəllimləri tənqid edir. Ümumiyyətlə o, bu əsərində İbn Sina, İbn

Rüşd, Fəxrəddin Razi və s. filosofların fəlsəfi düşüncələri ətrafında elmi ümumiləşdirmələr aparmışdır.

Məhəmməd Qarabağinin həyat və yaradıcılığına birgə nəzər saldıqda, görərik ki, dövrünün seçkin alimlərindən biri olmaqla yanaşı o, həm də, bütün çərçivələri yaxşı mənada aşan, dünyaya dünyanın fövqündən baxan bir insandır. Onun tək dərdi iman, irfan və insanlıq dərdi olmuşdur. Ümumiyyətlə, fəlsəfə elm və irfanın elə bir istiqamətidir ki, bu sahə ilə məşğul olan insan zamanla hər şeyə, xüsusən də, insanlıq qədər əhəmiyyət kəsb etməyən bütün şeylərə, bir qədər aşağı gözlə baxır. Belə insanlar humanist baxışları ilə seçilir. Məhəmməd Qarabağı də bu cür insanlardan biridir.

* * *

Filosoflar aləmin əbədi olmasının vacibliyini irəli sürürlər. Din əhli isə aləmin əbədi olmamasının vacibliyini deyil, onun əbədiliyinin vacib olmadığını irəli sürürlər. Hətta onlardan aləmin əbədi olması və yox olmasına dair görənlər olduğu kimi alimin heçliyə varacağını qəbul edir. Buna əsalanaraq aləmin heçliyinə dəlalət edən ayələri yazanlar da vardır.

* * *

Bədənin ifadəsindəki vəziyyəti məcbur qəbuı etmiş olsaq da bu onun ixtiyari fəaliyyətlərində də məcbur olmasını vacib etməz.

YUSİF MƏHƏMMƏDCAN QARABAĞİ

(XVII əsr)

Məhəmmədcan Qarabağı ilk təhsilini Qarabağda almışdır. Osmanlı-Səfəvi müharibəsi zamanı o, vətəni tərk edərək Səmərqəndə getmişdir. Yaxın və Orta Şərqdə "böyük axund" təxəllüsü ilə tanınmışdır. O, Səmərqənddə müdərrislik etmiş, İbn Sinanın "əl-Qanun fi`t-Tıbb" əsərinə şərh və haşiyə yazmışdır. Təssüf ki, bu əsərlər hazırda mövcud deyildir.

Yusif Məhəmmədcan Qarabağı məntiq, təsəvvüf, kəlam və təfsir sahəsində sanballı əsərlər yazmışdır. Süleymaniyyə kitabxanasında onun bəzi əsərləri mövcuddur. Məhəmmədcan Qarabağinin "Tətimmətu`l-Havaşi və İzalati`l-Gavaşi"[1] adlı əsəri İslam düşüncəsində haşiyə yazma tendensiyası ilə bağlıdır. Müəllif bu əsərində haşiyənin məzmunu, mahiyyəti və yazılma hədəfləri üzərində duraraq, bu yazma növünün xüsusiyyətlərini açıqlayır.

Yusif Qarabağı həm də Cəlalləddin Dəvvaninin şərhinə təliq yazmışdır. Əsərin adı "Taliqat alə şərhi Cəlaləddin Dəvvani li`l-əqaidi`l-Adudiyyə" adlanır. Bəzi mənbələrdə isə bu əsər haşiyə olaraq keçir. Əsər Aduddin İcinin "Əqaid" əsərinə məşhur osmanli filosofu Cəlaləddin Dəvvaninin yazdığı şərhə Yusif Qarabağinin yazdığı təliqdir. Qarabağinin digər bir əsəri isə "Şərhu

[1] «Tətimmətu`l-Havaşi və İzalati`l-Gavaşi" - Haşiyələrin tamamlanması və səhvlərin düzəldilməsi

Risaləti İsbati`l-Vacib li`-d-Dəvvani" adlanır.. Bu şərhi də ənənə daxilində qiymətləndirmək lazımdır. Ümumiyyətlə, Yusif Qarabağı çox yönlü alim olmuşdur. Bu onun yaradıcılıq mərhələlərində özünü büruzə verir. Məhz, onun təfsirə dair "Risalətun fi`l-mubahasat əlləti vaqat beynə habibullah Mirza Can əş-Şirazi və beynə baazı əfadili`l-Buxara"və "Risalətun fi mubahhase əlləti vaka fi sureti`l-Fatiha beynə`l-Üləma" kimi risalələri də bunun əyani sübutudur.

Yusif Qarabağinin səyahətləri, bildiyi dillər və qazandığı elm onun tolerant və multikultural şəxsiyyət kimi foprmalaşmasına olduqca böyük təsir göstərmişdir. Belə ki, Qarabağdan İstanbula elm dalınca getməsi onu göstərir ki, o elmə, irfana, humanizmə, birlik-bərabərliyə, ədalətə, hikmətə və s. dəyərlərə böyük həsaslıqla yanaşmış və bu minivalla dinindən, irqindən və cinsindən aslı olmayaraq bütün insanlara eyni münasibəti bəsləmişdir.

ƏBDÜRRƏŞİD əl-BAKÜVİ

(XIV-XV əsrlər)

Azərbaycanın tanınmış səyyah, coğrafiyaşünas və iqlimşünas alimi Əbdürrəşid əl-Bakuvinin atası Bakıda doğulmuş və dövrünün yüksək təhsil görmüş adamlarından biri olmuşdur. Bakuvi özü qeyd edir ki, "Bakı – mənim atam, alim İmam Saleh ibn Nurinin vətənidir". Bakuvi Qahirədə vəfat etmişdir.

Əbdürrəşid əl-Bakuviyə böyük şöhrət gətirən əsəri "Kitab Təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar" ("Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri") kitabıdır[1]. Kitabda o zaman Şərqdə məlum olan ölkə və millətlər haqqında məlumat verilir. Əsərdə Azərbaycanın şəhər və yerləri, xüsusilə Bakı şəhəri haqqında olan dəqiq məlumatlar, müəllifin bu ölkə ilə şəxsi tanış olmasına işarədir. Bakuvinin bu əsəri Zəkəriyyə əl-Qəzvininin "Asar əl-bilad və əxbar əl-ibad" ("Ölkələrin abidələri və Allah bəndələri haqqında xəbərlər") adlı coğrafi ensklopedik əsərinin ixtisar edilmiş variantıdır. Ancaq, Bakuvi Bakı, Aran və başqa yerlər haqqında daha dəqq məlumatlar verir. Bakuvinin kitabı 1971-ci ildə Z.Bünyadovun redaktorluğu ilə rus dilinə tərcümə edilmişdir[2].

[1] 1403-cü ildə yazılmış bu əsər Paris milli kitabxanasında saxlanılır.

[2] Həm də bax: S. Aşurbəyli. Rəşid Bakuvi Azərbaycanın XV əsr alim-geoqrafı // Известия Академии Наук Азербайджанской ССР. Серия общественных наук, N 5 – 1958. – с. 33-40.

Bakuvinin əsəri hələ 1789-cu ildə fransız dilinə tərcümə edilərək müxtəsər şəkildə nəşr edilmişdir. Tərcüməçi J. de Qin Bakuvinin əsərini "o dövrün oxucularının orta təbəqəsinin malik olduğu coğrafi məlumatların bütün kompleksinin əlaməti" kimi dəyərləndirmişdir. Ərəb coğrafiyasının öyrənilməsi ilə məşğul olan tədqiqatçılar da qeyd edirlər ki, "Bakuvinin əsərində elə məlumatlar var ki, onlar daha çox maraq doğurur".

* * *

Onların (fars şahlarının) yaxşı işləri ərəblərin və ərəb olmayanların kitablarında qeyd edilib. Heç kəsdən gizli deyil ki, qədim böyük şəhərləri bunlar saldırıb və bu şəhərlərin çoxu onların adlarını daşıyır.

* * *

Peyğəmbərin, – Allah ondan razı qalıb, onu salamlasın! – [adından söyləyirlər ki,] Ərməniyyəylə Azərbaycanın arasında Savalan adlı dağ var və onun başında cənnət bulaqlarından biri axır. Bundan başqa elə orada peyğəmbərlərdən birinin qəbri var və ətrafında xəstələr müalicəsini görən isti sular axır.

* * *

Şiz – Azərbaycanda, Marağayla Zəncanın arasında yerləşən şəhərdir. ...Atəşpərstlərin peyğəmbəri Zərdüşt buradandır.

* * *

Bəzz – Arranla Azərbaycanın arasında olan çox dumanlı dairədir. Burada ...Babək əl-Xürrəmi zühur edib. Burada elə bir yer var ki, əgər insan həmin yerdən qanlı və Ulu Allaha

müraciət etsə, onun duaları mütləq qəbul olunacaq. Deyirlər ki, [bu yerin altından] böyük çay axır. Əgər çoxdan qızdırması olan adam burada çimsə, xəstəlik ondan əl çəkər.

* * *

Babil – Qədim zamanlarda İraqda, Fərat çayının bir qolunun sahilində yerləşən kəndin adıdır. ...Orada Danilyalın, – ona salamlar olsun! – quyusu durur və yəhudilərlə xristianlar ilin müəyyən vaxtında ona tərəf axışırlar.

* * *

Qəzvin – Möcüzələrindən – yəhudi qəbiristanlarıdır. Əgər yerli heyvanlarda mədə ağrıları olursa, onları buraya gətirirlər və ağrılar kəsilir. Belə bir adət Təbrizdə də var.

HACI ZEYNALABDİN ŞİRVANİ
(1780-1837/38)

Azərbaycan alimi, coğrafiyaşünas-səyyah, tarixçi, etnoqraf, filosof, ədəbiyyatşünas, şair Hacı Zeynalabdin Şirvani Şamaxı şəhərində anadan olmuşdur. Anadan olmasından altı ay keçəndən sonra, atası axund İsgəndər ailəsi ilə birlikdə Kərbəlaya köçmüş və Şirvani, orada təhsil almışdır. 40 ilə yaxın səyahət edən Şirvani Azərbaycanda, o cümlədən Bakıda, Yaxın və Orta Şərq ölkələrində olmuşdur. Hindistan, Seylon (Şri Lanka), İndoneziya və başqa ölkələrə səyahət edən Şirvani Nemətullahi dini təriqətinə də rəhbərlik etmişdir. Onun ədəbi təxəllüsü "Təmkin", təriqətdəki ləqəbi "Məstəli şah" olmuşdur. Ərəbistanda, Ciddə şəhərində dəfn edilmişdir. Şirvani haqqında ilk dəfə Abbasqulu ağa Bakıxanov "Gülustani-İrəm" əsərində məlumat vermişdir.

H.Z. Şirvaninin "Riyazüs-səyahə" ("Səyahət bağçaları")[1], "Hədayiqüs-səyahə" ("Səyahət bağları"), "Büstanüs-səyahə" ("Səyahət gülzarı"), "Kəşfül-məarif" ("Mərifətlərin kəşfi") adlı əsərləri vardır.

Şirvani 1802-ci ilin əvvəllərində başlayan və 8 il davam edən Hindistan səfəri haqqında geniş məlumat verir. Onun əsərlərində tarixi, arxeoloji, etnoqrafik baxımdan maraq doğuran Hindistanın əhalisi, dinləri, maddi və mənəvi

[1] Bu kitabın birinci cildi 1821-22, ikincisi isə 1827-28 illərdə tamamlanmışdır. 1832-ci ildə A. Bakıxanov onu yenidən köçürmüş və Şirvani haqqında ilk elmi məqalə yazmışdır.*Elmi redaktor.*

mədəniyyəti haqqında maraqlı məlumatlar vardır. Şirvani hind xalqının musiqisinə də yüksək qiymət vermişdir.

Şirvani səyyah və ensiklopedist alim kimi Hindistanın təbiət və iqtisadiyyatını, hind xalqının adət və ənənələrini, musiqisini, tarixi abidələrini dərindən öyrənmişdir. Şirvani Hindistan əhalisinin etnogenezi, dini-fəlsəfi axınlar, təsərrufat həyatı, yaşayış məskənləri, yaşayış evləri, sənətkarlıq və s. haqqında məlumatlarda sadəcə təsvirlə kifayətlənmir, izahlar və şərhlər verir. Onun bir səyyah kimi fəaliyyəti multikultural dünyagörüşünün formalaşmasına da ciddi müsbət təsir göstərmişdir.

Hacı Zeynalabdin Hindistanda olarkən Böyük Moğol İmperiyasının axırıncı şahlarından olan II Şah Aləmlə görüşmüşdür. O, "Büstanüs-səyahə" kitabında Dehlidə olarkən II Şah Aləmlə bir neçə dəfə göruşməsi, onunla müxtəlif mövzularda söhbət etməsi barədə məlumat verir.

1805-ci ildə Hacı Zeynalabdinlə görüşən ingilis tədqiqatçı Mark Uilksonun səyyahın əsərləri, səfərləri ilə ciddi şəkildə maraqlanması azərbaycanlı səyyahın irsinin bəşəri mahiyyət daşıdığını gostərir. Onun elmi və ədəbi fəaliyyəti bir sıra rus, Qərbi Avropa, Şərq və Azərbaycan tədqiqatçıları tərəfindən öyrənilmiş və yüksək qiymətləndirilmişdir.

Z.Şirvaninin adı Hindistanda muzeyə, İndoneziyada kitabxanaya, Məkkə və Ciddə coğrafiya cəmiyyətlərinə, Şirazda küçəyə verilmişdir. Şirvani irsinin tədqiqi Azərbaycanın Hindistanla tarixi mədəni-mənəvi əlaqələrinin öyrənilməsi baxımından mühüm multikultural əhəmiyyət daşıyır.

* * *

(Şimal-qərbi Hindistanda) …əhalinin bəzisi göyümtül, bəzisi qəhvəyi, bəzisi ağ üzlüdür…Dilləri hind dilləridir. Dillərində ərəb, fars sözlərinin qarışığı vardır. Yeyib-içib gəzməyi çox sevəndirlər, mövhumata çox inanırlar. Bəziləri illər boyu bir küncdə oturub sehrbazlıqla məşğul olur. Ümumiyyətlə, qonaqsevəndirlər, xüsusilə səyyahlara böyük hörmət bəsləyirlər. Zülm və əziyyətdən uzaq gəzirlər. Əslində, eyş-işrətdə, musiqidə hec kim onlara cata bilməz.

* * *

İslam şahları Dehlidə elə gözəl və uca saraylar tikdirmişlər ki, yazmaqla başa gələn deyil… Cahangirin oğlu Şah Cahan şəhəri təmir elətdirib, oranı öz adı ilə adlandırmışdır. Odur ki, bəziləri Dehliyə indi də Şah Cahan deyir.

* * *

Allahabad - Hindistanın böyük və möhtəşəm şəhərlərindən biridir. Keçmiş şahlardan sonra Əkbər şah bu şəhəri tikdirib, adını Allahabad qoymuşdur. Onun abadlaşdırılmasına və böyüməsinə xeyli səy gostərmişdir.

SEYİD HƏMZƏ NİGARİ

(1805-1885)

Seyid Həmzə Nigari təsəvvüf ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, nəqşibəndi təriqətinin şeyxi, dini-mistik və fəlsəfi düşüncəyə sahib mütəfəkkirlərdən olmuşdur. Qarapapaq türklərindən olan Həmzə Nigari 1805-ci ildə Qarabağ xanlığının Bərgüşad mahalının Cicimli kəndində dünyaya göz açmışdır. Həmzə Nigari təhsilini Şəkinin Dəhnə kəndində tamamladıqdan sonra, mürşid Mövlanə Xalid Bağdadinin sorağı ilə səyahətə çıxmış, ancaq Bağdadini görmək Nigariyə nəsib olmamışdır. Sonra o, təkrar Azərbaycana qayıtmış və Kürdəmirdə İsmayıl Şirvaninin müridi olmuşdur. Həmzə Nigari mürşidinin mənəvi tərbiyyəsini təqib edərək 20 ilə yaxın Sivas və Amasiyada yaşamış, sonra isə o, yenidən uzun bir səyahəta çıxaraq, əvvəl Konyada Cəlaləddin Ruminin türbəsini, sonra Məkkə və Mədinəni, qayıdanda isə Şam və Qüdüsü ziyarət etmiş və nəhayət Azərbaycana qayıtmışdır. Həmzə Nigari irşad fəaliyyətinə başlamış və qısa müddət ərzində ətrafına Qarabağ, Qazax, Borçalı və Dağıstandan çoxlu müridlər toplaya bilmişdir. O, müridləri ilə birlikdə Rusiya-Osmanlı arasında çıxan Kırım müharibəsi zamanı Osmanlı ordusunda cihada qatılmaq üçün Osmanlı ərazisinə keçmiş və ruslara qarşı savaşmışdır. Nigari müharibədən sonra Ərzuruma yerləşmiş və bir müddət oarda qaldıqdan sonra

İstanbula getmişdir. Sonralar Həmzə Nigari İstanbuldan Amasiyaya gələrək orada məskunlaşmışdır. Ancaq, burdakı fəaliyyəti bəzi insanları narahat etmiş və şikayətlər səbəbi ilə o, Xarputa sürgün edilmişdir. 1885-ci ildə Xarputda vəfat edən Nigarinin nəşi müridləri tərəfindən Amasiyaya gətirilmiş və burada dəfn edilmişdir. Nigarinin ölümündən sonra onun müridi Qazaxlı Hacı Mahmud Əfəndinin vasitəçiliyi və Qazax, Qarabağ, Borçalıdakı müridlərinin yardımı ilə şairin türbəsi və türbəyə yaxın məscid inşa edilmişdir.

Nigarinin Mühiddin Ərbinin "Fütuhatı-Məkkiyyə" əsərinə yazdığı "Təvzihat" adlı şərhindən başqa, türk və fars dillərində divanı, "Nigarnamə" və "Saqinamə" adlı iki məşhur əsəri vardır. Nigarinin divanı 1883-cü ildə İstanbul, 1908-ci ildə isə Tiflisdə dərc edilmişdir.

Nigari yaradıcılığında humanizm, sevgi-məhəbbət, qardaşlıq, dostluq, birlik-bərabərlik ideyaları əsas prioritet xətt kimi keçir. Belə ki, Nigari insanın dini, məzhəbi və irqi fərqliliyini deyil, mənəvi durumunu dəyərləndirir və insana ən üstün dəyər kimi baxır. Ümumiyyətlə, Həmzə Nigari yaradıcılığı tolerant və multikultural dəyərlərin təcəssüm yeridir desək ,yanılmarıq.

* * *

Qılma tədadi-məzahib[1] bizə kim vəhdətdir
Aləmi-eşqdə, ey xacə, do[2] məzhəb olmaz .

[1] Todadi-məzahib: məzhəbləri artırma
[2] Do: iki

* * *

Aşiqini tanı, mənəm, bil, mənəm.
Aləmi-vəhdətdə mən ancaq sənəm

* * *

Müştaq bilür yarı, bilməz nədir ağyarı
Əfkarı həmin birdir, müstəğrəqi-vəhdətdir[1]

* * *

Allahı, Məhəmmədi və ali sevən dustanız,
Nə sünniyiz, nə şiə, biz xalis müsalmanız.

[1] Müstəğrəqi-vəhdət - vəhdətə qərq olmuş.

III FƏSİL

XIX-XX ƏSR AZƏRBAYCAN MAARİFÇİLƏRİ, PUBLİSİSTİKASI VƏ MULTİKULTURALİZM

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan publisistikasında maarifçiliklə yanaşı multikulturalizm, müxtəlif mədəniyyətlərin vəhdəti, tolerantlıq mövzuları da geniş yer alır. Xüsusilə "Əkinçi", "Şərqi-Rus", "Həyat", "Füyuzat" kimi milli mətbu orqanlarda davamlı çıxış edən din xadimləri, ziyalılar öz məqalələri, şeirləri və sair əsərləri ilə bu sahədə geniş fəaliyyət göstərirdilər.

Məsələn, Şeyxülislam Əhməd Hüseynzadə Səlyani M.F.Axundzadə ilə birlikdə əlifba islahatı ideyasını dəstəkləyir, "Əkinçi" qəzetində nəşr etdirdiyi məqalələrində, məktəblərdə "elmi-ədyan"la (dini elmlər) yanaşı "elmi-əbdan"ın, yəni dünyəvi elmlərin də tədris edilməsinin vacibliyini vurğulayırdı.

Zaqafqaziya müftisi H.Qayıbov "İşıq" qəzetində dərc etdirdiyi məqalələrdə qadınların da kişilərlə bərabərhüquqlu şəkildə təhsil alması ideyasını müdafiə edir, bu mövzuda hədislərdən nümunələr gətirir, xristianlarla müsəlmanların sülh içində yaşamasının mümkünlüyü fikrini irəli sürürdü. Eyni mövqedən Əbdüssəlam Axundzadə də çıxış edirdi. O da müsəlmanların digər

din mənsubları ilə xoş rəftar etməsi ideyasını təbliğ edir, erməni-müsəlman münaqişəsinin həllində hər iki dinə mənsub ruhanilərə böyük vəzifələr düşdüyünü bildirirdi. Ə.Axundzadə də din elmləri qədər dünyəvi elmlərin tədrisini davamlı dəstəkləyən ruhanilərdən idi.

Dövrün ən mütərəqqi din xadimlərindən biri, Quranın azərbaycanca ilk təfsiri olan "Kəşfül-həqayiq" əsərini yazaraq, İslam maarifçiliyinin şah əsərini ortaya qoyan Bakı qazısı Mir Məhəmməd Kərim əl-Bakuvinin həm ictimai fəaliyyəti, həm əsərləri, həm də moizələri multikulturalizm baxımından çox zəngindir. Erməni-müsəlman münaqişəsinin həllində aktiv rol oynayan əl-Bakuvi 1906-cı ildə Bakıda yaradılmış xüsusi komissiyada Ə.Topçubaşov, Ə.Hüseynzadə və Ə.Ağaoğlu ilə birlikdə fəaliyyət göstərərək, məzhəblərarası yaxınlaşmanı təmin etməyə çalışırdı.

Mütərəqqi din xadimləri ilə yanaşı dünyəvi mütəfəkkirlər, ziyalılar da öz yaradıcılıqlarında multikulturalizm, tolerantlıq, qeyri-islami dinlərə və mədəniyyətlərə ehtiram mövzusunu təbliğ edirdilər. Məsələn, dövrün görkəmli şərqşünası Mirzə Kazımbəyin yaradıcılığı Şərq fəlsəfəsi, ədəbiyyatı, din azadlığı məsələlərinə yönəlməsi, multikulturalizm baxımından xüsusi maraq doğurur. Onun "Kazanskiy Vestnik" jurnalında dərc olunan "Şeyx Sədi Müslihiddin Şirazinin "Gülüstan"ı, "Severnoe obozrenie" jurnalında dərc olunan "Firdovsiyə görə fars mifologiyası", "Russkoe slovo" jurnalında nəşr olunan "Müridizm və Şamil", "İslam, Məhəmməd", "Bab və babilər" və sair əsərlərində multikulturalizmlə bağlı qiymətli məlumatlar vardır.

Dahi Azərbaycan mütəfəkkiri M.F.Axundzadənin yaradıcılığı da mültikulturalizm baxımından böyük maraq do-

ğurur. "Kəmalüddövlə məktubları" əsərində İslam dinində islahatı arzu edən və dini fanatizmə qarşı mübarizədə Qərb mədəniyyətini nümunə göstərən filosof, "Əkinçi" qəzetində H.Zərdabiyə ünvanladığı məktublarında müsəlmanların inkişaf edə bilmələri üçün məzhəb ixtilafından imtina etməyin zəruriliyini xüsusi vurğulayır, dünyəvi təhsilə, xarici dillərə üstünlük verilməsinin vacibliyini qeyd edirdi.

Böyük Azərbaycan maarifçisi, XX əsrdə ilk azərbaycandilli qəzet olan "Şərqi-Rus"un naşiri M.Şahtaxtlı da "Dərdimiz və dərmanımız" və sair məqalələrində, "Türkiyəni necə xilas etməli?" kimi əsərlərində müsəlmanların inkişafı üçün Avropa mədəniyyətinin mənimsənilməsinin vacibliyini qeyd edir, öz qəzetində Axund Mövlazadə kimi müsəlman din xadimlərinin məqalələrinə də yer verərək, İslam və dünyəvi mədəniyyətin vəhdətini ortaya qoyurdu.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan xalqının qonşu xalqlarla əlaqələri, o dövrün mətbu orqanlarında işıqlandırılmış, qarşılıqlı mədəni münasibətlər tədqiq edilmişdir. Bu mətbu orqanlarda Azərbaycan multikulturalizminin qonşu xalqlara təsiri haqqında xeyli məlumat verilir.

Nəticə olaraq deyə bilərik ki, dövrün həm dini, həm də dünyəvi ziyalılarının publisistik yaradıcılığı dini və milli vəhdət, dünya mədəniyyətinə inteqrasiya və multikulturalizm ənənələrinə əsaslanaraq, müasir dövrün problemlərini həll etmək baxımından gənc nəsil üçün bir qaynaq, bir nümunədir[1].

[1] Daha ətraflı bax. "*Azərbaycan Multikulturalizmi*" Ali məktəblər üçün dərslik (səh140-148)

ABBASQULU AĞA BAKIXANOV (Qüdsi)

(1794-1847)

XIX əsr Azərbaycan ədəbi-bədii fikrinin, maarifçilik fəlsəfəsinin ilk təmsilçisi şair-filosof, coğrafiyaşünas, dilçi, tarixçi və təsəvvüf mütəxəssisi Abbasqulu ağa Bakıxanov olmuşdur. O, Bakının Əmircan kəndində dünyaya göz açmışdır. Atası II Mirzə Məhəmməd xan Bakı xanları nəslindən, anası Sofiya xanım isə gürcü qızı olmuşdur. Multikultural mühitdə böyümüş və dövrünün ən yaxşı təhsil ocaqlarında oxumuş Bakıxanov, İslam düşüncəsilə bərabər Qərbin maarifçi dəyərlərini də mənimsəmiş, əsasən də rus ziyalıları ilə yaxından ünsiyyət qurmağa nail olmuşdur. 1819-cu ildə Bakıxanov o zamankı Qafqazın baş hakimi general A.Yermolovun dəvəti ilə Tiflisə gəlib, Qafqaz Baş Hərbi İdarəsində şərq dilləri üzrə tərcüməçi vəzifəsinə qəbul olunmuş və 26 il bu vəzifədə işləmişdir. Tiflis mühiti, Avropa, rus şair və ziyalıları ilə görüşlər onun dünyagörüşündə dərin iz buraxmışdır. Bakıxanov A.S.Qriboyedov və həmin dövrdə Tifilsdə yaşamış alman şairi Fridrix Bodenştedtlə dostluq etmişdir. Hər iki müəllif öz yazılarında Bakıxanovu böyük hörmət və ehtiramla xatırlayır. Bakıxanov 1833-1834-cü illərdə Varşavada və Peterburqda yaşamış, bi ərəfədə rus şairi A.S.Puşkinin ailəsi ilə tanış olmuşdur.

O, 1832-ci ildə Qafqaz Ordusunun ali baş komandanı G.Rozenə təqdim etdiyi layihədə özünün rəhbərliyi altında Bakıda məktəb açılmasını xahiş etmiş, bu məktəbdə rusca, tatarca (azərbaycan dilində) dini və

dünyəvi dərslərlə yanaşı, fars və ərəb dilinin də öyrədilməsinin dəyərli elm və dövlət xadimlərinin yetişməsi üçün şərt olduğunu göstərmişdir.

Bakıxanov Rusiyanın "Müqəddəs Anna" və "Müqəddəs Vladimir", İranın isə "Şiri-Xurşid" ordeninə layiq görülmüşdür. O, vaxtaşırı olaraq Şimali Qafqaz, Ukrayna, Belarusiya, Latviya, Polşa və Rusiyanın müxtəlif bölgələrinə səyahət etmişdir. A.Bakıxanov 1846-cı ildə Osmanlı sultanı Abdülməcidlə görüşərək, ona "Əsrarül-mələkut" ("Kainatın sirləri") əsərini hədiyyə etmişdir. Onların bu görüşü Avropa mətbuatında "Osmanlı sultanı ilə ilk dəfə görüşən müsəlman polkovnik" başlığı ilə ilə geniş şəhr edilmişdir. "Əsrarül- mələkut" əsərində elm və dinin vəhdətindən bəhs edilir, Kopernik nəzəriyyəsinin Qurana zidd olmadığı vurğulanır. Bu əsər 1848-ci ildə İstanbulda nəşr olunduqdan sonra osmanlı alimləri tərəfindən geniş müzakirə edilir[1].

A.Bakıxanovun Varşavada olarkən yazdığı "Merace-xəyal" ("Xəyalın uçuşu") və "Məclisi-firəng" ("Firəng məclisi") poemaları xüsusi əhəmiyyət kəsb edir. Bakıxanov bu poemalarında Varşavadakı həyat tərzini, əhalinin məşğuliyyətini, mənəvi-əxlaqi düşüncə, axtarış və iztirablarını, o cümlədən Şərq və Qərb dünyası barədə görüşlərini təqdim etmişdir. Fars dilinin qanunlarını öyrədən "Qanuni-Qüdsi" adlı əsərini əvvəlcə fars dilində yazan Bakıxanov, daha sonra özü bu əsəri rus dilinə ("Краткая грамматика персидского языка") tərcümə etmişdir.

---

[1] Elmin Aliyev, *"Son Dönem Azerbaycan/Türk Düşünürlerinden Abbaskulu Bakühanlı ve Nesayih İsimli Eseri"*, İslam Araştırmaları Dergisi, Sayı 20. 2008, s. 81-85.

A.Bakıxanovun coğrafiya elminə aid fars dilində yazdığı iki əsəri də bu konteksdə mühümdür. Bunlardan biri "Kəşfül-qəraib", digəri isə "Ümumi coğrafiya"dır. Kristofor Kolumbun kəşflərindən, yer kürəsi əhalisinin siniflərini müəyyən etməkdən və hər bir ölkənin yaşayış tərzindən bəhs edən bu əsərlər multikulturalizm tarixi baxımından çox böyük önəm daşıyır.

A.A.Bakıxanov əsərlərində riyakar, nadan din xadimlərini tənqid edir, "Mişkatül-ənvar" ("Nurlar mənbəyi") əsərində "aşiqlərə məqsəd ancaq yar vəslidir" (Allaha qovuşmaq) deyərək, "Cəhənnəm qorxusu, ya behişt üçün ibadət" edənləri Haqqa sadiq olmamaqda günahlandırırdı.

Onun fəlsəfi-dini etik-estetik, o cümlədən multikultural ideyalı görüşləri eyni zamanda "Təhzibül-əxlaq" (Əxlaqın təmizlənməsi), "Nəsayeh" (Nəsihətlər), "Riyazül-qüds" (Qüdsün bağı), "Mişkatül-ənvar" (Nurlar mənbəyi) və sair əsərlərində öz əksini tapmışdır. Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində Azərbaycandakı multikultural mühit geniş şəkildə təsvir və təhlil edilir. Onun fəlsəfəsinin əsas qayəsini maariflənmə yolu ilə kamil şəxsiyyət yetişdirmək, ədalətli cəmiyyət qurmaq təşkil edir. Həmin əsərlərdə fəlsəfənin, fəlsəfi və etik kateqoriyaların tərifi, varlıq aləmində səbəbiyyət, inkişaf və qanunauyğunluğun problemlərindən bəhs olunur.

Bakıxanovun elmi yaradıcılığı, o cümlədən multikultural məfkurəsi bir neçə istiqamətə şaxələnir. O, Azərbaycan tarix elminin banilərindən biridir. Eyni zamanda, fəlsəfə, əxlaq, astronomiya, dilçilik, coğrafiya, təsəvvüf

və din sahələrinə aid əsərləri onun bütün yaradıcılığında humanist və unversal dəyərlərə, multikulturallığa meyilliyin əsasını təşkil edir. Bu tendensiya özünü əsasən Bakıxanovun ədəbi-bədi, fəlsəfi yaradıcılığında məhəbbət, dostluq, qardaşlıq, sülh, əmin-amanlıq və mötədillik kimi prinsiplərdə təzahür etdirir.

* * *

Dünyada heç bir şey təbiətin ziddinə çıxa bilməz, şeylər öz varlıqlarında ehtimal olunan vəzifəni yerinə yetirə bilməzlər. Lakin insan müstəsnadir, çünki o, bu işi görməyə və görməməyə muxtardır. Bu baxımdan da o, həm yaxşı, həm də pis iş görə bilər.

* * *

Aləmdə əsl məqsəd və həqiqi məsləhət xeyirdən ibarət olduğu üçün, aləmin ən şərafətli cüzi olan insan da, gərək borclarını əda eləsin və öhdəsinə düşən vəzifələrini unutmasın. Həmişə yaxşılıq etməyə çalışsın və bilsin ki, əxlaqını təmizləyib islah etməkdən və maarif təhsil etməkdə məqsəd yaxşılıqdır. Çünki, yaxşılıqsız əməl meyvəsiz ağac kimi təsirsiz olar.

* * *

Avropanın Asiyadan üstünlüyü bəxtdə və ya təsadüfdə deyil, maarifdədir.

* * *

Riya üzündən olan zahidlik, Allahı gizlicə şərik qərar verməkdən və zahiri küfrdən betərdir. Bütpərəstlik bu cür zahidlikdən fəzilətlidir.

* * *

Cəhənnəmin qorxusu, ya behişt üçün ibadət,
Etməz haqqın dərgahında sadiqliyə dəlaət.

* * *

Aşiqlərə məqsəd ancaq yar vəslidir hər zaman,
Cənnət şövqi, ya cəhənnəm xovfi bilməz o bir an.

* * *

Yaxşıya da, pisə də bir pərdə çəkilmişdir,
Özgəyə ayıb tutmaq özü də ayıb işdir.

* * *

Təsəvvürdə, təftişdə zənn etmə düz yoldasan,
Təkcə sən öz əqlinə arxalanma heç zaman.

MİRZƏ KAZIM BƏY

(1802-1870)

Əslən Dərbəndli olan Mirzə Kazım bəy Rəştdə anadan olmuş, sonra ailəsi ilə birlikdə Dərbəndə qayıtmışdır. Mirzə Kazım bəy yetkinlik yaşına çatdıqdan sonra Rusiyaya köçmüş, orada yaşayıb yaratmışdır. Xristianlığı qəbul edən mütəfəkkir öz islami keçmişini də yaddan çıxarmamış və Rusiyada İslamın tədqiqi istiqamətində xeyli maarifçi işlər görmüşdür. Mirzə Kazım bəy İslamın yaranmasını Yaxın Şərq bölgəsində Xristianlığın zəifləməsi ilə əlaqələndirmişdir. O, xristianları İslama dözümlü olub, onu tədqiq etməyə, müsəlmanları isə maariflənməyə, öz aralarındakı məzhəb ixtilaflarını tərk etməyə dəvət etmişdir.

Mirzə Kazım bəy Rusiya şərqşünaslığının banisi kimi məşhurdur. Onun "Türk-tatar dilinin qarammatikası" adlı əsəri 1846-cı ildə alman dilinə, daha sonra isə fransız dilinə tərcümə olunmuşdur. Kazım bəy fars dili və İran tarixi sahəsindəki fəaliyyətlərinə görə İranın "Şiri-Xurşid"[1*] ordeni ilə təltif olunmuşdur. Onun 1850-ci ildə "Derbend-nameh" əsərinin ingilis dilində nəşri isə xüsusi əhəmiyyət daşıyır. Bu əsərə görə Mirzə Kazım bəy Rusiya Elmlər Akademiyasının Demidova mükafatı ilə təltif edilmişdir. 1855-ci ildə Peterburq Uni-

[1] Müqayisə üçün bax. "*Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları*," (səh. 153-156) *Elmi redaktor.*

versitetinin Şərq dilləri fakültəsinin dekanı seçilməsi də onun multikultural elmi tədqiqatlarının nəticəsidir.

Müəllifin əsərlərində dünya xalqlarının mədəniyyətinin tədqiqi əhəmiyyətli yer tutur. Bir çox hallarda o, mədəniyyətlərin müqayisəli təhlilinə önəm vermişdir. Bu da müasir anlamda multikultural adlandırdığımız dəyərlərin əsasını təşkil edir. Çünki, mədəniyyətlərin bir-biri ilə qovuşması, son nəticədə, onlar arasında sülhün bərqərar olması üçün zəmin yaradır. Bu məsələlərə toxunan Mirzə Kazım bəy, bütün dünya mif və rəvayətlərinin bir mənbədən yaranması fikrini irəli sürmüşdür.

Mirzə Kazım bəy insanlığın ümumu psixologiyasını, onun istəklərini, qorxularını, ehtiraslarını nəzərə alaraq, bütün miflərin mənşəyinin birliyini göstərir və bütün xalqların bu miflərdə əks olunan hadisələri birgə yaşadığını qeyd edirdi.

Mirzə Kazım bəyin "Bab və babilər" əsəri öz dövründəki babilik haqqında rusdilli əsərlər içində xüsusi dəyərə malikdir. O, XIX əsrdəki babilik hərəkatının sadəcə dini hərəkat deyil, eyni zamanda despotizmə, istismarçılığa qarşı bir mücadilə olduğunu göstərmişdir. "Şəraiul-islam, miras haqqında kitab" və "Müridizm və Şamil" əsərlərində M.Kazım bəy islami təriqətləri və onların cəmiyyətdəki rollarını tədqiq etmiş, bu sahəyə dair islahatçı fikirlərini təqdim etmişdir. M.Kazım bəy "Hindistanda maarifin başlaması" əsərində isə rus hökumətini müsəlman təhsilinə diqqət yetirməyə, müsəlmanların öz vəsaiti hesabına açdırdığı özəl məktəblərə qayğı göstərməyə dəvət etmişdir.

* * *

Asiya anlayışı hər bir xristian üçün doğma olmalıdır. Çünki oradan insanlıq doğulmuşdur. Orada mədəniyyətlər və o cümlədən Xristianlıq yaranmışdır. Bu yerlərdə insanlığın inkişafının əsasları qoyulmuşdur. Heç bir filosof Şərqi tədqiq etmədən uğur qazana bilməz. Çünki Avropanın başlanğıcı da Asiyadadır.

* * *

Rusiyada artıq ərəb, fars və tatar dilləri tədris edilir. Tatar dilinin (türk-azərbaycan) isə Şərq dillərinin arasında xüsusi əhəmiyyəti vardır. O Tiflisdə, Yelizavetpolda, Şusada, Nuxada, Naxçıvanda, Axalsixidə və Lənkəranda tədris edilməlidir. Hal- hazırda onu Tavriya quberniyasında və Simferopol məktəblərində tədris edirlər. Bundan başqa, çox yaxşı haldır ki, Rusiyanın bəzi məktəblərində çin dili də öyrədilir.

* * *

Bir xalq başqasının miflərini mənimsəməmiş onları müqəddəs saymaz. Bildiyimiz kimi, bir xalqın miflərinin başqası tərəfindən mənimsənilməsinin çoxlu örnəkləri vardır. Belə ki, buddistlərin və qədim yəhudilərin rəvayətləri müsəlman təriqətləri tərəfindən mənimsənilmişdir. Eləcə də, yunan mifologiyası sanki bütün dünya xalqları üçün doğma olmuşdur.

* * *

Bütün xalqların arasında gəzən miflərin mənşəyi birdir və bu barədə şübhə etmək olmaz. Onların əsasında eyni düşüncə tərzi və səbəblər durmuşdur. Bunlar da həm yunanlar, həm

farslar, həm romalılar, həm hindlilər, həm slavyanlar, həm skandinavlar arasında yaşanmışdır.

* * *

Rusiya öz nəhəng yolunda Şərq ədəbiyyatının gözəl bağından hələ çox az çiçək dərmişdir.

* * *

Qərb öz siyasəti ilə Asiyada maarifçiliyi bərpa edə bilməz. Ölkənin islahatçıları ölkənin özündə doğulmalıdır.

* * *

Babın təlimində qadınlarla kişilərin hüquq bərabərliyi müddəası vardır. Hətta Bab öyrədirdi ki, Allah yanında qadınlar kişilərdən daha tərifli və lütfkardırlar.

İSMAYIL BƏY QUTQAŞINLI

(1806-1861)

İsmayıl bəy Qutqaşınlı Azərbaycanın ən qədim şəhərlərindən biri olan Qəbələdə dünyaya göz açmışdır. O, XIX əsr Azərbaycan elmi-mədəni mühitinin yetişdirdiyi ən görkəmli nümayəndələrdən biridir. Həm dini təhsilli mütəfəkkir və ədib, həm də topçu general-mayoru hərbi rütbəli zabit olan İsmayıl bəy Rusiya Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin üzvü olmuşdur.

Onun əsas fəlsəfi və maarifçi düşüncələri fransız dilində yazdığı ilk Azərbaycan bədii nəsr əsəri olan "Rəşid bəy və Səadət xanım" və özünün müxtəlif ölkələrə səyahətindən bəhs edən hərbi əhəmiyyətli elmi-coğrafi "Səfərnamə" əsərlərində öz əksini tapmışdır. İ.Qutqaşınlının ədəbi-ictimai yaradıcılığında humanizm, universallıq və multikulturallıq ən əsas istiqamətlərdən biri kimi nəzərə çarpır. Onun həyatından bizə məlum olan məqamlara nəzər saldıqda görərik ki, İsmayıl bəy ətrafında olan insanları dini və etnik baxımdan ayrı-seçkilik etmədən qəbul etmiş, onlara qarşı dərin hörmət və ehtiram sərgiləmişdir. Kumık qızı Bikə xanımla ailə qurması, eyni zamanda övladlarının olmamasına görə miras olaraq öz yaşadığı evi kiçik yaşlarından evində xidmətçi kimi saxladığı Çərkəz adlı bir ləzgiyə bağışlaması, onun həqiqətən də multikultural şəxsiyyət olmasından xəbər verir.

İsmayıl bəyin multikultural, geniş dünyagörüşü başqa millətlərin nümayəndələri tərəfindən də etiraf edilmişdir. Qafqazın baş hakimi Baron V.Q.Rozenin bu haqda yazırdı: "Hörmətli Zaqafqaziya bəyləri ailəsindən çıxan bu adam, mənə özünün dərin düşüncəsi və sədaqəti ilə məlumdur". İsmayıl bəy rus ziyalıları ilə münasibətlər qurur, Avropa mədəniyyətinin üstünlüklərini anlayıb, öz xalqına mütərəqqi ideyaları aşılamağa çalışırdı.

İsmayıl bəy 1849-cu ildə öz vəsaiti hesabına Şamaxı müsəlman məktəbi üçün bina kirayə edib, müəllim və xidmətçilərin maaşlarını ödəyib, istefaya çıxdıqdan sonra həmin məktəbdə rus dili müəllimi kimi fəaliyyət göstərib.

O, İslami dəyərlərə də çox bağlı biri idi. İki dəfə həcc ziyarətində olması və bir dəfəsində biri qız, digəri oğlan olmaqla, iki köləni azadlığa qovuşduraraq özü ilə vətənə gətirməsi, onları himayəsi altına alması, onun bir müsəlman olaraq dinin vacibatlarına əhəmiyyət verdiyini, onları yerinə yetirməyə çalışdığını sübut edir. Bununla bərabər o, həm də elm və maarifin əhəmiyyətini dərk edərək, yaradıcılığında qadına, dünyaya, cəmiyyətə və ümumiyyətlə, insanlığa münasibətini ortaya qoymuşdur. Onun həyat və yaradıcılığında multikultural dəyərlərin yeri açıq şəkildə özünü göstərməkdədir.

* * *

Şərq ölkələrində bir qadının ancaq bir baxışının, hətta ancaq qadın adının cavan oğlanlara nə dərəcədə təsir etdiyini bilmirsiniz. Bu cavanlar üçün qadınların səsində nə qədər lətafət olduğunu və onların dodaqlarından qopan ilk sevgi kəlməsinin

cavanların bütün hissiyyatını nə dərəcədə qaplamasını təsəvvürünüzə gətirə bilməzsiniz! Bu halları anlamaq və hiss etmək üçün bu ölkələrdə doğulmaq və ya bir neçə il bu ölkələrdə həyat sürmək lazımdır. Bu hekayəni oxumağa etina edən lütfkar xanımlar! Əgər siz, gənc Səadətin ata-anasının əmrindən boyun qaçırıb bir zəngin və nəcib xana ərə getməyi rədd etdiyinə və Rəşid bəyin uzaqdan tərifini eşidib, özünü də yalnız bir dəfə görməklə, ona qoşulub qaçmasına təəccüblənirsinizsə, o zaman, xanımlar, mən cürətlə söyləyə bilərəm ki, siz Şərq aləmindən bixəbərsiniz. Sizə xoş görünməyə var qüvvəsilə çalışan dəstə-dəstə gənclər daim sizin ətrafınızı bürüməkdədirlər. Onlar sizin külək vurmuş rübəndləriniz kimi ətrafınızda qalxıb-düşürlər, məclislərdə sizə pərəstiş edənlərdən başqa kimsəni görmürsünüz. Müsamirələrdə şəninizə minlərlə mədhlər söyləyirlər. Şərq qadını isə, öz ata və qardaşlarından başqa heç kəsi görmür. Əlbəttə, belə bir şəraitdə yaşayan qadının bu qədər asanlıqla atəşli bir sevgiyə düşməsi sizin təsəvvürünüzə sığmaz. Ah! Əgər siz bu qadınların yerində olsaydınız, onlar kimi daim dörd divar arasında, pərdə altında yaşasaydınız, o zaman Səadətin bizim qəhrəmana qoşulub qaçmasını, ümidvaram ki, bağışlayar və bu hekayənin dalını lütf ilə oxuyardınız.

* * *

Şimdi qalanın içində (Rodosda) müsəlman evlərindən qeyri, bir kaç min yəhudi evləri vardır. Xaçpərəstlər köylərdə oturub cizyə verirlər. Qalanın ətrafında bir firəng bağı var.

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ

(1812-1878)

M.F.Axundzadə Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Nuxada (Şəkidə) dünyaya göz açmışdır. Sonradan o, ailəsi ilə birlikdə İran Azərbaycanına köçmüş, ömrünün 13 ilini orada yaşamışdır. Fətəli 1825-ci ildə Şəkiyə qayıdır və bütün gəncliyini burada keçirir, 1832-ci ildə isə Gəncəyə gedərək burada fiqh (İslam hüququ) elmi ilə yanaşı məntiq elmini və Mirzə Şəfi Vazehdən xəttatlıq sənətini öyrənir. M.F.Axundzadə 1833-cü ildə yenidən Şəkiyə qayıdır və orada açılan yeni rus məktəbində təhsil alır. O, 1834-cü ildə Tiflisə köçür və orada Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunur. Ömrünün sonuna qədər bu vəzifədə çalışmış M.F.Axundzadəyə 1873-cü ildə polkovnik hərbi rütbəsi verilmişdir.

Azərbaycan maarifçiliyinin banilərindən biri olan M.F.Axundzadə dini təlimlərdə plüralist biri idi. Dini ehkamlara qarşı fikirlərini öz fəlsəfi əsərlərində qələmə almış, həm Xristianlıqda, həm də İslamda bu cür fərqli fikirlərə tolerantcasına yanaşılmadığını göstərmişdir. M.F. Axundzadənin cəmiyyətdə multikultural və tolerant dəyərlərə münasibəti, onun həm bədii, həm də fəlsəfi əsərlərində geniş yer tutmuşdur. Axundzadə dünyanın məşhur yazıçı və şairlərinin yaradıcılığına həmişə hörmət və ehtiramla yanaşmış, azərbaycanlıların multikultural düşüncəsini təcəssüm etdirmişdir.

O, İslamın meydana gəlməsindən sonra bu dinlə bağlı bir çox məzhəblərin, təriqətlərin yayıldığını vurğulayaraq, müxtəlif etiqadlara olan tolerant münasibətini "Kəmalüddövlə məktubları" əsərində Kəmalüddövlənin Cəlalüddövləyə sual və müraciəti formasında şərh etmişdir.

M.F.Axundzadə Avropada yaşayan müxtəlif millətlərin inkişafı və tərəqqisinin onların hansı dinə, hansı etiqada ibadət etməsi ilə yox, elm və sənayedəki inkişafları ilə bağlı olduğunu qeyd etmişdir. O, inkişaf edən millətlərin "əql və fəlsəfəyə tabe olduqlarından" belə səviyyəyə çatdıqlarını sübut edən filosoflarla həmfikir olduğunu göstərirdi. Ümumiyyətlə, M.F.Axundzadənin multikultural və tolerant fikirlərini onun bütün əsərlərində izləyə bilərik.

"Sübhi" təxəllüslü maarifçi-dramaturq, müsəlman xalqlarının tərəqqisi üçün ərəb əlifbasının islahatını, Şərq despotizminin və qadın-kişi bərabərsizliyinin ortadan qaldırılmasını təklif edirdi.

M.F.Axundzadənin əsl məqsədi İslam dinini xurafatdan təmizləyəcək reformun olması, bu reformun "tərəqqi və sivilizasyon şərtlərinə müvafiq", "bəşərin hər iki cinsinin azadlıq və hüquq bərabərliyinə" uyğun, "Şərq padşahlarının despotizmi"ni yumşaldan və "kişili-qadınlı bütün İslam tayfasının savadlı olmasını vacib" edən bir xüsusiyyətə malik olması arzusu idi. Bu baxımdan Onun "Babilik əqidələri" və "Kəmalüddövlə məktubları" əsərləri maraqlıdır. O, öz əsərlərində zərdüşti farslarla müsəlman farsların qardaşlığını təbliğ edərək,

babiliyin İrandakı islahatçılıq roluna xüsusi diqqət çəkmiş, qəzvinli şəhid şairə Zərrintac Tahirə xanımın nümunəsində qadın azadlığını mədh etmişdir.

Ümumiyyətlə, M.F.Axundzadənin multikultural və tolerant fikirlərini demək olar ki, bütün əsərlərində izləyə bilərik[1].

* * *

Avropa qitəsində insanların hər bir fərdinə öz fikirlərini, istər yanlış və zərərli olsun, istərsə də doğru və faydalı, azad şəkildə yaymaq icazəsi verilən gündən bəri, dünyanın hər bir yerində dinsizlər baş qaldırıb öz fikirlərini qələmə almaqdadırlar. Ancaq, heç kəs onlara mane olmur və onları incitmək fikrinə düşmür.

* * *

Yunan millətinin içində qədim əsrlərdən bir şair məşhurdur ki, adına Homer deyilir: Milləti-yunanın qədim əsrdə baş vermiş müharibələrini və pəhləvanlarının mübarizəsini və hünərlərini Firdovsi kimi nəzmə çəkmişdir. Belə ki, bu zamana qədər, bir yaranmış onun şerlərinə tay şer deməyə qadir deyil. Habelə, ingilis millətinin içində bir neçə yüz il bundan irəli bir şair peyda oldu. Şekspir adlı ki, İngiltərə şahlarının müsibətlərini nəzmə çəkibdir. Elə təsirlidir ki, şerinə qulaq asan nə qədər daşqəlbli olsa da, ağlamaqdan özünü saxlaya bilməz. Bu kimi şairlər bütün millətlər arasında mövcuddur.

[1] M.F. Axundzadənin ədəbi-bədii kontekstdə multikultural ideyaları üçün bax.” *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları”(* səh 153-156) *Elmi redaktor*.

* * *

Ağıl və hikmət əsasında qurulmayan bir əqidəyə necə etibar etmək olar? Belə əqidənin səbatına necə bel bağlamaq olar?

* * *

İslam dini ancaq o zaman yaşayıb davam edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar...

* * *

Bilik və mərifət sahiblərinə aydındır ki, heç bir əsrdə və heç bir zaman dünya dinsiz adamlardan xali olmamış və olmayacaqdır. Bu adamlara acıqlanıb qəzəblənmək heç bir nəticə verməz. Çünki, bu kimi adamlar bir və ya iki nəfər deyil, həm də bir ölkənin daxilində yaşamırlar və özləri də müəyyən bir əsrdə baş qaldırmırlar ki, onların öhdəsindən asanıqla gəlmək mümkün olsun. Onlar saya-hesaba gəlməz dərəcədə çoxdurlar.

* * *

... Amma Avropanın başqa millətləri, xüsusən İngiltərə, Fransa və Amerika millətləri dini etiqadların qeydindən azad olaraq, əql və fəlsəfəyə tabe olduqlarından elm və sənayedə günbəgün, saatbasaat tərəqqi etməkdədirlər. Onların elmləri sayəsində dünyada qəribə ixtiralar və insan övladının xoşbəxtlik və asayişinə səbəb olan maraqlı yeniliklər meydana gəlmiş, elm və mərifət vasitəsilə Avropa əhalisi tərəqqi etmişdir...

* * *

Babın iki hökmü ki, yoldaşların dediyinə görə, öz Quranında bəyan edibdir, hikmətli hökmlərdəndir. Onlardan biri budur ki, qadın tayfası bütün azadlıq nemətlərində və ümu-

miyyətlə, bütün bəşər hüquqlarında kişilərlə bərabər olmalıdırlar. Gərək qadınlar da kişilər kimi tərbiyə olunsun və qadınlar da kişilər kimi üzüaçıq gəzsinlər. "Qürrətül-eynin"[1] üzü açıq gəzməsi də bu hökmün əsasında olmuşdur.

* * *

Əsrlərdən bəridir ki, vətənimizin düşmənləri vasitəsilə biz sizdən o dərəcədə uzaqlaşmışıq ki, indi siz bizi başqa bir xalq və başqa bir məzhəbdə olan adamlar hesab edirsiniz. Mən bu ziddiyyətin aradan qalxmasını arzu edirəm.

[1] Qürrətül-Eyn" Tahirə xanım Babi, şairə inqilabçı, XIX əsr.

HÜSEYN QAYIBOV

(1830-1917)

Hüseyn Qayıbov Qazax qəzasının Salahlı kəndində anadan olub. Qayıbov dini elmlərlə yanaşı, ərəb, fars və türk dillərini, həmçinin Şərq ədəbiyyatı və tarixini də mükəmməl öyrənmişdir. O, Tiflisdəki "Müqəddəs Nina" qadın məktəbində şəriət müəllimi kimi fəaliyyət göstərmişdir. 1883-1917-ci illər arasında Qafqaz müftisi kimi çalışmış H.Qayıbov bir neçə məqalənin və kitabın müəllifi kimi də tanınır. O, müsəlman mədrəsəsində tədris üçün riyaziyyata dair "Məsaili-ammil-hesab" (Ümumi hesab məsələləri) və ana dilini təzə öyrənənlər üçün "Məbdəyi-təlimi-sibyan" ("Yeniyetmələr üçün başlanğıc") adlı dərs vəsaitləri də hazırlayıb. H.Qayıbov təkcə maarif sahəsində deyil, ədəbiyyatşünaslıq səhasində də xeyli işlər görüb. H.Qayıbovunun tərtib etdiyi dörd cildlik "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" kitabı çox dəyərlidir.

H.Qayıbov azərbaycanlı qızların yeni məktəblərdə təhsil almalarına çalışır, Qafqaz Qadınlarının Xeyriyyə Cəmiyyətini dəstəkləyirdi. O, öz qızlarını – Nigar və Gövhər xanımı da rus dilində Tiflis Nücabə Qızlar İnstitutunda oxutdurmuşdu. H.Qayıbov qadınların maariflənməsi sahəsində də mühüm xidmətlər göstərmiş, "İşıq" qəzetində görkəmli müsəlman qadınları haqqında məqalələr yazmışdır.

Multikultural bir dünyagörüşünə sahib olan H.Qayıbov azərbaycanlı ateist filosof M.F.Axundovla, gürcü şairi İ.Çavçavadze ilə yaxından dost olmuşdur. O, ərəbcə öyrənmək istəyən azərbaycanlı şagirdlər üçün XVI əsrin Azərbaycan şairi Bədiinin "Tərcümətül-bədaye" adlı mənzum ərəbcə-farsca lüğətini azərbaycancaya tərcümə etmişdir. Onun "Ümumi müslimini-müvəhhidini-Zaqafqazə tövsiyənamə" adlı əsərində xristianlarla sülh içində yaşamaq, onlarla dost və yaxın olmaq tövsiyə edilmişdir.

* * *

Müsəlmanların nəsara (xristian) tayfasının islama olan himayət və yaxşılığını inkar etməmələri, onlarla dost və yaxın olmaları, onların (müsəlman ruhanilərinin) ...xristianlara qarşı mübarizəyə səvq edən hərəkətlərini ifşa etmələri ...lazım.

* * *

Alimi-piran (yaşlı alim) və rəisi-ruhaniyan müfti əfəndi Ğayibof həzrətləri millət bacılarına həme vəqt atalıq eyləmək amalında oldıqından ...aləmi-islamda elm və mərifət ilə məşhurə olan müsəlman xanımlarının adlarını və tərcümeyi-hallarını toplayub bir risalə yazubdır. ..."İşıq" ğəzetəsinə ihda (hədiyyə) buyurubdur.

SEYİD ƏZİM ŞİRVANİ

(1835-1888)

Seyid Əzim Şirvani Şamaxıda dindar bir ailədə anadan olmuşdur. O, gənc yaşlarında Bağdad və Şam şəhərlərində müxtəlif mədrəsələrdə dini elmləri, Şərq fəlsəfəsini, İslam tarixini, ərəb dilini öyrənmiş, təhsilini başa çatdırdıqdan sonra vətənə qayıtmışdır. S.Ə.Şirvani bir müddət Şamaxıda yaşadıqdan sonra öz bilik dairəsini genişləndirmək, ayrı-ayrı xalqların, millətlərin həyat tərzini, məişət və mədəniyyətini öyrənmək məqsədilə Şərq ölkələrinə – Misir, Ərəbistan, İran və Türkiyəyə səyahət etmişdir.

1874-cü ildə Şamaxıda açılan "Məclis" adlı məktəbdə Seyid Əzim ərəb, fars, türk (Azərbaycan) dillərindən, şəriətdən dərs demişdir. S.Ə.Şirvani "Əkinçi" qəzetilə yaxından əməkdaşlıq edir, baş yarmaq, xəncərlə özünə zərər vermək kimi şəriətə zidd əməllərə qarşı çıxan H.Zərdabini şeirləriylə müdafiə edirdi.

Şirvani yaradıcılığında tolerantlıq və multikultural dəyərlər geniş yer tutur. O yaradıcılığında dini, milli, irqi ayrı-seçkiliyi həmişə tənqid etmiş, uşaq və yeniyetmələrdə tolerantlıq hislərini aşılamağa üstünlük vermişdir. "Demirəm rus, ya müsəlman ol" – deyən şair din, təriqət azadlığının tərəfdarı olsa da, bütün insanları "əhli-ürfan" olmağa çağırmışdır.

Cəmiyyətdə insanların millətlərarası və dinlərarası yaxınlığını və dostluğunu təbliğ edən şair "Allah" məfhu-

munun ruslarda "Boq", türklərdə "Tanrı", farslarda "Xuda" və s. adlandırılmasına baxmayaraq Yaradanın vahid bir mahiyyət kəsb etdiyni bildirirdi[1].

* * *

Oldum ol gün ki, çardəh salə[2],
Düşmədim fikri-dövlətü malə.
Eylədim arifanə kəsbi-ülum[3],
Gah Bağdad məskənim, gah Rum,
Eylədim Misrü Şamdə məva,
Gah yerim Yəsrib oldu, gah Bətha.
Oxudum nəhvü sərfü fiqhü üsul,
Hikmətü heyət eylədim məhsul[4].

* * *

Cəhd qıl neməti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş
Ey oğul, hər lisanə ol rağib,
Xassə ol rus elminə talib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.

* * *

Demirəm mən gedən təriq ilə get.
Sənə bürhan deyil təriqi-pədər[5],

[1] Müqayisə üçün bax." *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqlar",* (səh 169-172). *Elmi redaktor.*

[2] Çardəh salə - 14 yaş

[3] Kəsbi-ülum - elm əldə etmək.

[4] Oxudum nəhvü sərfü fiqhü üsul, hikmətü heyət eylədim məhsul" – Beytin mənası (oxudum dilçilik elmlərini, islam hüququ və teologiyasını və fəlsəfəni də nəticədə öyrəndim).

[5] Sənə bürhan deyil təriqi-pədər-sənə dəlil deyil atanın yolu.

Gör nə yol getdi zadeyi-Azər.
Demirəm rus ya müsəlman ol,
Hər nə olsan, get əhli-ürfan ol...

* * *

Çatmayıb şərdən bizə bu xəbər –
Ki, ərəbdən səva dil oldu hədər.
Nə ərəbdir xuda, nə rumü nəzəng,
Nə həməşdir, nə rusü türkü firəng,
Xah boğ, xah tanrı, xah xuda,
Birdi mənada, ey düri-yekta.
Ləfz edirsə ifadə mənanı,
Sərf edər əhli-mərifət anı.

HƏSƏN BƏY ZƏRDABİ

(1837-1907)

Azərbaycanın tanınmış maarifçilərindən olan Həsən bəy Zərdabi Göyçay qəzasının Zərdab kəndində dünyaya göz açmışdır, İlk təhsilini mədrəsədə alan Həsə bəy təhsilini davam etdirmək üçün Şamaxıya və Tiflisə getmiş, sonra isə Moskva Universitetinə imtahansız daxil olmuş, universitetin təbiət-riyaziyyat fakultəsini müvəffəqiyyətlə bitirmişdir.

H.Zərdabinin yaradıcılığı tolerantlıq və multikultural dəyərlərlə zəngindir. Belə ki, Zərdabi "Dil və din" məqaləsində hər bir xalqın həyatında dilin və dini əqidənin mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Bu da onun liberal, hüququn aliliyinə inanan, tolerant və multikultural dəyərlərə sahib insan olmasından xəbər verir. 1905-ci il 25 noyabr tarixində "Həyat" qəzetinin 107-ci nömrəsində çap olunan "Cəmiyyəti-xeyriyyə binası" adlı məqaləsində o, Bakıda azad və maneəsiz şəkildə ermənilərin öz xeyriyyə cəmiyyətlərini yaratmasından bəhs edir.

Müsəlmanların vəhdəti amili də H.Zərdabinin önəm verdiyi məsələlərdən biri idi. Dahi mütəfəkkir "Bakıda müsəlman teatrının binası" məqaləsində müsəlmanların vəhdətinə mane olan sünnilik, şiəlik kimi ixtilafları, mənasız adət-ənənələri tənqid edir, müsəlmanların bölünməsini qınayır, qurban bayramını və həcc mərasimini misal çəkərək, bu kimi mərasimlərin müsəlmanların ittihadı, birliyi üçün əmr edildiyini izah edirdi. Zərdabi məktəblərdə "elmi-əd-

yanla" (din elmləri) "elmi-əbdanın" (dünyəvi elmlər) birlikdə öyrənilməsini müsəlmanların tərəqqisi üçün vacib hesab edirdi. Onun bu fikirləri günümüzün İslam həmrəyliyi və İslam maarifçiliyi ideyaları ilə də həmahəngdir.

Həsən bəy Zərdabi Azərbaycan peşəkar teatrının yaradıcılarındandır. Onun rəhbərliyi və dramatuqlardan Nəcəf bəy Vəzirov ilə Əsgər ağa Adıgözəlovun fəal iştirakı ilə 1873-cü ildə M.F.Axundovun "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyaları Bakıda tamaşaya qoyulmuşdur.

Həsən bəy Zərdabinin geniş ictimai fəaliyyətlərindən biri də Azərbaycan qadınlarının maariflənməsinə xüsusi əhəmiyyət verməsi və 1901-ci ildə Bakıda azərbaycanlı qızlar üçün ilk məktəbin açılmasına böyük köməklik göstərməsi olmuşdur.

Məhz Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetində Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik müəlliflər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsilə xalqa çatdıra bilirdilər. İlk mətbu orqan kimi "Əkinçi" qəzeti, öz əsas ideyasına uyğun olaraq, incəsənət və ədəbiyyata aid yeni demokratik tələblər irəli sürürdü.

* * *

Ərəb hükəmaları Əl-Razi və Cəfər dünyaya tək gəliblər. Bu Cəfərə Avropa əhli elmi-kimyanın atası deyir. Bir ingilis Hükəması deyir: zikr olan Cəfər, müəllimlərin müəllimidir. Min il bundan əqdəm Əbu-Sina adlı ərəb hükəması dağların

necə əmələ gəlməyindən bir kitab yazıb ki, hərgah indi onun tarixini dəyişdirəsən, bilmək olmaz ki, onu min il əqdəm yazıblar, yəni Avropa hükəmaları bu qədər zəhmət çəkibsələr də, ondan artıq bilmirlər.

* * *

...Elm təhsil etmək ilə tərəqqi edib irəli gedən vaxtda, hər tayfa gərək iki şeyi bərk saxlasın ki, bu şeylər hər tayfanın dirəkləri hesab olunurlar və onların tayfa olmağına səbəbdirlər. Bu şeylərin birisi dil və birisi din və məzhəbdir. Elə ki,bunların birisi əldən getdi, tayfanın beli sınan kimidir. İkisi də gedəndə tayfa qeyri tayfalara qarışır, mirur ilə yox olur.

* * *

Cənab Şeyxülislamın bu nömrədə çap olunan məktubunu oxuyana mə'lum olur ki, bizim peyğəmbərimiz öz ümmətini irəli salmaqdan ötrü onlara hökm edibdi ki, hər bir elmi təhsil etsinlər.

* * *

... Əgər din bizim avam mollalar deyən kimi olsa ki, hər bir tərəfdən götürdüyümüz adətləri də dinə qarışdırıblar, o vaxtda belə din ağıl ilə düz gəlmədiyinə bərbad olur. Ona görə lazımdır ki, mətləb əsl din üstə olsun. Əsl din işıqdan qorxmaz. Hətta, dəxi artıq işıqlanıb şəfəqi dəxi uzağa gedər. Pəs, elm təhsil etməkdən, din əldən getməz.

* * *

Vamberi ismində bir nemes ki, müsəlman vilayətlərində çox səyahət edib, indi islam adında bir kitab inşa etmişdir. O vilayətlərin yerlərini, əhlini, onların adət-ənənələrini və qeyri yazıb. ...Əgərçi Vamberinin zikr olan kəlamı düşmən sözüdür, amma yaxşı olardı ki,onu oxuyanlar fikir ilə oxuyaydılar.

* * *

Bu il Bonna şəhərində xaçpərəstlərdən əmələ gələn icma məclis edəcək, o məclisdə xaçpərəstlərin məzhəbini bir etmək barəsində danışıq olacaq. Şimdi hər xaçpərəst dövləti öz vəkilini o məclisə göndərir.

* * *

...Bakıda olan ermənilərin cəmiyyəti-xeyriyyəsi 40 il bundan əqdəm açılıbdır. O vaxt Bakıda erməni çox az idi. Bir neçə yüzdən artıq deyil idi. Əsl Bakı ermənisi 10-15 evdən artıq yox idi. Sonra quberniya buraya gələndə hökumət əmələsi və qeyri dadüstəd edənlər də gəlmişdir. O vaxtda onların oxumuşları da bizimkilərdən artıq idi. Onlardan darülfünun da qurtaranlar var idi. Bunların birisi – doktor Rustamyan Cəmiyyəti-Xeyriyyə üçün nizamnamə tərtib edib, bir neçə adam ilə ərizə verib onu təsdiq etdirəndən sonra, cəmiyyəti-xeyriyyəni açdılar və adamlar bir yerə cəm olub, Bakıda olan ermənilərin hamısını oraya dəvət edib, dəftər açıb pul yığdılar. Cəmiyyəti bina edən Rustamyan və qeyri zikr olan ərizəyə qol çəkənlər dəftər üzü ilə səpki edib hər kəsdən özləri müəyyən elədiyi məbləği istəyib aldılar və heç bir kəs olmadı ki, onlara cavab etsin ki, mən bu məbləği vermirəm və ya verə bilmərəm. Hər növbət ilə pulunu verib, qəbzini alıb ötürdü.

CƏMALƏDDİN ƏFQANİ

(1838-1897)

Cəmaləddin Əfqani Həmədan yaxınlığındakı Əsəd- abad kəndində anadan olmuşdur. Uşaqlıq illərini Əfqanıstanda, Kabildə keçirən Cəmaləddin burada mədrəsədə dini təhsil almış, ərəb, fars dillərini öyrənmişdir. Qəzvində, Tehranda və Nəcəfdə isə ruhani təhsilini davam etdirmiş, müctəhid dərəcəsinə yüksəlmişdir. Sonralar fransız və rus dillərinə də bələd olmuşdur. C.Əfqani ilə görüşən Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə onun Azərbaycan türkü olduğunu bildirirlər. M.Ə.Rəsulzadə "İran Türkləri" əsərində Cəmaləddin Əfqaninin adını çəkir və göstərir ki, bütün Şərqin intibahında bu şəxsin müstəsna rolu olmuşdur.

C.Əfqani İslam ölkələrinin imperializmdən xilası üçün daim mücadilə etmişdir. Ömrünü əsasən səyahətlərdə keçirən Əfqani Əfqanıstanda, Hindistanda, İngiltərədə, Misirdə də yaşamış, Əzhər və İstanbul Universitetlərində mühazirələr oxumuşdur. O, Parisdə misirli müftü Məhəmməd Abduhla birlikdə "əl-Urvətül-Vüsqa" ("Möhkəm dəstək") qəzetini nəşr edərək, imperializmə qarşı mücadilə etmişdir. Fransanın məhşur Sorbon Universitetində mühazirə oxumaq üçün Parisə dəvət olunan C.Əfqani orada məşhur şərqşünas və din tarixçisi E.Renan ilə tanış olur. Renan yazırdı: "Təqribən iki ay əvvəl tanış olduğum Şeyx Cəmaləddin şəxsən məni öz təsiri altına almışdı. Onunla hər dəfə söhbət edəndə

mənə elə gəlir ki, İbn Sina, İbn Rüşd və yaxud insanları əsarət zəncirindən qurtarmaq üçün çalışmış başqa Şərq dahilərindən biri ilə üzbəüz oturub söhbət edirəm". "... İslam dininin fəlsəfi və elmi mahiyyətini mənə ən yaxşı izah edən Cəmaləddin Əfqani olmuşdur".

Amerikaya və Rusiyaya səyahətlər edən Əfqani Bakıda da olmuşdu. Tatar mütəfəkkiri Yusuf Akçura onun Rusiya türklüyünə təsirini yüksək qiymətləndirir: "Əfqani İslam aləminin hər tərəfinə düşüncələriylə, sözləriylə, işləriylə çox bərəkətli toxumlar saçmış və Qərb türklüyündə olduğu kimi, Şimal türklüyündə də milliyyət fikrinin gəlişməsinə xidmət etmişdir".

Əfqaninin mübariz publisistikası və imperializm əleyhinə davamlı çıxışları, onu Qərb müstəmləkəçilərinə qorxulu və təhlükəli düşmən kimi tanıtmışdır. Əfqaninin fikrincə, güclü və ədalətli hökmdarın hakimiyyəti, dövlətin idarə edilməsi işində, xalqın iştirakını təmin edən konstitusiya və parlament kimi təsisatlar ilə tənzimlənməlidir. Müsəlman Şərqinin acınacaqlı vəziyyəti, gələcək taleyi haqqında xalqı oyadan, ziyalıları müstəmləkəçilərə və Qacar hakimiyyətinin zülmünə qarşı üsyana çağıran Əfqani, həm Qərb, həm Şərq ölkələrinin rəhbərləri tərəfindən təzyiq və təhdidlərə məruz qalmışdır. O, ömrünü məşəqqətlər içində, sürgünlərdə və həbslərdə keçirmişdir. Osmanlı hökmdarı Sultan II Əbdülhəmidin dəvətilə ömrünün son illərini İstanbulda yaşayan Əfqani 1897-ci ildə İstanbul həbsxanasında rəhmətə getmişdir. Onun Qacar və ya Osmanlı hakimiyyəti tərəfindən zəhərləndiyi bildirilir.

C.Əfqani ruhani təhsili alsa da, dünyəvi elmlərin yayılması üçün mübarizə aparmış, bəşəriyyətin tərəqqisini dini və dünyəvi elmlərin vəhdətində görmüşdür. O, dünyəvi elmlərdən xalqı uzaq tutan din xadimlərini və məzhəbpərəstləri də şiddətlə tənqid etmişdir. C.Əfqani islami vəhdətə üstünlük verir, şiə və sünni müsəlmanların vəhdətindən sonra, imperializmə qarşı mübarizə aparmağın daha effektiv olacağına inanırdı. O, şiə və sünni ayrı-seçkiliyinin əhəmiyyətsiz olduğunu bildirirdi. C.Əfqani dövrün ictimai-siyasi tələblərindən və Quranın təbiətindən çıxış edərək, ciddi islahatçı təkliflər irəli sürür və müsəlmanların nicatını İslam həmrəliyində görürdü.

Şeyx Cəmaləddin müsəlman Şərqində millət nəzəriyyəsini ilk dəfə ortaya qoymuş uzaqgörən fikir adamıdır. Şeyx Cəmaləddinə görə, millət tarixi kateqoriyadır. O, "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı əsərində millətin yaranması üçün dil birliyinin yaranmasını ilkin şərt sayırdı. Müəllifə görə, milli dillərin funksional dairəsi ictimai həyatın bütün sahələrini əhatə etməlidir. Xarici dilləri öyrənmək lazımdır, ancaq elm və təhsilin milli dildə olması, Əfqaniyə görə, millət olmanın əsas şərtlərindən biridir. Şeyx Cəmaləddinə görə, millət olmağın ikinci vacib şərti din birliyidir.

* * *

Hər iki dəstə (sünnilər və şiələr) Qurana və Məhəmmədin (s) peyğəmbərliyinə inanırlar. ...Bu (məzhəbpərəstlik) isə zərərdən və islam birliyi bağlarının parçalanmasından başqa bir nə-

ticəyə səbəb olmayacaq. Müsəlmanların bu qəflətdən oyanmaları, ölüm gəlmədən bu ölüm yuxusundan qalxmalarının zamanı daha gəlmədimi?

* * *

Dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz.

* * *

Dünya elm üstündə bərqərar olur. Elmi bəşəriyyətin əlindən alsan, daha dünyada insanlıqdan əsər qalmaz.

* * *

İnsanı şərafətli edən elm, ayrıca hec bir xalqa mənsub deyil, kim ona yiyələnsə, onundur.

* * *

Haqqı, həqiqəti sübut edən elmi bizim üləmalar qadağan edirlər, elə bilirlər ki, bununla İslamı qoruyub saxlayırlar. Belə adamlar əslində İslamın düşmənləridir.

* * *

İndiki cəhalətin İslam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin İslama etdikləri əlavələrin nəticəsidir. Tarixi təkamül və inkişaf onların bu səhvlərini üzə çıxarıb islah edəcəkdir.

* * *

Dünyanın sultanı həmişə elm olmuş, elmdir və elm olaraq qalacaqdır. Hələ heç kəs bu sultanı elm sarayından qova bilməmişdir. Dünyanın həqiqi hökmdarı olan elm, ancaq vaxtaşırı paytaxtını dəyişmiş, gah Məşriqdən Məğribə, gah da Məğribdən Məşriqə getmişdir.

* * *

Öldürülsəm də insanların həyatı naminə öldürüləcəyəm... Başa düşmürlər ki, fikir sahibini məhv etmək, onun fikirlərini məhv etmək vasitəsi ola bilməz.

MƏHƏMMƏD AĞA ŞAHTAXTLI

(1846-1931)

Məhəmməd ağa Şahtaxtlı Naxçıvanın Şahtaxtı kəndində anadan olub. Naxçıvan şəhər məktəbində ibtidai, Tiflis klassik kişi gimnaziyasında isə orta təhsil almışdır. Şahtaxtlı ali təhsilini Almaniyanın Leypsiq universitetinin tarix, fəlsəfə və hüquq fakültəsində tamamlamışdır.

Onun Tiflisdə çap olunmuş "Təkmilləşdirilmiş müsəlman əlifbası" (1879) kitabı öz dövründə böyük müzakirələrə səbəb olmuşdur. M.Şahtaxtlı Moskvada Lazarev Şərq Dilləri İnstitutunda Şərq dillərindən dərs demiş,həmin dövrdə nəşr etdirdiyi əsərlər müəllifinə tədqiqatçı və şərqşünas kimi böyük şöhrət qazandırmışdır. O, hətta Quranın ərəbcədən rus, fransız və alman dillərinə tərcüməsində də iştirak etmişdir. M.Şahtaxtlı 1900-cü ildə Beynəlxalq Asiya Cəmiyyətinin, 1903-cü ildə isə Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvü seçilmişdir.

M.Şahtaxtlı mətbuat tariximizdə silinməz izlər qoymuş "Moskovskiye vedomosti", "Novoye vremya", "Kavkaz", "Rossiya" kimi dövrünün nüfuzlu mətbu orqanlarında çoxsaylı məqalələr dərc etdirmiş, 1891-1893-cü illərdə "Kaspi" qəzetinin redaktoru olmuşdur. M.Şahtaxtlı 1903-1905-ci illərdə "Şərqi-rus" qəzetini nəşr etdirir. Burada yazdığı "Rəddi-şər və fəsad", "Dərdimiz və dərmanımız" və s. məqalələrində maarifçi görüşlərini qələmə alır. C.Məmmədquluzadə M.Şahtaxtlının publisistik fəaliyyətini belə

dəyərləndirirdi: "Müsəlman arvadlarına savadın və təhsilin lüzumu barəsində Məhəmməd ağa tərəfindən qəzetdə yazılmış bir məqalədə "qadın azadlığı" kimi iki kəlmənin üstə müsəlmanlar içində böyük danışıq törədi".

M.Şahtaxtlı Dövlət Dumasında millət vəkili kimi, Rusiya Xarici İşlər Nazirliyinin Şərq şöbəsində tərcüməçi kimi də fəaliyyət göstərib. Görkəmli mütəfəkkir 1919-cu ildən Bakı Dövlət Universitetində Şərq dilləri və ədəbiyyatından dərs demiş, sovet hakimiyyəti dövründə isə professor adına layiq görülən ilk azərbaycanlı olmuşdur. O, Sovet Azərbaycanında "Ümumittifaq Yeni Türk Əlifbası Komitəsi"nin işində yaxından iştirak etmişdir. M.Şahtaxtlının bütün publisistik və yaradıcılıq fəaliyyəti multikultural, maarifçi ideyaların təbliğinə həsr olunmuşdur. O, "Türkiyəni necə xilas etməli?" və sair əsərlərində Qərb dəyərlərinin qəbul edilməsinin müsəlman Şərqinə azadlıq gətirəcəyini müdafiə etmişdir.

* * *

Əgər biz, ziyalı müsəlmanlar, xalqımızın həyati mənafeyi naminə... hər şeydə Avropa baxışı, elmi görüşünü təbliğ etsək, onda öz xalqımızı mədəni xalqlar silsiləsinə tez cəlb etmiş olarıq.

* * *

Yazıq türk xalqı, Avropa siyasi fikirləri sayəsində öz taleyinin xüsusi ağası və ölkənin real hökmdarı olduğunu gördükdə, Avropa mədəniyyətinə hörmətlə yanaşacaqdır. Beləliklə o, ... Avropa mədəniyyətinin müdafiəçisinə çevriləcəkdir.

* * *

Mənim şiəliyim elə bir şiəlikdir ki, sünnilərə məni düşmən eləmir. ...Mənim şiəliyim elə bir şiəlikdir ki, mənə sünnilərə deyil, əhli-kitabın hamısına düşmən olmağa yol verməməsindən savayı, onları sevməyə sövq edir, əmr edir. Mənim şiəliyim elə bir şiəlikdir ki, ...bəni-növi-bəşərin hamısı mənimlə bərabər bir bədənin üzvləri olub, yek vücud olduğumuza mütəqid edir.

* * *

Şəriət- qanundan başqa bir şey deyil. Və hər bir digər qanun kimi, o da zamanın tələbinə uyğun dəyişməlidir.

* * *

Arvadların tərbiyəsi məsələsi, biz türklərin qövmi-zindənganlığı üçün, hərfi-hərfinə, ölüm və ya sağ qalım məsələsidir.

MOLLA RUHULLA MƏHƏMMƏDZADƏ

(1850-1912)

Görkəmli din xadimi olan Molla Ruhulla Novxanı kəndində anadan olmuşdur. O, Qəzvində, Rəştdə orta dini təhsil, yenə Rəştdə və Tehranda ali dini təhsil almışdır. 15 illik təhsilinin ardından vətənə qayıdan Molla Ruhulla bir il sonra Hacı Tərxan (Həştərxan) şəhərinə dəvət olunur və Hacı Tərxan şiə müsəlmanlarının qazısı vəzifəsinə təyin olunur. O, buradakı fəaliyyəti zamanı şiə və sünnilər arasında yaxınlaşmaya nail olduğu üçün xalqın məhəbbətini qazanır.

16 il Həştərxanda qazılıqla məşğul olan Molla Ruhulla qoca anasının və qohum-əqrəbasının xahişi ilə vəzifəsindən istefa edərək, 1891-ci ildə Novxanıya dönür. 1892-ci ildə Məşhəd ziyarətinə gedərək, orada gördüklərinin təəssüratı altında İran müsəlmanlarının tənqidinə dair "Risaleyi-Rızuyə" adlı mükəmməl bir səyahətnamə yazır.

7 fevral 1896-cı ildə Bakı qubernatoru tərəfindən prixod (məhəllə) mollası təyin olunan Molla Ruhulla, Bakıdakı Hacı İmaməli məscidində çalışır. O. 1902-ci ildə həcc ziyarətini yerinə yetirir, 1905-ci ildən isə həm də Bakıdakı rus-müsəlman məktəblərində "elmi-ilahi" (teologiya) müəllimi olaraq fəaliyyət göstərir.

Molla Ruhulla bu kimi vəzifələrlə yanaşı boş vaxtlarında millətinin, vətəninin səadəti, rifahı naminə də çalışmış, öz moizə və xütbələri ilə, məqalələri ilə bu yolda

mücadilə etmişdir. Onun məqalələri qəzet və jurnallarda M.R.Məhəmmədzadə imzası ilə dərc olunurdu.

Molla Ruhulla müsəlmanları yardımlaşmağa çağırırdı, onun məqalələri öz dövrünün bir aynası olmaqla yanaşı, elm və maarif qaynağı olaraq günümüzə də işıq saçır. "İkisinə bir daş" adlı silsilə məqalələrində İslam dünyasının parça-parça olmasının səbəbini idarəçilərin zövq-səfa içində üzüb, sadə xalqın dərdlərindən bixəbər olmasında, din xadimlərinin bir-birlərinə zidd fitvalar verməsində görən mütəfəkkir, bütün bu ziddiyyətlərin nifrət və ədavətə, cəmiyyətin bölünməsinə səbəb olduğunu göstərirdi. Müəllif "İrşad" qəzetində yazdığı "Halimizə dair" silsilə məqalələrində də müsəlmanları məzhəb ədavətlərini bir kənara qoymağa, ittihad və ittifaqa çağırırdı. O, 6 may 1906-cı ildə Məhəmməd peyğəmbərin mövludu (doğum günü) münasibətilə ərəbcə etdiyi xütbədə, müsəlmanları vəhdətə və əxlaqlı olmağa, zəhmətkeş olub, xaricilərdən asılı olmamağa dəvət edirdi.

Molla Ruhulla, "Həyat" qəzetində nəşr olunmuş fiqhi bir suala verdiyi cavabda Kərbəla təziyədarlığı məclislərində yerinə yetirilən zəncir vurmaq, baş yarmaq kimi əməllərin İslamda yeri olmadığını, şəriətə zidd olduğunu göstərirdi. "Cəhalətin əhvali-müəsfəsəsi" adlı məqaləsində isə İmam Hüseynə və onun övladlarına təziyə saxlamanın müsəlmanların borcu olduğunu, lakin küçələrdə vəhşicəsinə əməllər etmənin doğru olmadığını izah edirdi. Özü din xadimi olmasına baxmayaraq, öz dövrünün dini təhsil anlayışını da tənqid edən mütəfəkkir, dini təhsillə yanaşı digər elm sahələrinin də öyrənilməsinin vacib

olduğunu göstərir, müsəlmanları dünyəvi elmlərdən yayındıran cahil və avam din xadimlərini tənqid edirdi. Belə din xadimləri Molla Ruhullanın əsas ifşa hədəfi idi.

Molla Ruhulla dini fanatizmin düşməni olan H.Z. Tağıyevlə də yaxın əlaqədə idi. Maarifpərvər din xadimlərinə böyük hörmət bəsləyən H.Z.Tağıyev Molla Ruhulla ilə də həmişə məsləhətləşərdi. H.Z.Tağıyevin maddi yardımı ilə nəşr olunan əl-Bakuvinin "Kəşfül-həqayiq" əsərinin hazırlanmasında Molla Ruhulla da müəllifə yaxından kömək etmişdir.

Qeyd edək ki, Molla Ruhullanın dini maarifçilik, multikulturalizm və İslam həmrəyliyi baxımından xeyli zəngin olan məqalə, xütbə və şeirləri, onun qətl edilməsindən sonra, oğlu Məhəmmədsadıq Axundov tərəfindən 1913-cü ildə Bakıda nəşr edilən "Şəhidi-mərhum fazil əlhac Molla Ruhulla axundun əhvalatına dair məcmuədir" kitabına daxil edilmişdir.

* * *

Diqqət ediniz müsəlmanlar! Müsəlmanların cümləsi bəradərdir (qardaşdırlar). "Həqiqətən, müsəlmanlar qardaşdırlar", bəradərlik isə şərti-əsası təavün (yardımlaşma) və müsavatdır (bərabərlik). Təavünsüz (yardımsız), müsavatsız qardaşlıq olmaz.

* * *

Hər fitva-fitvanın xilafında, hökm-hökmün ziddində sadir olub, əlaimi-hərcü-mərc (hərc-mərclik işarəsi) görünürdi, ... çox firqələr ayrılub, böyük təhlükəli vaqeələr yüz verdi.

* * *

Bəsdir sünni-şiələrin dəvası! Bəsdir firqə-firqə olub cəli-rəisligin (rəislik etmək) münaziəsi (mücadilə)! İmdi gəlin islamiyyət, insaniyyət dəvası edək!

* * *

...Ey müsəlmanlar! Qorxun ki, şeytan sizi aldadub boş səbəblərə görə sizi biri-birinizdən ayırmasun. Biri-birindən ayrılmayın. Həmin ki ayrıldınız, o vəqtdə zəlil olub haqqınızdan məhrum oldıqınız haldə həlak olacaqsınız. Ayrılıqa və fitnə salmaqa sürət etməyin. Güvara (xoş) olsun o şəxsə ki, ...nəfsini xahişindən saxlıya.

MİR MƏHƏMMƏD KƏRİM ƏL-BAKUVİ

(1853-1938)

Maarifçi bir din xadimi olan Mir Məhəmməd Kərim əl-Bakuvi Bakıda dünyaya gəlmişdir. Bağdadda ali dini təhsil alan əl-Bakuvi Bakıda uzun müddət axundluq etmiş, 1914-1918-ci illərdə Bakı quberniyası qazılığı ilə bərabər Bakı quberniyası Şiə məclisinin sədri vəzifələrində çalışmışdır.

Məhəmməd əl-Bakuvi elm öyrənmədə kişi-qadın fərqliliyinin ortadan qaldırılmasını təbliğ edir,qadınların təhsildən kənar tutulmasına qarşı çıxır, İslam peyğəmbərinin – "elm Çində də olsa, qəbul edin", "kişi və qadın, hər müsəlmana elm öyrənmək vacibdir", "beşikdən qəbrə qədər elm təhsil edin" və digər hədislərini cahil müsəlmanlara nümunə gətirirdi.

Multikultural bir düşüncəyə sahib olan əl-Bakuvi öz dövrünün təhsil anlayışını da tənqid edərək, sadəcə dini təhsilin yanlış olduğunu, bütün dünyəvi elmlərə əhəmiyyət verməyi təbliğ edirdi. O, hədislərdən nümunələr gətirərək, elmin şərəfini belə izah edirdi: "Peyğəmbərimiz buyurmuş: alimlərin mürəkkəbi Allahu-Təala yolunda şəhid olan şəxslərin qanından fəzilətlidir"

Məhəmməd əl-Bakuvi müsəlmanlar arasında riayət edilən baş yarmaq, zəncir vurmaq kimi bəzi əməllərin, məzhəbpərəstliyin təməlsiz, İslama zidd olduğu-

nu göstərərək, müsəlmanları yanlış dini addımlardan çəkindirməyə çalışır, bunların günah və İslamdan kənar olduğunu göstərirdi.

Məhəmməd əl-Bakuvinin H.Z.Tağıyevin yardımı ilə nəşr olunan azərbaycan dilində ilk Quran təfsiri "Kəşfül-Həqayiq" ("Həqiqətlərin kəşfi") adlı üç cildlik əsəri İslam aləmində böyük əks-səda doğurmuşdu. Orta Asiyadan, Tatarıstandan, Gürcüstandan əl-Bakuviyə bir çox hədiyyələr, İran və Osmanlı dövlətlərindən isə hədiyyələrlə yanaşı medallar da təqdim olunmuşdu. Multikultural məzmuna malik olan əsərdə məzhəbçilik qınanır, İslam vəhdəti ideyası, milli, dini və dünyəvi maarifçilik, sülh və qardaşlıq təbliğ edilir. Müəllif bu mövzuda peyğəmbərin – "müsəlman, əlindən və dilindən digər insanların amanda olduğu şəxsdir" hədisini nümunə gətirir.

Təəssüf ki, əl-Bakuvi kimi mütərəqqi bir din xadimi 1938-ci ildə həbs edilib güllələnmiş, əsərlərinin əksəriyyəti isə məhv edilmişdir.

* * *

Quran bizi elmə, mərifətə təşviq edir. Fəqət, biz Qurana qulaq vermirik.

* * *

İslam dinində kişi və qadın, hər ikisi şəriət qarşısında eyni dərəcədə mükəlləf olduqlarına görə, elm təhsil etmələri sahəsində də bərabər səviyyədə mükəlləf sayılmalıdırlar.

* * *

İnsana hər bir təhlükədən nicat verən elmdir. Və əzaba düçar edən də cəhalətdir.

* * *

İslam alimləri tərəfindən bu gün dini elmlərdən başqa heç bir elm təhsil edilmir. Əlbəttə, dini elmləri öyrənmək lazımdır, lakin bəşər həyatı üçün zəruri olan digər elmlərin təhsili də vacibdir. Bunların hamısını öyrənmənin vacib olduğuna dair Quranda da ayələr vardır.

* * *

Bir şəxs öz misli insana 5 gün dünya həyatının mənfəətindən ötrü zülm eyləyib, Allahu-Təala tapşıran əmanətə xəyanətkar ola, bu qisim zülm- zülmün yüksək dərəcəsidir. Belə şəxs insaniyyətdən kənar vəhşilər cərgəsinə daxil olmağa layiq və insan surətində bir vəhşidir.

* * *

Qurani-şərifin məzmunu hər bir xalqın öz dilinə təfsir və tərcümə olunmasa, ondan necə ki, lazımdır faydalana bilməzlər.

* * *

Ruhani rəislər Qurani-şərifin hökmlərini, hər şəxs öz arzusuna uyğun xalqa yetirdiyindən, milləti-islam arasında məzhəb ixtilafı meydana gəldi. İttihad, ittifaq müsəlmanlar arasından götürülüb təfriqə və nifaqa səbəb oldu.

NƏCƏF BƏY VƏZİROV

(1854-1926)

Tanınmış dramaturq, publisist və teatr xadimi Nəcəf bəy Vəzirov Şuşada doğulub. Mədrəsədə və Şuşa şəhərinin mülkiyyə məktəbində natamam təhsil alıb, rus dilini öyrənib. Elmə böyük maraq göstərən Nəcəf bəy 1868-ci ildə Bakıya gəlir və 1868-1874-cü illərdə realnı gimnaziyada oxuyur.

Gimnaziya illəri Vəzirovun multikultural ruhda tərbiyə alması üçün şərait yaradır. Gimnaziyada dərs deyən Həsən bəy Zərdabi ilə tanışlığı Vəzirovun ziyalı kimi inkişafına güclü təsir göstərir. Məhz Zərdabinin məsləhəti ilə N.Vəzirov rus klassik yazıçılarının əsərlərini mütaliə edərək, mütərəqqi ideyalarla tanış olur. Yazıçının teatrla tanışlığı da bu zaman başlanır. O yazır: "1873–cü ildə altıncı klasda oxuduğum halda birinci dəfə rus teatrına getdim. Bu gecə mənə nəhayət dərəcədə təsir elədi". 1874-1878-ci illərdə Moskvada Petrovski-Razumovski (indiki Timiryazev) Kənd Təsərrüfatı Akademiyasında təhsil alan Vəzirov, burada inqilabi tələbə təşkilatlarının toplantılarında yaxından iştirak edir, xüsusən belə təşkilatların başçılarından olan, gələcək görkəmli rus yazıçısı, Vladimir Korolenko ilə hərtərəfli dostluq əlaqələri saxlayır. Şəxsən özü "qafqazlı tatar tələbələrinin dərnək təşkilatçısı" kimi "İmdadiyyə" cəmiyyətinin əsasını qoyur. Məhz bu cəmiyyətin əsas məqsədi barədə "İmdadiyyə" üzvlərindən biri Vəzirova yazırdı: "...Mən "İmdadiyyə"nin nizamnaməsini aldım... Bizim məqsədimiz – çirkinliklərin

kökünü kəsən çoxlu əllər hazırlamaqdır. Biz ağılın qüvvəsiyik, bizim silahımız bilikdir. Biz cəhalət, avamlıq əleyhinə mübarizə aparmalıyıq".

Ali təhsil həyatından sonra bir müddət meşəbəyi vəzifəsində çalışan Vəzirov, 1895-ci ildə Bakıya köçür. Burada vəkillik, Bakı Dumasının katibi, şəhər maarif şöbəsinin müdir müavini kimi vəzifələrdə çalışır və keçmiş müəllimi Həsən bəy Zərdabi ilə birlikdə doğma xalqının maariflənməsi üçün yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılması işində yaxından iştirak edir.

Geniş ədəbi–ictimai fəaliyyətlə məşğul olan ədib "Həyat", "İrşad", "Təzə həyat", "Açıq söz" və sair qəzetlərdə "Dərviş" imzası ilə ictimai eybəcərlikləri ifşa edən felyetonlar yazır, Azərbaycanda teatr sənətinin inkişafı üçün fəaliyyət göstərir.

Bu illərdə o, "Pul düşkünü Hacı Fərəc" komediyasını, "Təzə əsrin ibtidası" dramını yazır, böyük fransız yazıçısı Jan Batist Molyerin "Xəsis" komediyasını "Ağa Kərim xan Ərdəbili", fransız məzhəkəsi "Vəkil Patelen"i isə "Dələduz" adı altında ictimaiyyətə təqdim edir. N.Vəzirovun humanizm, yüksək bəşəri ideallar tərənnüm edən, bədii və ictimai fikir tariximizdə xüsusi yer tutan "Müsibəti-Fəxrəddin" (1896) əsəri Azərbaycan ədəbiyyatında ilk faciəvi dram əsəridir. Əsərdə müsəlmanlar elm və maarifə, islami vəhdətə, birliyə dəvət edilir.

Dramaturq öz əsərlərində xalqlar dostluğunu, multikultural dəyərləri geniş təbliğ etmiş, 1895-ci ildə yazdığı "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasında erməni və azərbaycanlıların mehriban insani münasibətləri, dostluğunu qələmə almışdır. Burada ermənilərin Azər-

baycanda rahatlıq içində yaşaması da xüsusi vurğulanır. Bu əsər Azərbaycan multikulturalizminin ədəbi-ictimai təzahürü baxımından dəyərli bir nümunədir[1]. Azərbaycanın böyük dramaturqu Nəcəf bəy Vəzirov şairləri köhnə şeirlərlə yanaşı, müasir həyatdan yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı.

* * *

Həzrət Rəsul əleyhüssəlam buyurubdur ki, Məğribdəki müsəlmana iynə batsa, Məşriqdəki gərək onun ağrısın bilsin....

* * *

Bu neçə il ərzində Akademiyada oxuduğum zaman Bakıda müəllimimiz Həsənbəy Məlikov cənabları "Əkinçi" qəzetini nəşr etməyə başladı. Mən dəxi yavaş-yavaş məqalələr yazmaqda idim. Bu halda mənim arkadaşım Vladimir Korolenko idi ki, indi Rusiyanın ən böyük və ən məşhur ədibi və mühərriri hesab edilir.

* * *

Əkinçi" istəyir ki, bu şəxslər ayılıb gözlərini açsınlar....

* * *

Bəs Avropa əhlinin belə tərəqqisinə bir səbəb də onların həmzəhmət olmağıdır.

* * *

[1] Ətraflı məlumat üçün bax. "*Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları"* (səh. 184-186). *Elmi redaktor.*

Avropa əhlinin bu qaydası yaxşıdır ki, oğlan öz xahişini qıza qandırır, qız da elə ata-anasına məlum eləyir, cavab çıxır: bəli, ya xeyr. Vəssalam!.. Bizim işimiz çətindir.

* * *

Avropa məmləkətlərindən yeddi yaşından tutmuş ta yetmiş yaşınadək, bir ünas[1], ya zükur[2] tapmazsan ki, mədəniyyətdən kənar olsun.

[1] Ünas - qadınlar
[2] Zükur - kişilər

FİRUDİN BƏY KÖÇƏRLİ

(1863-1920)

Firudin bəy Köçərli Şuşada dünyaya göz açıb. O, 1876-cı ildə burada rus məktəbində oxuyub, 1878-ci ildə isə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olub. Firudin bəy seminariyanı bitirdikdən sonra taleyini Qori seminariyasının Azərbaycam şöbəsi ilə bağlayır. O, bir müddət Qazax müəllimlər seminariyasına başçılıq edir. Pedaqoji fəaliyyətlə birlikdə, həm də elmi yaradıcılıqla məşğul olur. Bir çox nüfuzlu qəzet və jurnallarda yazılar nəşr etdirir.

F.Köçərli tərcüməçilik fəaliyyətilə də məşğul olmuş, rus şairlərindən A.S.Puşkinin "Balıqçı ilə qızıl balığın nağılı", M.Y.Lermontovun "Üç xurma ağacı", M.V. Koltsovun "A kişi, niyə yatıbsan?" şeirlərini Azərbaycan dilinə çevirib, İrəvanda və Şuşada nəşr etdirmişdir.

Firidun bəyin yüzlərcə məqaləsi, hələ öz sağlığında, Bakı, Tiflis və Peterburqda çıxan qəzetlərdə çap olunmuşdur. F.Köçərlinin məqalələrində dünya ədəbiyyatının Firdovsi, Sədi, Hafiz, Şekspir, Bayron, Hüqo, Russo, Göte, Şiller kimi qüdrətli nümayədəndələri haqqında dəyərli elmi fikirlər vardır. Onun "Gürcü şairi Akaki Seretelinin yubileyinə dair", "Nikolay Vasilyeviç Qoqol", "Yakov Semyonoviç Qoqebaşvili", "Dost və müəllim N.O.Lomourinin xatirəsi" məqalələrində rus ədəbiyyatının böyük nümayəndələrindən Puşkin, Qoqol, Nekra-

sov, Turgenev, Dostoyevski, Tolstoy, Çexov, Qorki, gürcü şairi Akaki Sereteli və digərləri haqqında qiymətli ədəbi və ictimai-fəlsəfi mülahizələr mövcuddur. Bu baxımdan müəllifin "Şərqi-Rus" qəzetinin 1904-cü il 16 iyul sayında məşhur rus yazıçısı A.P.Çexovun ölümü münasibətilə qələmə aldığı məqalə multikultural və ictimai-bədii dəyərlər baxımından əvəzsiz mahiyyət daşıyır.

Köçərliyə görə, yazılarında haqqında bəhs etdiyi sənətkarlar "öz əsrlərində millətlərinin ən böyük müəllimi və ən mahir və müqtədir mürəbbisi olub, əsərləri ilə millətin təhzibi-əxlaqına, rüfət və səadət tapmasına, şöhrət və qüvvət kəsb etməsinə hüsn-tədbirlər və salamat təzyiqlər göstəriblər. Bu zati-alilərin vücudu ilə millətləri fəxr edirlər". Eyni zamanda bu sənətkarlar "cəmi aləmin mürəbbisi və filosofu hesab olunur", onlar "ümumxəlayiq və insaniyyət müəllimi və mürəbbisidirlər".

Ümumiyyətlə, F.Köçərlinin əsərləri multikultural və tolerantlıq fikirləri təcəssüm etdirən bir mənbədir. Onun qələminə yalnız azərbaycanlılar deyil, ruslar, gürcülər, başqa millətlərin nümayəndələri də böyük hörmət göstərirlər.

* * *

Nə qədər bir qövm və tayfa elmsiz və mərifətsiz olsa, bir o qədər onun ədəbiyyatı zəif və bimәzmun olacaqdır.

* * *

Əgər bir xalqı məhv etmək, onu adam toplusuna çevirmək istəyirsinizsə, müəllimini savadsız, həkimini isə kəmsavad eləyin. Biri onun başını, o biri canını zay eləsin.

* * *

Çoxumuz müsəlman isək də, insan deyilik, çoxumuz insanıqsa da, həqiqi müsəlmanlıqdan çox uzaq və kənarıq.

* * *

Rusların milli ədəbiyyatının binasını qoyan Puşkin və Qoqol olubdur. Bu iki müqtədir ədibin qələmi sayəsində rusların ədəbiyyatı təbii halına və təbii rənginə düşüb, firənglərin, ingilislərin və nemeslərin ədəbiyyatı təsirindən xilas olmağa başlayıbdır... Qoqol və Puşkin milli ədəbiyyatlarını məişətlərinin ayinəyi-həqiqətnüması edib, özlərindən sonra gələn üdəba və şüəraya salamat bir məslək, müstəqim bir yol açıblar. Qoqol həqiqətnəvis ədiblərin (realistlərin) babası və pişrovi mənziləsindədir.

* * *

Rusiyanın ən məşhur ədibi və sevimli munşisi hesab olunan Anton Çexovun bu (1904-cü il) iyul ayının ikisində vəfat etməsi cəmi mərifət əhlinə bilümum və rus üdəba və şüərasına bilxüsus hüznavər bir hadisə olduğu qəzetlərdə dərc olunan fəqərələrdən görünür... Onun əsərlərinin çoxusu Avropa dillərinə tərcümə olunubdur... Çexov ömrünün ən müqtədir və işə yarayan çağında, yəni 44 sinnində vəfat etdi; vətəndən kənarda, nemsə diyarında....

ƏLİ BƏY HÜSEYNZADƏ

(1864-1940)

Əli bəy Hüseynzadə Salyan şəhərində anadan olmuşdur. O, Azərbaycan-Türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biridir. Ə.Hüseynzadə Azərbaycanın ən görkəmli ədibi, filosof və ədəbiyyat tənqidçisi olmaqla yanaşı, həm də alim, həkim, rəssam, şair, tərcüməçi, müəllim, jurnalist kimi fəaliyyət göstərmiş, bu sahələrin hər birində özünəməxsus iz buraxmışdır. Onun Azərbaycan mətbuatı və publisistikası sahəsində də müstəsna xidmətləri vardır.

Ə.Hüseynzadə bütün ömrü boyu ümumtürk mənəvi dəyərlərini tədqiq və təbliğ etmiş, türkün tərəqqisi naminə öz parlaq zəkasını bütün gücü ilə işlətmişdir. Osmanlı Türkiyəsindəki təqiblərdən sonra Azərbaycana qayıdan Ə.Hüseynzadə "Kaspi" qəzeti ilə əməkdaşlığa başlayır, publisistik yazılarını dərc etdirir və "Gənc türkçülük nədir?" adlı məqaləsi ilə türk tənzimat hərəkatının mahiyyətini açıqlayır. Ə.Hüseynzadə islahatçı-reformist ideya adamı kimi tanınırdı. O, dövrünün məşhur teoloq alimi, ictimai xadim və publisisti Əhməd bəy Ağaoğlu ilə birlikdə milyonçu Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə "Həyat" qəzetinin nəşrinə başlayır. Bu qəzet Ə. Hüseynzadəni Azərbaycana "ağır başlı" filosof, "sədrə (qəlbə) şəfa verən" sözlər söyləyən mütəfəkkir kimi tanıdır. Onun əsərləri ictimai-mədəni mühitə yeni ab-hava

gətirir, ümumxalq dünyagörüşünün məntiqi əsaslarını yeni prinsiplərlə zənginləşdirməyə xidmət edir.

Qeyd etmək lazımdır ki, Ə.Hüseynzadə türk xalqlarının ümum-vəhdət bayrağı altında birləşməsini arzulayırdı. Eyni zamanda o, bölgədə və dünyada sülh arzulayan humanist mütəfəkkirlərdən biri kimi çıxış edirdi. Onun yaradıcılığında milli və dini birlik ən əsas ideyalardan idi. Ə.Hüseynzadə həmçinin türkçülük, islamçılıqla bərabər, müasirliyi də əsas götürürdü. Belə ki, müasirlik dedikdə Avropanın əldə etdiyi elmi-texniki və mədəni tərəqqini öz ölkəsinə qazandırmaq istəyirdi. Ə. Hüseynzadə İslam dünyasının xilas yolunu müsəlman etiqadlı, lakin Avropa elmini, texnologiyasını mənimsəmiş fədailərdə görürdü. Bu mütərəqqi insanın fəlsəfi ideyaları yüksək ideallara, həqiqətə çatmağa xidmət edirdi. Təsadüfi deyil ki, o, "Xalqa xidmət haqqa xidmətdir" – deyir, Tolstoy, Şiller, Göte kimi mütəfəkkirləri nümunə göstərirdi.

Ümumiyyətlə, onun şəxsiyyəti və yaradıcılığı humanizm prinsipi əsasında formalaşmışdır. Ə.Hüseynzadə "Dünyanın nicatı məhəbbətdədir" deyir, sevginin əsas olduğunu bəyan edirdi. Onun yaradıcılığında ümumbəşəri, multikultural dəyərlərin təbliği əsas götürülür, hər şeyin təməlində məhəbbətin olduğu vurğulanır.

* * *

Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır; "türk hissiyyatı ilə mütəhəssis (duyğulu), islam dini ilə mütədəyyin (dindar) və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin (mədəni) olmaqdır.

* * *

İsa və Məhəmmədin tələb etdikləri məhəbbəti nə ilə və nə vasitə ilə təmin etmək olur?... O vasitəni bəşəriyyət kəşf edə bilmişmidir? Şübhəsiz etmişdir. O nədir?... Hürriyyət və ədaləti-kamilə!.. Ədl olursa, hürriyyət də olur. Hürriyyət olursa, məhəbbət və müvəddət olur. Həzrəti İsanın da, Həzrəti Məhəmmədin də şə`r və qanunları bu həqiqətə müncərdir.

* * *

Ruslar bu kəlisayı[1] vücuda gətirmək üçün milyonlar sərf etdilər. Çünki niyyətləri öz həmməzhəblərini Həzrəti-İsa (ə.s.)-nın mavi nurlarından müstəfid[2] etməkdir.

* * *

Tolstoy böyükdür, çünki dahiyeyi-hərbin ortadan götürülüb, ümumi-cahanın miləl və əqvamı arasında sülhi-əbədinin təqririnə qeyrət ediyor. Tolstoy böyükdür, çünki məzahib arasında bir təriqi-ittihad və məvəddət (sevgi) arıyor.

[1] Kəlisa - kilsə
[2] Müstəfid - istifadə etmək

ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

(1865-1934)

Əlimərdan bəy Topçubaşov Tiflisdə anadan olmuşdur. İlk təhsilini Tiflis gimnaziyasında almış, sonra Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Ali təhsil həyatından sonra məhkəmə sistemində, vəkil kimi çalışmış, həmçinin Tiflis Aqrar Məktəbində müəllim kimi fəaliyyət göstərmişdir.

Xeyriyyəçi-milyonçu Hacı Zeynalabdın Tağıyevin dəvətilə o, 1897-1917-ci illərdə "Kaspi" qəzetinin baş redaktoru işləmiş, "Kaspi"ni vətənpərvərlik və milli hüquqlar tribunasına çevirmiş, mədəni islahatlar tələbi ilə çıxış etmişdir.

1905-ci ildə Qafqaz canişini Vorontsov-Daşkovla görüşündə Topçubaşov Qafqazda islahatlar aparılmasını, müsəlmanlar qarşısında qoyulan məhdudiyyətlərin aradan qaldırılmasını tələb etmiş, "Həyat" qəzetinin nəşrinə razılıq almışdır.

Rusiya Müsəlmanları İttifaqı Partiyasının sədri, Birinci Rusiya Dövlət Dumasının deputatı və müsəlman fraksiyasının sədri olan Ə.Topçubaşov bütün Rusiyada böyük nüfuz qazanmış, Rusiya müsəlmanlarının hüquqlarını müdafiə etmişdir. Ə.Topçubaşov 1905-1906-cı illərdə erməni-müsəlman qırğınlarının yatırılması üçün çox əmək sərf etmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra o, xarici işlər naziri və sonra parlamentin sədri kimi fəaliyyət göstərmişdir. Paris sülh konfransında nümayəndə heyətinə rəhbərlik edən Ə.Topçubaşov bu konfransda Azərbaycan Xalq Cumhuriyyətini layiqincə təmsil etmişdir.

Təssüf ki, 1920-ci il də Azərbaycanın Sovetlər İttifaqı tərəfindən işğal edilməsindən sonra o, vətənə qayıda bilməmiş, qalan ömrünü mühacirətdə keçirmişdir. Bütün həyatı boyunca Azərbaycanın yenidən müstəqilliyə qovuşması üçün çalışan Ə.Topçubaşov 1934-cü ildə Parisdə vəfat etmişdir.

* * *

Hökumət, milliyətindən və dinindən asılı olmayaraq, əhalini bir olmağa çağırır.

* * *

...Bütün Qafqaz xalqları birlikdə yaşaya bilərlər.

* * *

Müsəlmanların ...siyasi, mülki və dini hüquq etibarilə, əslən rus əhalisi ilə bərabərliyə nail olacaqlarına əmniyyət və etimadımız bər-kamaldır.

* * *

Qafqaz müsəlman (şiə və sünni) ruhani idarələrinin öhdəsində bulunan Tiflisdəki hər iki məktəb bir məktəbi-aliyə çevrilib yenidən nizamlanmalı və islah edilməlidir.

* * *

...Ümumqafqaz üçün bir idareyi-məbusan (parlament) təsis etmək lazım gəlir. Həmin idarəyə Qafqazda yaşayan millətlərin nümayəndələri cəm olub, ümumqafqazın ehtiyaclarını müzakirə və müçahidə edə biləcəklər.

HAŞIM BƏY VƏZİROV

(1868-1916)

Haşım bəy Vəzirov Şəki şəhərində anadan olmuşdur. O, mollaxanada və şəhər məktəbində təhsil almış, sonra İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. Haşım bəy ilk qələm təcrübəsinə tələbə ikən başlayıb, "Məktəb tərbiyəsi", "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil" əsərlərini yazıb. İrəvanda, Şuşada ana dilindən (türk dilində) dərs deyib. Bu zamanlar "Kaspi", "İrşad" qəzetlərində məqalələr çap etdirib, bir müddət "İrşad"ın məsul redaktoru olub. O, Şekspirin "Otello" faciəsini və bəzi başqa əsərləri rus dilindən Azərbaycan dilinə tərcümə edib, Vaqifin şeir məcmuəsini nəşr etdirib.

H.Vəzirov Azərbaycan mətbuatında 1905-ci ildən 1916-cı ilə qədər fəal iştirak etmiş, mətbuatın inkişafına, formalaşmasına çox əmək sərf etmişdir. O, XX əsr Azərbaycan mətbuatının inkişafı tarixində daha çox "Keyfim gələndə" başlığı ilə yazıb-yaradan istedadlı jurnalist, vətənpərvər publisist kimi yaddaşlarda qalmışdır. Bakıda görkəmli xeyriyyəçi H.Z.Tağıyev tərəfindən nəşr edilən və Haşım bəy Vəzirovun redaktor olduğu "Tazə həyat" qəzeti, 1907-1908-ci illərdə müsəlman ruhaniliyinin müdafiəçisinə çevrilmişdi. "Tazə həyat"ın qarşısına qoyduğu vacib məsələlərdən ən başlıca vəzifə müsəlmanları düşdükləri faciəli vəziyyətdən çıxarmağa xidmət etməkdən ibarət idi.

Haşım bəy Vəzirov "İttifaq", "Səda", "Sədayi-həqq", "Sədayi-vətən", rus dilində "Kafkazest" və sair qəzetləri nəşr etdirib. 1914-1915-ci illərdə o, "Məzəli" adlı satirik jurnala rəhbərlik edib. Məzəli"də köhnəpərəstlər, avamlar, maarif və mədəniyyət düşmənləri, rüşvətxorlar, yalançı ruhanilər şiddətlə tənqid olunurdular. Onun "Döymə qapımı, döyərlər qapını" və s. komediyaları çox məşhurdur.

Haşım bəyə görə, İslam dini həm dəyişilməyir, həm də hər bir tərəqqi və irəli getməklə düz gəlir. Onun fikrincə, hazırda müsəlman aləminin geriliyinin günahkarı İslam deyil, əksər müsəlmanların avamlığı, cahilliyi, fanatikliyi və xurafatçılığıdır. H.Vəzirovun fikrincə, müsəlman aləminin bu günə düşməsində ikiüzlü din xadimləri günahkardır.

* * *

Biz hamı millətlərin, hamı insanların kamal həddinə yetişməyinin və onlarla birlikdə öz millətimizin xoşbəxtliyinin tərəfdarıyıq. Biz öz millətpərəstliyimizi əsil yenipərəstlik, insanpərəstlikdə binalandırırıq.

* * *

Nadanlığa, cəhalətə, bielmlik (elmsizlik) və savadsızlığa qaranlıq demək caiz.

* * *

Bir şeydən ki, mənə qəpik nəf (fayda) yox, amma külli ziyan və əzmilik və nalayiqliq var, onun işlənməsi şəriətin hökmü o yana dursun, mənim öz nəfsimin yanında da qəbih (pis) əməldir.

* * *

Bizim müsəlmanlar bu halda hamı millətlərdən, hamı insanlardan artıq məzlumdur. Ona görə də biz ...məzlumluğun ən təhlükəli dərəcəsinə çatmış millətə hələlikdə ancaq bir tək buna xidmət etməyi, qayğıkeş olmağı özümüzə fərz bilirik.

* * *

Məkkə kimi bir kənar və balaca yerdən ucalan mövhud (tövhid) kəlməsinə Çindən, Hinddən, Çava Çəzirəsindən, Qafqazın qarlı-buzlu dağlarından, Sibiryanın donmuş torpağından, Misirdən, Avropanın Alp dağlarının ətəklərindən ləbbeyk (əmr edin!) səsi gəliyor.

CƏLİL MƏMMƏDQULUZADƏ

(1869-1932)

Cəlil Məmmədquluzadə Naxçıvanda dünyaya göz açmışdır. Azərbaycanın böyük yazıçısı, jurnalisti, maarifçisi və ictimai xadimi Cəlil Məmmədquluzadə əvvəlcə mollaxanada, sonra isə Naxçıvan şəhər məktəbində və Qori müəllimlər seminariyasnda təhsil almış və bir müddət pedaqoji, hüquqi-inzibati işlərlə məşğul olmuşdur.

1902-ci ildən İrəvanda publisistik fəaliyyətə başlayan mütəfəkkir, "Kaspi" qəzetində "İrəvan" və "İrəvan müxbirimizdən" başlığı altında ilk yazılarını dərc etdirir. 1903-cü ildə Tiflisdə M.Şahtaxtlı ilə görüşür, ondan "Şərqi-Rus" qəzetində əməkdaşlıq təklifi alır və bir müddət bu qəzetin (1903-1905) əməkdaşı, sonra müvəqqəti redaktoru kimi fəaliyyət göstərir.

C.Məmmədquluzadə 1906-cı ildə Ömər Faiq Nemanzadə ilə birlikdə ilk Azərbaycandilli satira jurnalı olan "Molla Nəsrəddin"in əsasını qoyur, jurnalın redaktoru, naşiri və fəal müəllifi olur. Həmin vaxtdan o, Molla Nəsrəddin adı ilə tanınır. Jurnalın nəşri C.Məmmədquluzadə ilə Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə və başqa yazıçı və jurnalistlər arasında möhkəm ideya-yaradıcılıq əlaqəsi yaradır. C.Məmmədquluzadənin təbliğ etdiyi dərin demokratiya və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırır. Redaksiyaya çoxsaylı təbriklərlə yanaşı cahil, nadan şəxslərdən təhqir yazıları da gəlirdi.

Redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının səhifələrində o, dini fanatizmə, cəhalətə qarşı mübarizə aparır, dünya xalqlarının tərəqqipərvər xüsusiyyətlərini mənimsəməyə çağırırdı. Jurnalda təkcə Azərbaycan haqqında deyil, eyni zamanda Türkiyə, İran, digər İslam ölkələri, Avropa və Rusiya ilə bağlı materiallar da dərc olunurdu. Jurnalı bir çox türkdilli bölgələrdə də oxuyurdular.

Milli maarifçilik hərəkatına xidmət etmək C.Məmmədquluzadənin əsas ideyası idi. O, istismarçıları, xurafatçıları ifşa edən bir hakim, müsəlmanların yaralarını müalicəyə çalışan bir həkim idi. Onun "Anamın kitabı", "Ölülər", "Dəli yığıncağı" və sair əsərlərində bu, açıq-aydın görünür.

C.Məmmədquluzadə Rusiyada və şərq ölkələrində hökm sürən istibdad, xurafat və cəhaləti tənqid edir, məzlum xalqların milli azadlıq hərəkatından yazırdı. O, Çar Rusiyasının müstəbid mahiyyətini göstərib aydın yazırdı ki, Çar Rusiyasının dövlət xadimləri yad və istismarçı zümrədən olduqlarına görə heç zaman məzlumları müdafiə etmirlər və müsəlman xalqlarını istismar edir, assimilyasiyaya uğradırlar. Ədib dönə-dönə deyirdi ki, vətən qardaşlarımıza "düşmənlərini tanıtmaq" və onları bu düşmənlərlə mübarizəyə hazırlamaq onun borcudur.

O, Rusiya işğalını pisləsə də, əsərlərində Qoqol kimi rus yazıçılarından ehtiramla bəhs edirdi. Ədib qeyri-rusların din azadlığını müdafiə edir, "Molla Nəsrəddin"də "Vətən məhəbbəti" başlığı ilə yazırdı: gürcü milləti çar hökuməti qarşısında məsələ qaldırıb ki, "biz istəmirik ruhani rəisimizi Rusiya hökuməti təyin eləsin". Mütəfəkkirin "Er-

məni və müsəlman övrətləri" felyetonunda isə millətlərin bərabərliyi ideyası tərənnüm olunurdu. Onun "Usta Zeynal", "Kamança" əsərlərində də ermənilərlə azərbaycanlıların qonşuluq münasibətləri təsvir olunmuşdur[1].

1905-1911-ci illər İran məşrutə inqilabı, onun rəhbərləri Səttarxan və Bağırxan "Molla Nəsrəddin" jurnalının, xüsusilə C.Məmmədquluzadənin ən əsas mövzuları sırasında idi və böyük mütəfəkkir onları dəstəkləyirdi.

"Molla Nəsrəddin"in nömrələrində İran həyatının nöqsan və eyiblərinə dair yazılar, karikaturalar və sair dərc edilirdi.Jurnala rəsmləri İranın tanınmış rəssamı, İtaliyada təhsil almış Behzad çəkirdi. İranın demokratik mətbuatı öz yazılarında İran məşrutə inqilabının Səttarxan və başqa məşhur xadimləriylə yanaşı C.Məmmədquluzadənin də yaradıcılığına və onun İran inqilabındakı roluna geniş yer verirdi.

Sovet Rusiyasının Azərbaycanı işğalından sonra bir müddət İranda fəaliyyətini davam etdirən C.Məmmədquluzadə daha sonra Bakıda jurnalın fəaliyyətini davam etdirmişdir. Lakin böyük ədibə burada yenə təzyiqlər olmuş, aldığı mənəvi zərbələrdən ən böyüyü isə 1931-ci ildə "Molla Nəsrəddin" jurnalının "Allahsız" adı altında nəşr edilməsi olmuşdur.

C.Məmmədquluzadə bütün həyatını Azərbaycana xidmətə həsr etmişdir. Onun yaradıcılığının əsas mövzusu vətən, xalq və onun xoşbəxtliyidir. Milliliklə yanaşı multikultural, tolerant düşüncələr də onun yaradıcılığının əsas

[1] Müqayisə üçün bax. *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları,* s. 197-199. *Elmi redaktor*

qayəsidir və "Böyük demokrat"ın dahiliyi də məhz milliliklə multikulturallığı vəhdətdə görməsi, xalqların qardaşlığını tərənnüm etməsidir.

* * *

Mənim sözüm budur ki, ümumiyyətlə heç bir millətin barəsində demək olmaz ki, filan millətin övrətləri bietibar və ismətsizdir, ya flan tayfanın övrətləri vəfalı və həyalıdır.

* * *

Əgər müsəlman övrətləri gözlərini açıb qəflət yuxusundan oyansalar, ...yəhudilərə, bütpərəstlərə, yaponlara... övrət olmağı rəva görərlər.

* * *

...Neçə yüz il bundan irəli ingilisdə baş verən "məşrutə" Avropa məmləkətlərini dolana-dolana indi gəlib düşüb biz müsəlmanların içinə... İstəyirik biz də buna sahib olaq.

* * *

Bu gürcü milləti çox sırtıqdır. Hələ özgə işləri qalsın kənarda, indi də başlayıblar ki, biz istəmirik ruhani rəisimizi Rusiya hökuməti təyin eləsin, necə ki, indiyə kimi eləyir. Biz öz işlərimizi özümüz idarə eləmək istəyirik. ...Vaqeən gürcü milləti çox sırtıq millətdir.

* * *

Bu günlərclə İranda istibdad ilə ədalət bərk çarpışır. Yekə bir millətin dini, namusu, hüququ, vətəni təhlükədədir... Bu

gün Kərbəla meydanı - Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır!,. Bu gün ən boyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir... Bu gün Kərbala meydanı – Azərbaycan meydanıdır.

ƏHMƏD BƏY AĞAOĞLU

(1869-1939)

Əhməd bəy Ağaoğlu Şuşada anadan olmuşdur. O, XIX əsrin sonu – XX əsrin əvvəllərində, təkcə övladı olduğu Azərbaycan xalqının deyil, bütün türk-islam dünyasının ədəbi-mədəni və ictimai-siyasi fikir tarixində diqqətəlayiq yer tutan görkəmli şəxsiyyətlərdən biridir. Ə. Ağaoğlu böyük türk dünyası, ilk növbədə Azərbaycan və Türkiyə üçün gördüyü cahanşümul işlər, qoyub getdiyi zəngin elmi, ictimai-fəlsəfi və siyasi irsi ilə ciddi intellektuallardan biri kimi tarixə öz möhrünü vurmuşdur.

1888-ci ildə Parisə gedən Əhməd bəy burada məşhur fransız şərqşünasları Ernest Renan və professor Ceyms Darmestete ilə tanış olur. Əhməd bəy bu illərdə Sankt-Peterburq və Parisin məşhur Sorbonna universitetlərində təhsil alır. Beş dilə mükəmməl şəkildə yiyələnən Əhməd bəy, o zaman həm yerli, həm də əcnəbi mətbuatda maraqlı məqalələrlə çıxış etməyə başlayır.

Ə.Ağaoğlu öz yaradıcılığında milli tərəqqiyə, türk xalqlarının inkişafına, dünya mədəniyyətindən yararlanmağın zəruriliyi kimi, çox önəmli məsələlərə diqqət yetirmişdir. Ümumiyyətlə, Ə.Ağaoğlu milliyyətçi kimi tanınsa da o, heç bir vaxt əsla şovinist mövqedən çıxış etməmişdir.

Bir mütəfəkkir olaraq Ə.Ağaoğlu dünya ədəbiyyatını, xüsusən rus ədəbiyyatını tədqiq etmiş, "Rus ədə-

biyyatının ümumi səciyyələri" əsərində rus mədəniyyətinin inkişaf səbəbini rus qadınında görmüşdür.

1901-ci ildə Tiflisdə rus dilində çapdan çıxan "İslam dünyasında qadın" adlı kitabında "azad qadınsız milli inkişaf ola bilməz" fikrini sübuta yetirir. Ə.Ağaoğlu "Üç Mədəniyyət" adlı mühüm əsərində də İslamın irqçiliyə deyil, milliyyətçiliyə yönəlik olduğunu, mədəni inkişafa qarşı olmadığını və nəhayət Qərb mədəniyyətinin nailiyyətlərindən istifadə etmənin vacib olduğunu ictimai-fəlsəfi və dini arqumentlərlə əsaslandırır. Ə. Ağaoğlu bu əsərində üç həyat tərzi və ya üç mədəniyyətin var olduğunu və bunların bir-birindən tamamilə ayrılmadığını vurğulayır. Bu mədəniyyətlər Budda-Brahma, Qərb-Avropa və İslam mədəniyyələridir. Onun bu əsərinin əsas ideya xətti isə Qərb mədəniyyətinin nöqsansız şəkildə qəbul olunmasına istinad edir.

Dini xurafat və mövhumata qarşı mübarizə aparan Ə.Ağaoğlu İslam həmrəyliyi sahəsində də aktiv iştirak edir, Ə.Topçubaşov, Ə.Hüseynzadə və qazı əl-Bakuvi ilə birlikdə 1906-cı ildə məzhəblərarası yaxınlaşmanı təmin etmək üçün Bakıda yaradılmış xüsusi komissiyanın işində fəal iştirak edir. O, babiliyin İrandakı dini islahatçılıq roluna diqqət çəkir, qadın azadlığının carçısı, qəzvinli şəhid şairə Zərrintac Tahirə xanımı nümunə göstərərək, onun mətanət və əzmini mədh edirdi.

Ə.Ağaoğlu insanların xurafat və mövhumat əhatəsində deyil, hüquqi, azad, multikultural və tolerant mühitdə formalaşmalarını istəyirdi.

Ə.Ağaoğlu Azərbaycan Xalq Cumhuriyyətinin ilk iclasında parlamentin üzvü seçilir və Paris sülh konfran-

sında Azərbaycan nümayəndə heyətinin tərkibinə qatılır. Malta sürgünündən sonra vətənə qayıda bilməyən Ə.Ağaoğlu Türkiyəyə gedir və Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilir. Bir müddət İstanbul Universitetində müəllimlik edən Ə.Ağaoğlu 1939-cu ildə vəfat etmişdir.

* * *

Çoxlarının dediyi kimi, müsəlman və türkçü olmaqdan qorxmaq lazım deyil. Çünki Allah müsəlmançılıqla qövmləri yanaşı yaradıb ki, insanlar bir-birilərini daha yaxından tanısınlar.

* * *

...Deyəsən biz də, nəhayət ki, başa düşdük ki, həyat yuxu və mürgüdə deyil, enerjidədir, həyatın sorğularına, insan təbiətinin əqli və ənənəvi inkişafının tələblərinə qərəzsiz hazır olmaqdadır... Bu, müsəlmanların bütün xahişlərinin məhək daşıdır. Onlar uzun, əsrlik təcrübəyə əsasən bilirlər ki, unudulmaq, kənarda qoyulmaq nə deməkdir.

* * *

Ümumiyyətlə, öz tarixi ənənəsi, çoxəsrlik tarixi, öz dini və ədəbiyyatı olan hər bir xalq, başqa bir xalqla təmasda olduqda onun maddi və mənəvi təsirinə məruz qalır. Keçmiş ənənələr, qədim dinlərlə yeniləri arasında şiddətli mübarizə başlayır və bu ideyalar və ənənələr mübarizəsinin nəticəsində keçmişlə indi arasında orta bir səviyyə alınır, iki dinin, bir növ, birləşməsi yaranır. Burada müasirlik, öz varlığını itirmədən, keçmişlə uyğunlaşır və ondan götürə biləcəklərini götürür.

* * *

O cümlədən deyirdilər ki, guya Quranı qeyri dilə tərcümə etmək olmaz, onu oxuyan gərək qiraət bilsin və guya Quranın sözlərini və mətalibini anlamaq mümkün deyil və qeyr-qeyr əcib və qərib şərtlər və sözlər. Və halonki, İslamın ən parlaq və ən müqtədir zamanlarında rüəsayi-din[1] özləri Quranı qeyri dillərə tərcümə edirdilər ki, bu vəsilə ilə dini-Əhməd müntəşir[2] olub, məaliyi-İslam[3] qəlblərdə cay-giri olsun. O cümlədən, fars dilinə, çin, hind, tatar və özbək dillərinə tərcümə etdilər.

* * *

Məsələn. Sizi inandırıram ki, mən içimdə çox səmimi və qızğın milliyyətpərvərəm. Türkün yüksəlməsi üçün çalışmaq, onun izzətinəfsini, şərəfini, haqqını, hürriyyətini müdafiə üçün özümü təhlükəyə atmaq fikrini sevinclə qəbul edirəm. Hələ fəqir və ac türk gördümmü, heç dayana bilmirəm. İstəyirəm ki, varımı-yoxumu ona verim.

* * *

Qərb cəmiyyətinin Şərq cəmiyyətindən qüvvətli olduğu aydındır. İndi bunları bir də altuizm baxımından yan- yana gətirin. Qərbdə altruizm elə hallar almışdır ki, bu Şərqin təsəvvürünə belə gəlməz. Şərqdə bəzən bir şəxs milyonlar içində yaşadığı halda, Afrikanın çöllərində qalıbmış kimi təkbaşına buraxılır. Xəstələri, acları, evsizləri düşünmür, vecinə almır. Hələ yoxsul və işsiz yaşlıların qayğısına qalmaq, əlillərin fik-

---

[1] rüəsayi-din - din alimləri
[2] Müntəşir - yayılıb
[3] Məaliyi-İslam - İslami dəyərlər

rini çəkmək kimsənin ağlına belə gəlmir. Qərbdə isə belə deyil. Hər kəsin haqqında düşünülür və nəticədə unudulan bir kimsə qalmır. Qərb cəmiyyəti bütün bunları vətəndaşlarının izzəti-nəfslərini incidən və təhqir edən mərhəmət şəklində deyil, onların qarşısında bir borc və vəzifə kimi yerinə yetirir. Bir qədər də qabağa gedin. Qərbdə hər kəs hər kəsin haqqının, şərəfinin, izzəti-nəfsinin qoruyucusu, zamini olur. Bu mənada zəifin yardımına getmək, güclünün və təcavüzkarın qarşısını kəsmək vətəndaşlıq vəzifəsi sayılır. Şərqdə isə hər kəs "Mənə nə?", "Nə işimə qalıb ki, gedib başımı bəlaya salım?" – deyə dərhal öz qınına çəkilir.

* * *

...Rus ədəbiyyatı bu gün cahanşümul bir əhəmiyyət və qiymət əldə eyləmişdir... Xülasə, Rus ədəbiyyatı beynəlmiləl mənəvi bir amil mahiyyəti almış...

* * *

Rus qadınlığının ...isimləri Avropada belə hörmətlə yad olunan alimlər, mühərrirlər, ədiblər və inqilabçılar yetişdirə bilməsi, həqiqətən tarixdə misli az görünmüş bir hadisədir.

NƏRİMAN NƏRİMANOV

(1870-1925)

Azərbaycan xalqının yetişdirdiyi böyük yazıçı, və ictimai-siyasi dövlət xadimlərindən biri olan Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov Tiflisdə doğulmuşdur. O, həyatı boyu yüksək vəzifələrdə işləmiş, müəllimlikdən başlayaraq SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifəsinə qədər yüksəlmişdir. Azərbaycanın müsəlman Şərqində nail olduğu bir çox ilklər, o cümlədən ilk konstitusiyanın qəbul edilməsi onun adıyla bağlıdır. N.Nərimanov bir maarifpərvər və dramaturq-yazıçı kimi Azərbaycan tarixində mühüm rol oynamış, Azərbaycanda ilk qiraətxana açmışdır. Ədəbiyyat sahəsində Azərbaycan milli romanının – "Bahadır və Sona" və ilk tarixi faciə olan "Nadir şah" əsərlərinin müəllifidir. N.Nərimanov bölgədə daim sülhün və əmin-amanlığın tərəfdarı olmuş, bütün qonşu respublikalarla dostluq münasibəti saxlamağa çalışmışdır. O, Türkiyədəki Qurtuluş Savaşında verilən mücadilədə Türkiyə hökumətinə böyük dəstək vermişdir. N.Nərimanov daima öz xalqının milli-mənəvi dəyərlərinə xüsusi əhəmiyyət vermişdir.

N.Nərimanov 1899-cu ildə yazdığı "Nadir şah" faciəsində əsərin baş qəhrəmanının dili ilə "İncil"in Azərbaycan dilinə tərcüməsinin, eləcə də başqa dinlərin tədqiq edilib öyrənilməsinin vacibliyini vurğulamışdır.

Bundan başqa "Bahadır və Sona" əsərində Nərimanov xalqlararası münasibətlərin düzgün qurulması və tənzimlənməsinə öz töhfəsini vermək məqsədi ilə müsəlman gənc ilə xristian qızını bir-birlərinə aşiq etdirir. Əsərdə onların sevgisinə cəmiyyətdə dini mövhumat və xurafatı yayan dindar insanların mane olmağa çalışdığı göstərilir. Amma, yenə də dini mövhumat və xurafat sevginin, dostluğun önünə keçə bilmir. Müəllif humanist fəlsəfənin əsl nümayəndəsi kimi çıxış edərək dinin və etnik fərqliliyin əslində bəzi ülvi hisslərin qarşısında aciz olduğunu sübut edir. O, göstərir ki, insan olmaq hər şeyin fövqündə olan bir məqsəddir[1]. "Bahadır və Sona" romanında müəllif Bahadır obrazının dili ilə müsəlmanların geridə qalma səbəbini İslamın özündə yox, cahil və nadan müsəlman rəhbərlərində olduğunu qeyd etmişdir.

N.Nərimanov mollaların dinə zərər verməməsi üçün, "islam qüvvətlənsin, millət ayılsın, vətən tərəqqi etsin" deyə bütün həyatı boyu mübarizə aparmış, bir-biri ilə düşmənçilik edən iki məzhəbi – sünnilik və şiəliyi barışdırmağa çalışan Nadir şah haqqında pyes yazmışdır.

* * *

Paşam, Türk millətində bir ənənə vardır, qardaş qardaşa borc verməz, qardaş hər durumda qardaşının əlindən tutar.

* * *

Gərək İncil bizim dilə tərcümə oluna....

[1] Müqayisə üçün bax. "*Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları*"(səh. 200-203). *Elmi redaktor.*

* * *

Mən Bahadırı sevirəm... mən insan, o, insan. Bizi ölümdən savayı hansı bir qüvvə ayıra bilər?

* * *

İslam həqiqət, tərəqqiyə, yəni elmə düşmən olsa idi, ərəblər islamı qəbul edəndən sonra bir zaman tərəqqi yolunda olmazdılar.

* * *

İki məzhəbin birləşməyi həqiqət gözəl, yaxşı bir fikirdir. Çünki ədavət bilmərrə ortalıqdan götürülər, mədəniyyət artar, hər iki millət qüvvətlənər.

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

(1870-1933)

Azərbaycanın görkəmli dramaturq, nasir və publisisti olan Əbdürrəhim bəy Haqverdiyev Şuşa şəhərinin yaxınlığındakı Ağbulaq kəndində anadan olmuşdur.

O, Şuşada müvəqqəti yay məktəbində oxuduğu illərdə rus dilini öyrənir, rus yazıçılarını həvəslə oxuyur. Sonrakı illərdə Ə.Haqverdiyev Şuşa realnı məktəbində, Tiflis realnı məktəbində təhsil alır. Burada rus və Avropa klassiklərini dərindən öyrənir. 1891-ci ildə Tiflis realnı məktəbini bitirib, ali təhsil almaq üçün Peterburqa gedir. Orada Yol Mühəndisləri İnstitutunda və Peterburq Universitetinin şərq fakültəsində də təhsil alaraq, dil və ədəbiyyat məsələlərilə ciddi məşğul olur, Aleksandrinsk dram teatrının parlaq simalarından olan Savina, Komissarjevskaya, Pisarev, Davıdov, Varlamov, Dalski, Dalmatovla şəxsən ünsiyyət qurur.

Ə.Haqverdiyev 1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyası üzrə nümayəndə seçilir və Peterburqda qalır, "Ağa Məhəmməd şah Qacar" faciəsini yazmaq üçün dövlət kitabxanasında çalışır və əlavə məlumat toplamaq üçün İrana səyahət edir. Ədib "Ağa Məhəmməd şah Qacar" pyesində gürcülərə açıq rəğbətini bildirərək, əsərdə İkinci İrakli, Yuhan, Tavad Orbeliani, Tavad Çavçavadze kimi müsbət surətlər yaratmışıdır. Faciə ilk dəfə 1907-ci ildə Bakıda səhnəyə qoyulmuş və uzun zaman oynanılmışdır.

Ə.Haqverdiyev "Nicat" cəmiyyətində və Kür-Araz gəmiçiliyində işlədiyi müddətdə, vəzifəsi ilə əlaqədar olaraq İranı, Qafqazı, Orta Asiyanı və Volqaboyu ölkələrini gəzir. Səyahət ədibdə yeni yaradıcılıq mövzuları yaranmasına səbəb olur. Ə.Haqverdiyev 1917-ci ildə Borçalı mahalında müvəkkil işləyərkən burada ermənilər və müsəlmanlar arasında milli qırğının qarşısını almağa nail olmuşdur. Multikultural ruha malik olan böyük ədibin A.Çexov, M.Qorki və Sundukyandan da tərcümələri vardır[1]. Ə. Haqverdiyev yaradıcılığının əsas mövzularından biri mövhumatın tənqididir. Yalançı dindarların, zalım məmurların tənqid edildiyi "Cəhənnəm məktubları", "Pir", "Seyidlər ocağı", "Vaveyla" və s. əsərləri bu nöqteyi-nəzərdən təsirlidir. "Kamran" əsərində Bakı neft mədənlərində çalşan İran fəhlələrinin acı həyatı, "Qadınlar bayramı" əsərində qadın haqları mövzusu təsvir edilir. Ümumiyyətlə, Haqverdiyevin yaradıcılığı xalqlar dostluğu və multikultural dəyərlər baxımından zəngindir.

* * *

…Maksim Qorki Rusiyada möhkəm bir ad qazanmış ədib idi.

* * *

…Rusiya işçisinə müraciətən deyir: "Yoldaş! Bil və inan ki, dünyada ən lazım bir vücudsan. Öz xırdaca işini görərək, sən həqiqətdə təzə bir dünya yaradırsan.

[1] Ətraflı məlumat üçün bax. *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları* (s. 204-206). *Elmi redaktor.*

* * *

Yevropa və Rusiyada zahir olan məşhur teatro ədiblərinin hamısının əsərlərini oxumuş və başımın tükü sanı təsnifat teatrlarda görmüşəm.

* * *

Mirzə Fətəli Axundov Avropa mədəniyyətinin qızğın tərəfdarı olduğu üçün, həmişə öz vətəndaşlarını bu mədəniyyətə qovuşdurmaq arzusu ilə yaşayırdı. O yazmışdır: "Kim mədəniyyətin və sivilizasiyanın tərəfdarıdırsa – mən onun quluyam; kim mədəniyyətin və sivilizasiyasının əleyhinədirsə – mən ondan uzağam.

* * *

Bizim məktəbimiz beynəlmiləldir, amma biz dərsi hər millətə öz ana dilində veririk. Türklərə türk dilində, ruslara rus dilində, ermənilərə həmçinin öz ana dillərində".

* * *

Əlbəttə, millətlər qardaşcasına dolansalar, heç müharibə də olmaz. Hər yerdə qurd qoyunla bir yerdə otlar.

* * *

İranda Hürmüzd və Əhrimən adında iki allah ki, biri zülmət və biri nur allahıdır, həmişə mübarizədədirlər və əqidələrinə görə də mübarizənin axırında Hürmüzd Əhriməna qalib gələcək və həmişəlik yer üzündə nurisəltənət edəcəkdir. ...Bir Allaha sitayiş etməyi qəbul etdikdən sonra yenə bu iki əsas qüvvənin varlığını başlarından çıxara bilmədilər. O di ki, qaranlıq və zülmət əvəzinə Allah və şeytan məsələsini ortalığa atdılar və bu iki qüvvə islam, xaçpərəst, yəhudi camaatları arasında indi də vaqedir.

AXUND AĞA ƏLİZADƏ

(1870-1954)

Azərbaycan Xalq Cumhuriyyəti dövründə Pişnamazzadədən sonra Şeyxülislam vəzifəsinə seçilən Axund Ağa Hacı Cavad oğlu Əlizadə Azərbaycanın görkəmli maarifçi din xadimlərindən biri olmuşdur. Bakıda, tanınmış ruhani ailəsində anadan olan A.Əlizadə İçərişəhərin Sınıqqala adı ilə məşhur olan Məhəmməd məscidinin nəzdindəki Qüdsi mədrəsəsində orta dini təhsil almış, dini elmlərlə yanaşı humanitar və texniki elmləri, tibb elmini də öyrənmişdir. A.Əlizadə ali dini təhsilini Bağdad Universitetinin ilahiyyat fakultəsində almış, bu təhsillə kifayətlənməyərək Nəcəfdəki Ali Dini Universitetdə təhsilinə davam etmişdir. 1896-cı ildə təhslini başa vurub axund adını qazanan A.Əlizadə, vətənə geri dönmüş, İçərişəhər məscidlərində din xadimi kimi fəaliyyət göstərmişdir.

1903-cü ildən Təzəpir məscidinin axundu olan A.Əlizadə 1904-cü ildə Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin üzvü seçilmiş, 1907-ci ildə təşkil edilən "Səadət" Müsəlman Ruhani Cəmiyyətinin sədri olmuşdur. Cəmiyyətin nizamnaməsinə görə onun məqsədi "Bakı şəhərində vaqe olan mədrəsələri üsuli-cədid (yeni üsul) üzrə nizama salmaq; müqtəzai-zəmanə (zamanın şərtləri) görə tazə mədarisi-ruhaniyyə (dini məktəblər), darülmüəllimin (müəllimlər institutu) və sair məktəbi-aliyə (ali məktəb) təsis

və imarət etmək" idi. Cəmiyyətin nəzdindəki "Mədrəseyi-Səadət" məktəbinin direktoru isə Əli bəy Hüseynzadə idi. A.Əlizadənin rəhbərlik etdiyi cəmiyyət bir çox şəhər və kəndlərdə ana dilində məktəblər, kitabxanalar açmış, ehtiyacı olan həmvətənlərinə yardım göstərmişdir.

Xalq arasında böyük nüfuz sahibi olan Axund Ağa Əlizadə 1918-ci ilin iyununda əl-Bakuvidən sonra Bakı qazısı, dekabr ayında isə M.Pişnamazzadədən sonra şeyxülislam seçilmişdir. O, cümhuriyyət və müstəqillik ideyalarının, maarifçiliyin və İslam həmrəyliyinin də alovlu təbliğatçısı idi.

Axund Ağa Əlizadə maarifçi ideyaları ilə hətta sovet dövründə də xalqa çıraq olmuş, ömrünün sonuna qədər Şeyxülislam kimi fəaliyyət göstərmişdir. Onun məqalələrində ("Fitrə kimlərə verilməlidir?" və s.) yoxsullara, möhtaclara yardım etmənin islamın əsas fərzi olduğu qeyd edilir və Ramazan bayramı münasibətinə fitrə vermənin vacibliyi göstərilirdi. A.Əlizadə hətta qatı kommunizm hakimiyyəti dövründə də xalqı dini maarifçiliyə səsləmiş, bu yolda xidmət etmişdir.

* * *

Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar. Öz əqidə və fikrini şövqlə söyləmək və öz iradəsini ifadə etmək yalnız müstəqil ölkədə mümkündür. Müstəqil tədris ocaqlarında, orta və ali məktəblərdə ölkənin camaatının faydalana biləcəyi bütün biliklərə yiyələnmiş şüurlu adamlar yetişər. Allah-Təalanın buyurduqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində müvəffəqiyyətlə intişar etdirmək olar.

ÖMƏR FAİQ NEMANZADƏ

(1872-1937)

Mənşəcə məshəti türkü olan görkəmli publisist Ömər Faiq Nemanzadə 1872-ci ildə Ahıska (Axalsıx) qəzasında anadan olmuş, ilk təhsilini kənd məscidində almışdır. İstanbulda "Fateh" məktəbində oxuyan və daha sonra "Darüş-şəfəqə" məktəbindən məzun olan Nemanzadə İstanbulda, Qalata səmtində poçt və teleqraf idarəsində çalışmışdır.

Ömər Faiq 1894-cü ildə Azərbaycana qayıtmış, Şəkidə ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs demişdir. O, burada M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" pyesini səhnə üçün hazırlamış, Müsyö Jordan rolunda özü çıxış etmişdir.

1898-1900-cü illərdə Şəkidə, 1900-1902-ci illərdə Şamaxıda dərs deyən Nemanzadə 1903-cü ildən "Şərqi-Rus" qəzetində, 1906-cı ildən "Molla Nəsrəddin" jurnalında fəaliyyət göstərmişdir. Ömər Faiq o dövrdə çap edilən bir sıra qəzet və jurnallarda da ("Açıq söz", "Tərəqqi", "İrşad", "Həyat" və s.) çıxış etmişdir.

Ömər Faiq1917-1920-ci illərdə Ahıska bölgəsinin azadlığı uğrunda fəaliyyət göstərmişdir. Sovet hakimiyyəti dövründə o, Gürcüstanda "Zəhmətkeşlərin gözü", "Yeni fikir" kimi mətbu orqanlarının nəşri ilə məşğul olmuşdur.

1923-cü ildə Azərbaycana gələn və Azərbaycan SSR Xalq Maarif Komissarlığında çalışan Nemanzadə 1937-ci ildə Stalin repressiyasının qurbanı olmuşdur.

Ömər Faiq Nemanzadənin "Bizə hansı elmlər lazımdır?", "Dərdimiz və dərmanımız" və s. məqalələrində zənginləri xeyriyyəçiliyə təşviq və maarifçiliyi təbliğ, türk xalqlarını məzhəb və təriqətlərə bölünməməyə, vəhdətə dəvət əsas yer tutmuşdur.

* * *

...İnsani-kamil olmaq üçün şəriət elmini bilmək on dərəcə lazımsa, ülumi-əqliyyəni (əqli elmləri) bilmək doxsan dərəcə lazımdır.

* * *

Əgər Tağıyevin açdığı qız məktəbini görməsəydim Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim.

* * *

...Ey minlərcə ildən bəri məzhər, mehdi, qiamların köməyinə ümidvar olan səbirli İran! Heç ürəyini sıxma, vaxtın bu istisində, bu qızdırmalı halətində Şimaldan, Cənubdan sənə doğru sərin və xoş yellər əsməyə başlayır.... Azərbaycan havasını dalğalandırır, ləpələndirir. Daha bundan sonra arxayın ol!

* * *

Ey özündən xəbərsiz türk! Mədəniyyət əsərləri, nizam, idarə və asayiş üsulu "yasaq" qanunları hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən, sənin yurdunda var idi.

* * *

Qədim, xalis, mütəddiyyin (dindar), elmi-islamların vaxtilə vücuda gətirdikləri əsərləri avropalılardan tərcümə edilən kitablarda oxuyuruz... Bəli, biz də keçmiş islam mədəniyyətlərindən, indiki Avropa tərəqqisindən ibrət alırız.

* * *

Mətbuatı olmayan millətin mövcudiyyəti-istiqbalı qətiyyən yoxdur.

SÜLEYMAN SANİ AXUNDOV

(1875-1939)

Görkəmli yazıçı, dramaturq Süleyman Sani Axundov Şuşa şəhərində doğulmuşdur. Süleyman Sani 1885-ci ildə Qori müəllimlər seminariyasına daxil olaraq, burada azərbaycan, rus və dünya ədəbiyyatı ilə yaxından tanış olmuşdur. Buradakı təhsil illəri onun multikultural bir mütəfəkkir kimi yetişməsində böyük rol oynamışdır. 1894-cü ildə seminariyadan məzun olan Süleyman Sani Bakıdakı III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilmişdir. 1906-cı ildə Bakıda çağırılan müəllimlər qurultayında aktiv iştirak edən ziyalı, əlifba islahatı üçün də çalışmışdır. Sovet hakimiyyəti illərində maarif sahəsində aktiv fəaliyyət göstərmişdir.

Ədibin əsərləri multikultural ruhdadır, insanların ideya qardaşlığına əsaslanır. Məsələn, "Çərxi-fələk"pyesində istismarçı sinfə qarşı zəhmətkeşlərin din, millət fərqi olmadan həmrəyliyi, "Tamahkar", "Şahsənəm və Gülpəri", "Bir eşqin nəticəsi" əsərlərində qadın azadlığı, qadın hüquqları məsələsi əks olunur. "Şeytan" pyesində xalqlar arasında düşmənçilik yaradan qüvvələr lənətlənir, bütün insanların dinindən, irqindən, milliyyətindən asılı olmayaraq xoşbəxt yaşamaq haqqına malik olduğu vurğulanır. "Əşrəf" adlı hekayəsində xalqlar dostluğu, "Nə üçün?" hekayəsində 1905-ci il hadisələri zamanı bir rus ailəsinin faciəsi ürək ağrısı ilə təsvir edilir[1].

[1] Şairin ədəbi-bədi multikultural ideyaları üçün bax. "*Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları"* (səh. 215-225) *Elmi redaktor.*

Maarifpərvər ədib S.S.Axundovun əsərlərində, fəaliyyətində işıqlı fikirlərin, xeyirxah əməllərin təbliği əsasdır. Cəmiyyətdəki pislik və eybəcərliyə qarşı mübarizə onun həyat ideyasıdır. S.S.Axundovun bütün əsərlərində multikultural ruhun, qardaşlığın, işığın zülmə qələbə çalacağına inam təbliğ edilir. Ümumiyyətlə, yazıçının əsərlərinin məğzi multikultural dəyərlərin təməli olan insanpərvərliyin təbliği, milli, dini fərqlərin əhəmiyyətsiz olmasını sübut etməkdir.

* * *

Mənə iblis, mənə şeytan deyərlər. Erməni, gürcü, müsəlman qardaş olmuşlar? Ha, ha, ha. Rahat yaşayıb can deyib, can eşidirlər? Ha, ha, ha. …Mən onların içərilərinə elə bir fitnə salım ki, yenidən bir-birini atəşə yaxsın, çapsın, talasın, qırsın, oda atsınlar.

* * *

Yoldaş, bizim torpaq azadə bir yerdir. Hər kəs nəyə sitayiş edirsə etsin. Burada din, məzhəb üstə qovğa yoxdur, müsəlman, xristiyan, bütpərəst, atəşpərəst, hamısı insandır, bizə qardaşdır.

* * *

Haqq birdir əgər, bu müsəlman, bu xristian, bu yəhudi nə üçündür?

* * *

Elə olmasın ki, aramıza nifaq düşə, hərə bir tərəfə çəkə. Belə olursa, bişək və bişübhə bir nalayiqin biri seçilib, bizi cəmi Rusiyada rusvay edəcəkdir....

MƏHƏMMƏD HADİ

(1879-1920)

Məhəmməd Hadi Şamaxı şəhərində dünyaya göz açmışdır. Hadi atasını itirdikdən sonra yaxın qohumu Mustafa Lütfinin himayəsi altında yaşamış və ondan ərəb dilini öyrənmişdir. Mustafa Lütfi Məhəmməd Hadini Həştərxanda açdığı məktəbə müəllim kimi dəvət etmiş və Hadi bir müddət orada müəllim kimi fəaliyyət göstərmişdir.

Məhəmməd Hadi gənclik illərindən Şərq ədəbiyyatı ilə yanaşı, Qərb ictimai-fəlsəfi və bədii fikirinə xüsusi maraq göstərmiş, Hüqo, Şiller, Daniel Defo kimi ədib və mütəfəkkirlərin yaradıcılığı ilə yaxından tanış olmuşdur. Qeyd etmək lazımdır ki, Hadi Birinci Dünya müharibəsində də iştirak etmişdir. Bütün bunlar onun yaradıcılığına təsir etmiş və beləliklə, onun yaradıcılığında ictimai-fəlsəfi ağırlıq hiss edilməyə başlamışdır. Hadinin şeirləri o dövrün mətbu orqanlarından "Həyat", "Fyüzat" və "Bürhani-tərəqqi" kimi qəzetlərdə nəşr edilirdi. İnsanları sevgiyə, birlik və bərabərliyə səsləyən bir çox məqamlar vardır ki, bu tendensiyanı Hadinin bütün yaradıcılığında izləmək mümkündür. O, zülmün və sinfi bərəbərsizliyin, yada baş əyməyin, müstəmləkə köləliyinin səbəbini – milli, dini, mənəvi, mədəni və elmi cəhalətdə görürdü. M. Hadiyə görə elmsizliyin səbəbi "elmi-əbdan"ı, yəni dünyəvi elmləri, dünyanı rədd etməkdir. O, "Biz nə haldayız"

şerində cahil müsəlmanları tənqid edir, "Elmi-əbdan", "Dövri-mədəniyyət" məqalələrində dünyəvi elmlərin də ən az dini elmlər qədər vacib olduğunu göstərirdi.

* * *

Evləri zəlzələyi-müdhişədən xərab olduğu kimi, qəlbləri də zəlzələyi-xanimansuzi-cəhalətdən xərab və bərdad olmuşdur. Asari-mədəniyyətin naqili[1]-yeganəsi olan dəmiryol, o zənciri-mədəniyyət, o silsileyi-hürriyyətdən azad qalmış bu zavallı məmləkətin çərxi-tərəqqisi tətili-hərəkət edib, dayanıbdır.

* * *

Qırx illik sərmayeyi-həyatını heyvanları tətəbbö[2] və tədqiq etməklə keçirən məşhur və hörmətə layiq bir simayi-hikmətin, ingilis filosofu Darvinin kəşfə müvəffəq olduğu bir həqiqət kitabi-həyatın hər yarpağında oxunur.

* * *

"Kəşf" sözü gələndə Amerika qitəsinin kaşifi-həqiqisi bulunan Kristof Kolumbu dərxatir etməmək əldən gəlmir. Ümid və əməlin timsali-mücəssiməsi olan şu dahi ürəyində bəslədiyi bir ümidi-cəhan-pəsəndanə ilə milyon sənələrdən bəri pərdeyi-xəfada[3] qalmış bir qitəyi kəşfə müvəffəq olaraq əski dünyamıza təzə bir dünya – "yeni dünya" bəxş və əlavə eylədi.

---

[1] Asari-mədəniyyətin naqili - mədəniyyət izlərinin daşıyıcısı
[2] Tətəbbö - müşahidə etmək
[3] Pərdeyi-xəfada - gizlində

* * *

Beşikdən qəbrədək təhsil edək adabü ürfani,
Əgər Çin ölkəsində olsa cuyəndə olaq elmi.

* * *

Cəhalətdir əsası zülmi cövri xanimansuzun,
Maarif olsa, zülmün məhv olur, əlbəttə bünyani.

* * *

Nə sünni-şiə var Quranımızda,
Üxuvvət[1] ləfzi var Fürqanımızda[2].

* * *

Hifz eyləyin kəraməti-əbnayi[3]-Adəmi,
Dəfn eyləyin məzari-ədəmdə ədavəti.

* * *

Hansı Musa görmədi zülmü sitəm fir`ondan,
Varmı bir İsayi-canbəxşa ki, bərdar olmasın?

* * *

Ey bəsa Sokrat kim, nuş etdi zəhrabi məmat[4],
Hansı hikmət pərvərandır dəhrdə[5] xar olmasın?

---

[1] Üxuvvət - qardaşlıq
[2] Fürqan - Quranın digər adı
[3] Əbna - peyğəmbərlər
[4] Zəhrabi məmat - ölüm suyu
[5] Dəhr - zaman

ABDULLA ŞAİQ

(1881-1959)

Görkəmli ədib, yazıçı, şair, ədəbiyyatşünas alim və dramaturq Abdulla Şaiq Talıbzadə Borçalı qəzasında ruhani ailəsində dünyaya gəlib. O, əvvəlcə altısinifli şəhər müsəlman məktəbində oxumuş, sonra yeddi il Xorasanda mükəmməl təhsil almışdır. O, şərq və rus ədəbiyyatının mükəmməl bilicisi idi. 1901-ci ildə Bakıya gələn Şaiq burada bir rus ziyalısının böyük kitabxanasını alır. A.Şaiq milli intibah, milli dirçəliş tərəfdarıydı, "Molla-Nəsrəddin"çilərlə "Füyuzat"çıları öz yaradıcılığı ilə birləşdirməyə çalışırdı.

1901-ci ildən rus-tatar məktəbində ana dili müəllimi kimi fəaliyyətə başlayan Şaiq ömrünün 34 ilini Azərbaycan maarifinin inkişafına həsr edib. 1906-cı ilin avqustunda Bakıda keçirilən Birinci Müəllimlər Qurultayının təşkilində onun böyük xidmətləri olub. Bir sıra dərsliklər və proqramlar hazırlayıb.

Şaiq mütərəqqi rus, Qərb və türk poeziyasının təsirilə milli şerin yaranmasında da aktiv iştirak etmişdir. Onun "Həpimiz bir günəşin zərrəsiyiz", "Sevgi hakim olmalı" və sair şerləri, şairin multikultural dünyagörüşünü əks etdirmək baxımından dəyərlidir. A.Şaiq şər qüvvələrin xalqlar arasında nifaq salmasını, savaş törətməsini pisləyir, insanlığı din, dil, irq, millət, məzhəb fərqlilikləri ilə parçalayanlara öz qəzəbini ifadə edir və nəhayət bəşə-

riyyətin sabahını, insanların taleyini sevgidə, qardaşlıqda görürdü. Ədib cümhuriyyət dövründə maarif və məktəb yönümündəki işini canlandırır, rus məktəblərində "Azərbaycan türkü" sinifləri yaradır. Türk xalqlarının vəhdətini arzu edən Şaiq özünün "Arazdan Turana" şerində bu birliyi tərənnüm edir.

Sovet dövründə də Şaiqin Şərq ədəbiyyatı məsələləri, sufizm, təsəvvüf, hürufilik, eləcə də çeşidli ədəbi cərəyan və metodlar haqqında araşdırma və axtarışları maraqlıdır. Dini xurafata qarşı aktiv mübarizə aparan, elmi dünyagörüşünü yayan Şaiqin "Pirin kəraməti" hekayəsi bu baxımdan qiymətlidir. "Hitlerin yuxusu", "İblisin hüzurunda" hekayələrində o, şər qüvvələrə qarşı sevgi və qardaşlığı, multikulturalizmi təbliğ edir. Ədibin "Şair və qadın" dramatik poemasında ictimai, mənəvi naqisliklərə qarşı qadın azadlığı, qadın haqları müdafiə edilir. "Əsrimin qəhrəmanları", "Araz" romanlarında isə çarizmə və şah rejiminə qarşı Rusiya və İranın məzlum xalqlarının qardaşlığı, azadlıq uğrunda birgə mübarizəsi tərənnüm edilmişdir.

A.Şaiq öz əsərlərində ümumbəşəri problemləri işıqlandırmış, insanlığı daim sülhə, qardaşlığa çağırmışdır. Dünya xalqlarının ədəbiyyat incilərini – Firdovsinin "Şahnamə"sindən bir parçanı, Şekspirin "Maqbet", C.Sviftin "Qulliverin səyahəti", Puşkin, Lermontov, Qorki, Nekrasov və başqa yazıçıların əsərlərini dilimizə çevirməsi də böyük ədibin multikultural dəyərlərə hörmətinin təcəssümüdür[1].

[1] Müqayisə üçün bax. "*Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları*" (səh. 226-228). *Elmi redaktor.*

* * *

Ora sevgi və qardaşlıq dünyasıdır, bu taxta ürəklə Marsa gedilməz!

* * *

Kağız və mədən parçalarına tapınan və onu öz həmcinsindən qiymətli sayan, qardaşlıq və insanlıq duyğularını məhv etmiş olan bu insancıqlar üçün məəttəl olmağa dəyməz.

* * *

Həpimiz bir günəşin zərrəsiyiz!

* * *

İnsanlığa qüvvət degil, sevgi hakim olmalı.

* * *

...Qərb mədəniyyətini xalqımızın içinə geniş-geniş yaymaq və mənimsəmək... lazımdır.

* * *

...Rusiya xalqlarının azad olacaqları gün çox yaxındır.

* * *

Zəngin və tükənməz neft yataqlarını öz geniş sinəsində bəsləyən Abşeron yarımadası Azərbaycan kəndlərindən, Rusiyanın yaxın və uzaq guşələrindən, ...qonşu Dağıstan və Cənubi Azərbaycandan axın-axın fəhləliyə gələn ac və yoxsul adamlara öz qoynunda yer verir....

* * *

Birləşəlim, türk oğlu, bu yol millət yoludur.

ABDULLA SUR

(1882-1912)

Abdulla Sur Gəncədə anadan olmuşdur. Gəncədə Axund Hüseyn Pişnamazzadənin Xeyriyyə Məktəbində (mədrəsə) təhsil almış, dünyəvi elmlərlə yanaşı ərəb və fars dillərini də öyrənmişdir. O, çox gənc yaşda təhsil aldığı məktəbin müəllimi olaraq işləməyə başlamış, dərin savadı, ədəbi zövqü və geniş mühakiməsiylə çox qısa zamanda bütün Gəncə ziyalıları arasında tanınmışdır.

Abdulla Surun ilk məqalələri 1903-cü ildə "Şərqi-Rus" qəzetində çap olunmuşdur. Onun yazıları qəzetin hər sayında yer alırdı. Abdulla Surun mətbuat həyatı, qəzetçilik fəaliyyəti ömrünün sonuna qədər davam etmişdir.

O, Qafqazın müxtəlif mətbuat orqanlarına "A.Sur", "Məhəmmədzadə", "Qafqasiyalı", "A.Tofiq", "Gəncəli", "Abdulla Məhəmmədzadə", "Bir Adam" və başqa imzalarla məqalələr yazmışdır. "Şərqi-Rus" qəzeti bağlandıqdan sonra isə "Həyat" və "İrşad" qəzetlərinə də ədəbiyyat və mədəniyyət mövzularında məqalələr yazmışdır.

1906-1908-ci illərdə İstanbulda yaşayan Abdulla Sur İstanbul Darülfununda (Universitetində) ədəbiyyat müəllimi kimi çalışır. Türk qəzetlərində məqalələri çap olunur. Burada "Türk ədəbiyyatına bir baxış" kitabını yazır, lakin nəşr etdirmir.

O, İstanbulda İbrahim Şinasinin "Şair Evlənməsi" əsərini Osmanlı türkcəsindən Azərbaycan türkcəsinə çevirmiş, rus dilində yazılmış coğrafiyaya dair bir kitabı da türkcəyə tərcümə etmişdir.

Azərbaycana qayıtdıqdan sonra o, 1910-cu ildə Gəncədə "Ədəbiyyat və Sənət" cəmiyyəti qurmuşdur. Bu cəmiyyətin əsas məqsədi istedadlı gəncləri üzə çıxarmaq, onların qarşıdakı təhsillərinə kömək etmək idi. Abdulla Sur Gəncədə Əhməd Cavada ədəbiyyat dərsləri vermiş, Firidun bəy Köçərliyə "Azərbaycan Ədəbiyyatı" əsərinin yazılmasında kömək etmişdir.

Abdulla Sur, dilin sadəliyi məsələsinə olduqca böyük önəm verirdi. Buna görə də o, əsərlərini xalq dilində yazmayan şair və yazıçıları daim tənqid atəşinə tuturdu. Böyük maarifçi və multikultural düşüncəyə malik olan Abdulla Sur İslam dinini nəinki yeniliyə, müasirləşməyə və mədəniyyətə zidd saymış, əksinə bəşəri mədəniyyətin inkişafında İslam dininə mühüm yer vermişdir. Bu mənada, İslam dinini mədəniyyətə və müasirləşməyə əngəl kimi görənlərə daim qarşı çıxmışdır. A.Sur hesab edirdi ki, müsəlman dünyasının inkişafı üçün ilk növbədə, valideynlərin uşaqlara, kişilərin qadınlara münasibətində dəyişiklik olmalıdır. Belə ki, Avropada olduğu kimi, müsəlman dünyasında da uşaqları qorxutmaqla deyil, qayğı və düzgün yol göstərməklə tərbiyə etmək lazımdır. O, "Hər gün küçələrdə görürük" (1906) məqaləsində yazırdı ki, artıq müsəlmanlar uşaqlarına zülm verməkdən əl çəkib, onları dünəyəvi məktəblərə qoymalıdırlar ki, avropalılar kimi tərəqqiyə nail olsunlar. A. Sur bu məsələdə xeyriyyəçiləri də vətənə xidmət etməyə dəvət edirdi. "İrşad" qəzetində nəşr olunan "Əski İstanbul xanımları" (1906) məqaləsində isə o, müsəlman qadınlarının cəmiyyətdəki roluna diqqət çəkir, onları maariflənməyə təşviq edirdi. Abdulla Surun müasir ruhlu İslam-Türk mədəniyyətinin sintezindən çıxış etdiyi daha çox hiss olunur.

* * *

Avropa üsulu ilə tərbiyə verən atalar uşaqlarını çox sevərlər, oxşarlar… Avropalı ata-analar heç bir vaxt cocuqlara söyüş, qarğış etməzlər.

* * *

Üsuli-cədid[1] üslubunca hər şəhərimizdə, qəsəbəmizdə, qeyri yerlərimizdə məktəblər təsis edəlim. Bisavad böyüklərimiz üçün dəxi məktəblər təsis edəlim. Övlad və millətimizə insaniyyət qanunu təsfir və təhfim etməyə çalışalım. Hər yerdə "cəmiyyəti-xeyriyyələr" təsis və tərtib edib, fəqirlərimizə, yetimlərimizə, bikəsilərimizə, dullarımıza, qocalarımıza, şikəstlərimizə və korlarımıza ianət edəlim. Onları evləndirəlim. Millət və Vətənə sadiq, doğru xidmətkarlar yetirəlim.

* * *

Mühüm olduğu vəchlə cümlə millətlər maarif və mədəniyyəti əsasən bir-birlərindən iqtibas edə-edə gəlmişlər. Əski yunanlar, romalılar ərəblərə məlum oldular. Avropanın qərbi xristianları bugünkü mədəniyyət əsasını ərəblərdən (yəni ərəbdilli islam mədəniyyətindən) aldığı zatən bəllidir.

* * *

Demək istərəm ki, mədəniyyət və maarifi-ümumiyyəti Rusiyadan, Avropadan öyrənəlim. Milli libasımız, ədəbiyyatımız və bunlara dair ülum və fününu da İstanbuldan alalım.

* * *

Şərq oyanıyor... Fərabilər, Firdovsilər, Nizamilər yetişdirən Asiya oyanıyor.

---

[1] Üsuli-cədid - yeni üsul

ƏLİABBAS MÜZNİB

(1883-1938)

Görkəmli şair, publisist və ədəbiyyatşünas Əliabbas Müznib Bakı şəhərində doğulmuşdur. İbtidai təhsilini mədrəsədə almış, ərəb-fars dillərini mükəmməl öyrənmişdir. O, bir müddət təhsilinə rus-tatar (Azərbaycan) məktəbində davam etmiş, rus dilinə də yiyələnmişdir.

Müznib "Molla-Nəsrəddin"çilərin təsiri altında ictimai ədalətsizliyi, mütləqiyyət üsul-idarəsini, fanatizmi ifşa edən şeirlər qələmə almışdır. "Zənbur" (1909-1910), "Şəhabi-saqib" (1911), "Babayi-Əmir" (1915-1916) və s. jurnallarının redaktoru kimi də fəaliyyət göstərmişdir.

Azərbaycanda türklük fikrinin yayılmasında Müznib əhəmiyyətli rol oynamışdır. İlk şeirlərini 1907-ci ildən başlayaraq "Təzə Həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda nəşr etdirən Əliabbas Müznib 1910-cu ildə "Hilal" adlı qəzet nəşr etdirmişdir. Lakin çar Rusiyası, hökuməti tənqid etdiyi üçün bir il sonra qəzeti bağlayır, bir qədər sonra Müznib özü həbs edilir və Sibirə sürgünə göndərilir. Ə.Müznib sürgündə olduğu dövrdə Bakı mətbuatında şeirlərini çap etdirir, özünün "Sibirya məktubları" əsərini isə 1913-cü ildə nəşr etdirir. Ə.Müznib 1913-cü il əfvi ilə vətənə qayıtdıqdan sonra, 1914-cü ildə "Dirilik" adlı bir məcmuə qurur. Lakin bu məcmuənin də, hökuməti tənqid etdiyi üçün, ömrü qısa olur. Rusiya imperiyasının süqutundan son-

ra Müznib ədəbi və siyasi sahələrdə daha geniş fəaliyyət göstərir. Azərbaycan Xalq Cumhuriyyətinin rəsmi nəşr orqanı olan "Azərbaycan" qəzetində türklüyün tarixi və türklük məsələləri ilə bağlı ardıcıl məqalələr nəşr etdirir.

Müznibin əsərlərində dünyəvi elm və təhsil, multikultural ideyalar təşviq edilir. Məsələn, "Uşaqlara ibrət" (1911) adlı mənzum əsərdə mollaxanalardakı köhnə metodlu təhsil tənqid edilir, üsuli-cədid (yeni üsul) məktəbləri tərifləlnir. "İbrət taziyanəsi" (1916) əsərində isə gənclər elm öyrənməyə dəvət edilir. "Çəkməsilən" əsərində xeyriyyəçilərin imkansız gənclərin təhsilinə yardım etməsi təşviq edilir. Mütəfəkkirin bir sıra əsərləri xalqlar dostluğu fikrini, multikultural ideyaları özündə yaşadır. "Qazi Ənvər paşa" (1912) əsərində türkiyəli dövlət xadimi "hürriyət qəhrəmanı" adlandırılır. Müznibin 1916-cı ildə yazdığı publisistik "Tac-Mahal – Banu bəyim məzarı" əsərində Hindistandakı bu abidənin şah Cahan tərəfdən tikilməsi, ona xərclənən vəsait haqqında məlumat verilir. Görkəmli ziyalı, "İnsaf güzgüsü" (1916) əsərində xeyrin şər üzərindəki üstünlüyünü təqdim edir, "Rusiyyət qəhrəmanı Rasputin" (1919) əsərində isə II Nikolayın siyasətini tənqid edilir. O, ərəblərin məşhur "Min bir gecə" nağıllarından etdiyi tərcümələri "Əlifleyla" adı ilə çap etdirmişdir.

Sovet hakimiyyəti dövründə XIX-XX əsr Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən ibarət on kitab yayınlayan Müznib, millətçi fikirlərinə görə daim təzyiqlərə məruz qalmışdır. "Yusif və Züleyxa" (1914), "Nəsrəddin məzhəkələri" (1927), "Aşıq Pəri və müasirləri" (1928) və s. kitabların müəllifi olan Müznib 1938-ci ildə Stalinçi repressiyanın qurbanı olmuş və güllələnmişdir.

* * *

Türkün böyüyü kimdi, sorulduqda təmamən,
Ənvər paşa, Ənvər paşa, Ənvər paşa derlər.

* * *

Tac-Mahal da ki, gərək Avropada, gərək Asiyada birinci binadır. Onun varlığı ....mədəniyyəti-islamiyyədən birinci nişanədir.

* * *

(Hindistandakı) Bu şəhərlər ..."Şah Cahan kimi ağıllı, kamallı, müqtədir hökmdarların biliyi sayəsində məşhur olmuşdur.

* * *

Bilmək istər isən səadətini,
Al oxu Xəmsəti-Nizamini,
Şeyx Firdovsinin kəlamını,
Oxu həm Sədinin Gülüstanını....

* * *

Məktəb icad edib cahanda füzun,
Arximed, Ərəstu və Əflatun.

* * *

Elm kəşşaf (kəşf edən) edib Kolumbayı,
Elm kəşf edib Amerikayı.

* * *

Aman Qafqaz övladı, ibrət edək!
Üluma (elmə) tərəf səyə qeyrət edək!

SALMAN MÜMTAZ

(1884-1941)

Görkəmli Azərbaycan türkoloqu və ədəbiyyatşünas alim Salman Mümtaz Şəkidə anadan olmuşdur. O, ilk təhsilini Aşqabadda mollaxanada alıb. Mümtaz oradakı qısa təhsilinə baxmayaraq ərəb, fars, urdu dillərini, sonralar isə rus dilini öyrənir. Ədəbiyyata xüsusi marağı olan Mümtaz "Molla Nəsrəddin"in Türkistan, Ural və Sibir üzrə müvəkkili olub, jurnalda müxtəlif şeirlər, məqalələr çap etdirirdi. Həmçinin, "Zənbur", "Tuti", "Qardaş köməyi" jurnallarında, "Günəş", "Səda", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Açıq söz" və s. qəzetlərdə onun saysız-hesabsız satirik şeirləri, məqalələri, məktub və mənzum felyetonları dərc olunub. O, 1910-cu ildə Aşqabaddan Bakıya köçdükdən sonra klassik ədəbi irsi toplamağa, nəşr və tədqiq etməyə başlayıb

1918-ci ildə Ənvər Paşa və Nuru Paşanın Azərbaycana hərbi yardımı münasibətilə Mümtaz onlara şeir həsr etmişdir. S.Mümtaz Azərbaycan SSR dövründə "Azərnəşr"də, Elmlər Akademiyasında işləmişdir. "Füqəra füyuzatı", "Kommunist", "Maarif və mədəniyyət", "Azərbaycanı öyrənmə yolu" və başqa jurnal və qəzetlərlə əməkdaşlıq edən S.Mümtaz, eyni zamanda, Azərbaycan ədəbiyyatı, şifahi xalq ədəbiyyatının nümunələrini toplamaq və tədqiq etməklə də ardıcıl məşğul olmuşdur.

Uzun illər nadir əlyazmaları, kitabları toplayıb araşdıran Mümtaz 1937-ci ildə siyasi cinayətkar kimi həbs edilmiş, 1941-ci ildə Stalinçi repressiyanın qurbanı olmuşdur. Onun əsərlərində dünya və Azərbaycan ədəbiyyatı müqayisəli şəkildə, multikultural dəyərlər baxımından tədqiq olunmuşdur.

* * *

…Bu ulu və böyük insanlar bundan sonra da bir neçə əsrlər yaşayacaqlar. …Onları böylə yan-yanaşı qeyd etməliyik: Xacə Əhməd Yəsəvi, Seyid İmadəddin Nəsimi, Mir Əlişir Nəvai, Molla Məhəmməd Bağır Füzuli.

* * *

Qərbdə Homer, Şekspir və Molyer məşhur olduğu kimi, Şərqdə də bunlar (Yəsəvi, Nəsimi, Nəvai, Füzuli) eləcə məruf və məşhurdurlar.

* * *

…Böyük Firdovsi …şübhəsiz, cahan şairi adlanmalıdır.

* * *

…Alman ədib və şairləri mərhumun (Vazehin) o asari-layəmutunu (ölməz əsərlərini) oxuyaraq olduqca nəfbərdar (faydalanmış) olurlar.

* * *

…Rudəki ilə …Vaqifin bir-birilərinə çox bənzəyiş və münasibətləri vardır.

* * *

…Bir şirvanlı Molla Qasım var imiş ki, Yunus İmrə kimi böyük bir türk sufisinə …ustalıq etmişdir.

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

(1884-1955)

Azərbaycan Xalq Cumhuriyyətinin banisi və ideoloqu Məhəmməd Əmin Rəsulzadə Bakının Novxanı kəndində doğulmuşdur. İlk təhsilini "Rus-müsəlman" məktəbində alan Rəsulzadə təhsilini texniki məktəbdə davam etdirmişdir. Rəsulzadə Bakıda ilk dəfə "Müsəlman gənclik təşkilatı" yaratmışdır.

Rəsulzadə ictimai-fəlsəfi yaradıcılığında cəmiyyətdə birlik, bərabərlik və harmoniyaya səsləyən ideyalarla çıxış edərək, ümum-vəhdət fəlsəfəsini müdafiə etmişdir. Onun bu ideyaları məhz "Azərbaycançılıq" ideologiyasının əsaslarını təşkil edirdi ki, bunun da bariz nümunəsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması olmuşdur.

Ümumiyyətlə, Rəsulzadənin ədəbi-bədii, ideoloji və siyasi yaradıcılığı bütünlüklə Azərbaycan dövlətçiliyinin ictimai-fəlsəfi əsaslandırılmasına yönəlmişdir. Onun dinə və dilə olan münasibəti də özünəməxsus idi. Bu baxımdan Rəsulzadə İslama və ana dilinə olan münasibətini izah edərkən, həm dini, həm də türk dilini yüksək dəyərləndirir, müsəlman və türk olması ilə qürur duyurdu.

İslam həmrəyliyi ideyalarını yayan Rəsulzadə sünni və şiə ruhani idarələrinin birləşdirilməsini, məzhəb fərqi olmadan, bütün müsəlmanların vahid dini məktəblərdə təhsil almasını təbliğ edirdi. O, eyni zamanda din məsələsini vicdan məsələsi sayır, dini siyasətdən ayrı görürdü.

Digər dinlərin və millətlərin nümayəndələrinə həmişə tolerant və dostluq münasibətilə yanaşan Rəsulzadə cəmiyyətdə multikultural mühitin formalaşmasına can atmışdır. Bu mənada "Azərbaycançılıq" ideologiyası milli, dini və sinfi bərabərliyin təminatçısı kimi özünü göstərirdi. Qısa ömür yaşamasına baxmayaraq Azərbaycan Xalq Cumhuriyyəti Şərqdə bir çox demokratiya, insan hüquq və azadlıqları adına ilklərə imza atılmışdır. Bütün bunlar Rəsulzadənin multikultural və tolerant dəyərlərlə zənginləşən dünygörüşü işığında reallaşa bilmişdir.

* * *

Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir. Azərbaycançılıq eyni zamanda bir hürriyyət və mədəniyyət hərəkatıdır ki, onun ən bariz sifəti xalqçılıq və milli hakimiyyət əsasına bağlılıqdır.

* * *

Gürcücə danışmaqda bərdəvam olan müsəlmanlar gürcüdürlər. Gürcülərin onlara qovuşmaq istəmələri təbiidir. Buna biz mane olamayız. Gürcücə ilə bərabər türkcə də danışan gürcü müsəlmanları ilə aramızda camei-diniyyə vardır. Bu cameə ilə biz ikimiz də beynəlmilliyyəti islamiyyəyə daxiliz. Buna görə də onlarla rabiteyi-mənəviyyəmizi idarə edəcək və bizdən müsəlman məktəbləri istərlərsə mümkün elədigimiz qədər istəklərinə əməl edəcəgiz.

* * *

Tamam hürriyyət üzrə çağrılacaq Məclisi-Müəssisan çoxmillətli Rusiyayi ədalət və hürriyyət üzrə təmsil edəcək və hər kəs öz miqdarı nisbətində nümayəndəligə malik olaraq, tazə Rusiyanın əsasları ögey-doğmalıq degil, qardaşlıq və vətəndaşlıq əsasları üzərinə təsis olunacaqdır.

* * *

Yaşasın tazə və azad Rusiya!
Var olsun millətlərin bərabərliyi, birliyi!

* * *

Bəsdir, bəsdir içdiyiniz insan qanları, bəsdir iki milləti bir-biri ilə çalışdırıb, sonra hər ikisini də badi-fənaya verdiniz!

* * *

Hərgah erməni məsələsi və "panislamizm" kimi kitablar əvəzində, məhəbbət və qardaşlığa çağıran risalələr nəşr etsə idilər, bu qədər nahaq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmaz idi. Bu qədər arvadlar dul, bu qədər uşaqlar yetim düşməz idi. Ey vətəndaşlar! Bəsdir bu qədər həlakət! Bəsdir bu qədər qəflət!..

XƏDİCƏ ƏLİBƏYOVA

(1884-1961)

Görkəmli Azərbaycan maarifçisi Xədicə Əlibəyova 1884-cü ildə Tiflisdə anadan olmuşdur. O, ilk təhsilini rus qız gimnaziyasında almış, sonra Olqa Mamalıq İnstitutunu bitirmişdir. X.Əlibəyova Azərbaycan qadın xeyriyyə cəmiyyətlərinin işində yaxından iştirak etmiş, qadınların öz haqlarını bilmələri və maariflənmələri uğrunda mübarizə aparmışdır. Bu məqsədlə o, Azərbaycanda ilk qadın qəzeti olan "İşıq"da (1911-1912-ci illər) redaktor kimi fəaliyyət göstərmişdir.

Görkəmli xeyriyyəçi H.Z.Tağıyevin maddi yardımı ilə Bakıda çıxan "İşıq" həftədə bir dəfə, şənbə günü nəşr olunan elmi-pedaqoji, ədəbi, təbabət və evdarlığa dair qadın qəzeti idi. Məqalələr əsasən Azərbaycan türkcəsində, bəzən isə rus dilində çap olunurdu. Burada uşaqların tərbiyəsi, ədəbiyyat, təbabət və evdarlıqla yanaşı, hüquqa, mədəniyyətə, şəriət qaydalarına, dünya xəbərlərinə aid müxtəlif məqalələr çap edilirdi. Qəzetin birinci nömrəsindən etibarən müsəlman qadınlara dini elmlərlə yanaşı, dünyəvi elmlərin və texnikanın da vacibliyi vurğulanırdı.

Qadınları maarif və mədəniyyətə, zaman nə qədər çətin olsa da, öz haqlarını müdafiə etməyə çağıran "İşıq" qəzetində X.Əlibəyova silsilə məqalələr yazmışdır. Qadınların hüquq bərabərliyi, onları maarif və mədəniyyətə, ictimai həyatda iştiraka çağırış, qadın klublarının, savad kurslarının açılması, uşaqların tərbiyəsi, ev işləri və sağ-

lamlıq məsələləri ətrafında gedən mübarizə və sair onun publusistik məqalələrinin əsas mövzusu idi.

Molla Ruhulla, Müfti Hüseyn əfəndi Qayıbov kimi mütərəqqi din xadimləri də "İşıq" qəzeti ilə sıx əməkdaşlıq edir, müsəlman qadınlarının maariflənməsi üçün qəzetin səhifələrində məqalələrlə çıxış edirdilər.

Nicat maarif cəmiyyətinin, Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin fəal üzvlərindən biri kimi fəaliyyət göstərən Xədicə Əlibəyova həkim-ginekoloq kimi də şöhrət qazanmışdı.

* * *

Əsrlərlə xabi-qəflətdə[1] *qalmağımızdan bidər (oyaq) olub mədəniyyət etməyə... çalışmalıyız.*

* * *

Bizim arzu etdigimiz hüquqi-nisvan (qadın hüququ) odur ki, övrətlər (qadınlar) şəriəti-müqəddəsimizə müvafiq öz xilqəti-insaniyyəsində olan həya və ədəbi, əql və fərasəti puç eyləməyüb elm və tərbiyədən bilmərrə bibəhrə və məhrum qalmasunlar.

* * *

Habelə şəriəti-islamiyyənin əsasındandır ki, hər vəqtdə övrət taifəsinə gərək ehtiram olunsun. Dini-islam ər və xatun arasında müsavat (bərabərlik) gözləməkdədir.

* * *

Elmimiz olursa, hüquqlarımıza malik ola bilirik.

---

[1] Xabi-qəflət - qəflət yuxusu

ÜZEYİR HACIBƏYLİ

(1885-1948)

Üzeyir Hacıbəyli Ağcabədidə dünyaya gəlmişdir. O, dövrünün tanınmış alimi, dramaturqu, bəstəkarı, ədib-publisisti və mütəfəkkiri olmuşdur. Ü. Hacıbəyli ictimai xadim olmaqla yanaşı, həm də peşəkar musiqiçi və milli operanın banisidir. Hacıbəyli dövrünün publisist və mütəfəkkiri kimi olduqça önəmli fikirlərlə çıxış etmiş, cəmiyyətin ümdə problemlərini dövri mətbuatda işıqlandımışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət" kimi qəzetlərdə və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" başlıqları altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. Gülüş, yumor onun həm insan kimi təbiətinin, həm də ədəbi yaradıcılığının, o cümlədən publisistikasının başlıca keyfiyyətlərindən idi. XX əsrin əvvəllərində Azərbaycan mətbuatının aparıcı janrlarından olan felyeton Hacıbəylinin publisistik fəaliyyətində əhəmiyyətli yer tuturdu. Bədii və publisist tarazlığı saxlamaq etibarilə Hacıbəylinin felyetonları, oçerk və parodiyaları böyük dəyərə malik əsl sənət əsərləridir. Ü.Hacıbəylinin zəngin yumoristik söz yaradıcılığı vaxtı ilə dövri mətbuat səhifələrində "Ordan-burdan" ümumi başlığı altında dərc etdirdiyi yazılarda xüsusi yer tutur.

Ü. Hacıbəyli əsl Azərbaycan ziyalısı və maarifçisidir. Onun bütün yaradıcılığı multikultural dəyərlərin təbliğinə həsr edilmişdir. Ü.Hacıbəylinin demək olar ki, bütün yaradıcılığı multikulturalizmin örnəyi ola bilər. Ü.Hacıbəylinin "Leyli və Məcnun" (1908), "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm"(1912), "Harun və Leyla" (1915), "Koroğlu" (1937) operalarında multikulturalizm ənənələrinin müxtəlif təzahürlərini görürük. İlk dəfə olaraq, Şərqdə, Azərbaycanda, Qərb mədəniyyətinin komponenti, opera qəbul edilir və Ü.Hacıbəyli tərəfindən Şərq motivləri əsasında "Leyli və Məcnun" operası yazılır. Ü.Hacıbəylinin "O olmasın, bu olsun" operettasında və "Əsli və Kərəm" operasında da multikultural dəyərlərin təbliğini müşahidə edirik.

Ü.Hacıbəyli "Əsli və Kərəm" operasında məhəbbətin din və millət fərqliliyindən doğan kin-küdrət, başqalarını bəyənməmək və qəbul etməmək kimi hisslərdən daha üstün olduğunu vurğulayırdı."O olmasın, bu olsun" operettasında Hacıbəyli yenə milli, dini və mədəni müxtəlifliyi qabardaraq, onlar arasındakı ortaq dəyərləri axtarıb tapmağa cəhd edir, cəmiyyətdə mürtəce baxışları tənqid edir, müasirliyin qaçınılmaz olduğunu bildirir. Ü. Hacıbəyli o dövrdə geniş yayılan "təkfir" məsələsini də tənqid edir, cahil və nadan din xadimlərini elmi islahata, ölkədə ali ruhani məktəblərini açmağa dəvət edirdi. Ümumiyyətlə, onun əsərləri XX əsrin əvvəllərində Azərbaycanın real tolerantlıq, multikultural mənzərəsinin təcəssümüdür. Ü.Hacıbəyli yaradıcılığının təsir gücünü hətta erməni mətbuatı da etiraf edirdi. Tiflisdə ermənilə-

rin nəşr etdiyi "Mşak" qəzeti 1916-cı ildə yazırdı: "Erməni musiqili teatrının əsası "Arşın mal alan" operettası ilə qoyulub". Ü.Hacıbəyli də öz məqalələrində bütün ermənilər və azərbaycanlıları törənmiş qanlı faciələrə son qoymağa çağırır, dostluq və qardaşlığa dəvət edirdi[1].

* * *

Aramızda ülfət olsun, bir-birimizə üz tutaq, yek-digərimizə rast gəldikdə qəlbimi məhəbbət, sevgi hissindən nəşət edən fərəh ilə məşun olsun, yek-digərimizin qəm və fərəhindən hissəyab olaq.

* * *

...Həqiqi molla müsəlmanı kafir eləməz. Kafiri müsəlman edər.

* * *

Yenə şükürlər olsun ki, Rusiyada vaqe olan təbəddulat bir paramıza təsir etdi. Bəzilərimizin gözünü açdı. Bir çoxumuz oyandıq və oyanıb da məclislər və qəzetlər vasitəsilə yatmış həmcinslərimizi oyatmağa başladıq

* * *

Biz hamımız Qafqaz balalarıyıq.

* * *

Din, millət ayrılığı bizim ittifaqımıza səd olmasın.

[1] Müqayisə üçün bax". *Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları*" (səh.243-255). *Elmi redaktor.*

SEYİD HÜSEYN

(1887-1938)

Böyük Azərbaycan ədibi və yazıçısı Seyid Hüseyn Bakıda anadan olub. O, əvvəl mollaxanada, sonra isə "Rus-tatar" məktəbində təhsil almış, Azərbaycan, rus, fars dillərini mükəmməl öyrənmişdir. S.Hüseyn "Tazə həyat" və "Kaspi" qəzetlərinin mətbəələrində mürəttib olub, şərikli "Bəhlul", "Kəlniyət" və "Qurtuluş" jurnallarını nəşr etdirib. 1913-1914-cü illərdə "İqbal"ın baş redaktoru olub. 1920-ci ildən "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərib. Bakının orta məktəb və texnikumlarında müəllimlik də edən Seyid Hüseyn, ömrünün son illərində "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin redaktoru olmuşdur.

Bədii yaradıcılığına 1907-ci ildə başlayan Seyid Hüseyn qəzet və jurnallarda müxtəlif imzalar altında hekayə, məqalə və felyetonlar çap etdirmişdir. Müəllifin müxtəlif illərdə "Ağvalideyn, yaxud zavallı Məşədi Zaman", "Qaçaq oğul, yaxud ata məhəbbəti", "Yeni həyat yollarında" və s. kitabları nəşr olunmuşdur. 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, milli ədəbiyyatımızın zənginləşməsi üçün səy göstərmişdir.

O, Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmış, Azərbaycan ədəbiyyatı və ədəbiyyat xadimləri haqqında məqalələr, müasir həyatdan bəhs edən hekayələr yazmışdır. S.Hüseynin əsərlərində dini mövhu-

mat və feodal geriliyi ilə mübarizə, beynəlmiləlçilik və multikultural ideyaların təbliği əsas yer tutur.

Stalinçi repressiyanın qurbanlarından olan Seyid Hüseyn 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir.

* * *

(Bakıdakı) Bu küçə Şərq düşüncəsi ilə Qərb zehniyyətini, islam mədəniyyəti ilə Avropa kulturasını... öz ağuşuna almışdı.

* * *

Başqa milli ədəbiyyatların nümayəndələrini öyrənmək, onların əsərlərini toplayıb nəşr etməklə faydalanmalıdır, bizim öz şairlərimiz və qələm sahiblərimiz dünyanın görkəmli sənətkarlarının təcrübəsindən bəhrələnməlidir.

* * *

...İndi yerlə sürünən bu çadra islamın yadigarı olmaqla bərabər, ...bir əsarət nişanəsi idi. ...Başından atmaqla özünü bu əsarətdən qurtardı. ...İffət və namusu mühafizə edən islamın çadrası deyil....

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

(1887-1943)

Yusif Vəzir Çəmənzəminli Şuşa şəhərində anadan olmuşdur. Atası Məşədi Mirbaba Mirabdulla oglu Vəzirov Şuşa bəylərindən idi. Yusif Vəzirin daşıdığı Vəzirov soyadı isə XVIII əsrdə Qarabağ xanı İbrahimxəlil xanın nüfuzlu vəzirlərindən biri olmuş Mirzə Əliməmməd ağanın tutduğu vəzir vəzifəsinə bağlı olaraq nəsildən-nəsilə keçmişdir. Yusif Vəzir bu nəslin ən layiqli davamçılarından biri olmuş, dövlət xadimi və yazıçısı kimi tanınmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki ilk səfiri olmuşdur.

Araşdırmalardan məlum olur ki, Çəmənzəminli o dövrün mətbuatında bir çox imzalarla çıxış etmiş və zəmanəsinin ən mütərəqqi ziyalılarından biri olmuşdur. Bəzi elmi mülahizələrə görə, 1937-ci ildə Avstriyada "Qurban Səid" təxəllüsü ilə çap edilmiş "Əli və Nino" adlı sevgi romanının müəllifi kimi də tanınır. Onun bütün yaradıcılığı maarifçiliyə həsr olunmuşdur. Ədibin şəxsiyyəti və yaradıcılığı universal dəyərlərin və sülhün təbliğinə həsr olunmuş və multikultural ideyaların təbliği üzərində qurulmuşdur. Müəllifin "Qızlar bulağı", "İki od arasında" və "Studentlər" romanları multikultural dəyərlərin təbliğ olunduğu əsərlərdir. Bu əsərlərin ədəbi ağırlığı qədər, ictimai-fəlsəfi yükü də vardır. Belə ki, bu əsərlərdə milli-mənəvi dəyərlərin yer alması ilə bərabər, həm də qonşu xalqlarla münasibətdə dostluq və qardaşlıq ideyası ön plana çəkilir.

Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" romanında erməni-azərbaycan münasibətlərinə toxunulur və orada Qarabağ ermənliləri ilə azərbaycanlıların dostluq və qonşuluq münasibətləri işıqlandırır. Bütün yaradıcılığını sülh və əmin-amanlığın təbliğinə həsr etmiş Yusif Vəzir Çəmənzəminli əsərlərində heç bir dini, irqi və mədəni ayrıseçkiliyə əhəmiyyət vermədən, insan amilinə diqqət yetirir.

* * *

...Dünyada ən böyük nəticə müharibəsiz həyatdan ibarətdir. Yalnız sülh və zəhmət bizə istirahət təmin edə bilər.

* * *

... Bu gün bizim istehza etdiyimiz Konfuçi, Budda, Musa, İsa və Məhəmmədlərin arxasınca miyonlarla insanlar gedir; həm də fədəkar və mütəəssib adamlar. Bu hala nə deyirsən? Məsələ din icad edəndə deyil, məsələ bəşərin din axtarmasındadır. Peyğəmbər olmadan da bəşərin dini vardı. Oda, Günəşə, Aya, daşa, heyvanlara tapınan azmı olmuş?.

* * *

Erməni-türk münasibətinə gəldikdə o zaman heç də kəskin bir məsələ deyildi. Geniş kütlə qardaşcasına yaşayır, ortada da heç bir münaqişəli məsələ yox idi: erməni əməkçiləri – dərzilər, bənnalar, dülgərlər... türklər arasında işlərdilər, kirvəlik edərdilər. Geniş kütlə ermənıyə "dinayrı qardaş" deyərdi. Xalq məscid və kilsə ayrılığı ilə belə hesablaşmaq istəmirdi: türklərin nəzir eləyib, kilsə həyətində qurban kəsdiyini və ermənilərin türk pirinə şam gətirdiklərini çox görmüşəm".

* * *

Şuşa o zaman əyalət şəhərləri içərisində ən mədənilərdən biri sayılırdı, realni məktəbi, orta qız məktəbi, şəhər məktəbi, erməni seminariyası, teatrı vardı. Ermənilər şəhərin qərb cəhətində, türklər isə şərqində yaşayırdı. Türk hissəsi 17 məhəlləyə bölünmüşdü, bir çox xan sarayı, bütün məscidlər qədim hamamlar, rastabazarlar, karvansaralar vardı, şəhərin qalın hasar və bürcləri hələ qalırdı.

* * *

İndiyədək şərqşünaslıq deyəndə Şərq sivilizasiyalarının tarixi təkamülünü, Şərq xalqlarının dillərini, ədəbiyyatını, incəsənətini, etnik mənşəyini və s. öyrənən bir elm başa düşülürdü.

* * *

Elmləri bolşevikləşdirmək üçün əlindən gələni edən Sovetlər, ədəbiyyatı kölə vəziyyətinə gətirib çıxarmşdırlar. ...Rusiyanın heç də az tanınmamış bir sıra yazıçıları ....vətəni tərk etməyi üstün tutdular...

* * *

Bəs dünyanın ən ziyalı adamı kim ola bilər? Bəli, Sokrat olub... ("Posledniye Novosti"dən sitat, 1932).

* * *

Həqiqətən də müsəlman-türk olub İsmayıl bəy Qaspıralı kimi bir xadimi dəyərləndirməmək olmaz.

CƏFƏR CABBARLI

(1899-1934)

Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli klassiklərindən biridir. Xızı kəndində anadan olan mütəfəkkir sonralar ailəsi ilə birlikdə Bakıya köçür.O, əvvəlcə mollaxanada, sonra "7-ci müsəlmani və rusi" məktəbində və Bakıda Alekseyev adına 3-cü ali-ibtidai məktəbdə oxuduqdan sonra Bakı Politexnik Məktəbinin elektromexanika şöbəsində təhsil almışdır. Cabbarlı Bakı Türk Teatr Məktəbində və Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin tarix şöbəsində də təhsilini davam etdirmişdir.

Hələ ibtidai məktəbdə oxuduğu zaman Abdulla Şaiq və Süleyman Sani Axundov kimi yazıçı və müəllimlərin təsiri ilə onda ədəbiyyata həvəs daha da qüvvətlənir və Azərbaycan və rus şairlərini mütaliə etməklə bərabər, özü də şeirlər yazmağa başlayır.

Onun "Qızıma", "Hürriyyəti-nisvançılara protesto", "Arvadlar deyirlər", "Kişilər deyirlər", "Qızlardan kişilərə protesto" və başqa şeirlərində qadın azadlığı, ictimai ədalət məsələləri ifadə edilir. Şairlik istedadına baxmayaraq Cabbarlı ən məşhur əsərlərini dramaturgiya janrında yazmışdır.

Cəfər Cabbarlının səhnə əsərləri, tarixi dramları onilliklər boyu böyük bir nəslin vətənpərvərlik məktəbi olmuşdur. Ötən yüzilliyin əvvəllərində ədəbi-mədə-

ni və mənəvi mühitin aydınlığa çıxmasında əhəmiyyətli rol oynayan "Vəfalı Səriyyə", "Solğun çiçəklər", "Sevil", "Aydın", "Oqtay Eloğlu", "Nəsrəddin şah" və başqa dram əsərləri bu gün də aktuallıq kəsb edir. "1905-ci ildə" əsəri isə, xüsusilə günümüz baxımından da, aktual olub ermənilərlə azərbaycanlıların dostluğunu təbliğ edir və onların arasında ədavət salan beynəlxalq imperializmin "parçala və hökm sür" məqsədini və məkrli niyyətlərini ortaya çıxarır. C.Cabbarlının əsərlərinin qəhrəmanları müxtəlif millətlərin və dinlərin nümayəndələridir. Müəllif xalqlar arasında siilh və bərabərlik ideyalarını tərənnüm edir, oxucuları ziyanlı adətlərdən əl çəkməyə və dəyərli beynəlxalq təcrübədən yararlanmağa çağırır. Bu əsərlərdə ziyalı mövqeyi, qadın hüquqları, xalqların dostluğu, tolerantlıq, multikulturalizm meylləri aydın nəzərə çarpır.

* * *

Qadının qəti azadlığı üçün, yalnız çadrasını açması bəs deyildir. Halbuki Avropa qadınları çadrasız ikən, azad deyildirlər. Qadına, ən başlıca, iqtisadi azadlıq lazımdır.

* * *

Bu rus, erməni qızları yenə yaxşıdırlar. …Biz hələ oturmuşuq, gözümüzü dikmişik kişinin əlinə: ağa gətirsin navala, xanım doldursun çuvala.

* * *

Onlar qonşu idilər. İki külfət: biri türk idi, biri erməni, lakin onların yaşayışı bir idi, işləri bir, görüşləri bir, dərdləri bir, sevincləri bir, diləkləri bir, əməkləri bir idi".

* * *

…Qərb ədəbiyyatı Azərbaycana iki yol ilə təsir etmiş ki, bunlardan biri Rusiya, ikincisi isə Türkiyədir.

* * *

Rusiyaya sirayət etmiş Qərb axını Rusiyanı özünə cəlb etmiş və rusların Qafqaza gəlməsi ilə istər-istəməz Qafqaza da keçməyə başlamışdı.

* * *

Arkadaşlar, varlığın millət istərsə saxlasın,
Əlbəəl versin də, etsin ittihadi-ittihad.

* * *

İlk nəzərdə bunları bir-birindən ayırmaq çətin idi. Bütün bu xalqların ev əşyaları, kənd təsərrüfatı alətləri, adətləri, nəğmələri və rəqsləri bir-birinin idi. Əslində bu iki xalq vahid bir xalq təşkil edir. Öylə isə bəs bu xalqları uzun müddət qanlı vuruşmalara nə məcbur etmişdir? Bu məsələni dərindən öyrənməyə başladım. Beləliklə, kütlənin nəzərini inqilabdan uzaqlaşdırmaq məqsədilə bu iki qardaş xalqı bir-biri üzərinə salışdıran rus çarizminin kolonizasiya siyasətini göstərən bir pyes üzərində işləmiş oldum və 1905-ci ili bu milli vuruşma üçün bir fon seçərək "1905-ci ildə" əsərini yazdım.

NƏTİCƏ

Azərbaycan qədim dövrlərdən günümüzə kimi mədəniyyətlərin kəsişdiyi bir ərazi olmuşdur. Bu torpaqlar insanlıq tarixinin başlanğıcından bu yana bir çox mədəniyyətlərin yaranmasına şahidlik və hətta ev sahibliyi etmişdir. Tarixə ekskurs etdikdə görürük ki, bu coğrafyada yaşamış bütün xalqların mədəniyyətlərinin izləri Azərbaycan tarixində mövcuddur.

Müasir dövrdə Azərbaycanda multikultural və tolerant dəyərlərin dövlət siyasəti səviyyəsində təbliği və tətbiqi qeyd olunan tarixi ənənəyə istinad edir. Ulu Öndər Heydər Əliyevin müstəqillik dövründəki hakimiyyəti illərində əsası qoyulan və hazırda cənab Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən multikulturalizm siyasəti Azərbaycanda həyat tərzi və dövlət siyasəti olaraq xüsusi inkişaf mərhələsindədir.

Bu antologiyanın nəticəsi olaraq deyə bilərik ki, Azərbaycan mədəniyyətinin formalaşmasında qədim mədəniyyətlərlə yanaşı dinlərin də böyük rolu olmuşdur. Xüsusən qeyd etmək lazımdır ki, Qədim Türk oğuz xalqlarının mifik bədii təfəkkürü ilə yanaşı, zərdüştilik dini dünyagörüşü, daha sonra isə xalqımızın xristianlıqla tanış olması, milli-mənəvi dəyərlər toplumuzu daha da zənginləşdirmişdir. Zərdüştilik və onun müqəddəs kitabı "Avesta"da unversal dəyərlər təbliğ edilməkdədir. Kitabda insanların sülh, əmin-amanlıq, qardaşlıq, dostluq və birlik-bərabərlik içində yaşamaları təlqin edilir. Bu tendensiyanı biz Azərbaycanda yayılmış Xristaianlıqda,

daha sonra isə İslam dinində də müşahidə edirik. Xristianlıq bütün insanlara açıq olan bir dindir. Xristianlığın inteqrativ xüsusiyyəti bu dinin zamanla daha geniş coğrafiyada yayılmasına səbəb olmuşdur. Azərbaycan Xristianlıqla ilk tanış olan ölkələrdəndir . Qeyd etməliyik ki, Xristian dini dünyagörüşünün Azərbaycan mədəniyyətinin formalaşmasında böyük rolu olmuşdur.

Azərbaycanda İslam dini qəbul olunduqdan sonra isə İslam sivilizasiyası xalqımızın tarix boyu qazandığı milli-mənəvi dəyərləri ilə sintez olunaraq gözəl bir nümunə təşkil etmişdir. Məhz bu hadisədən sonra Azərbaycan mədəniyyəti daha da inkişaf etmiş və İslam dünyasına öz töhfələrini vermişdir.

Bütün bunlara görədir ki, Azərbaycan xalqı tarix boyu tolerant və multikultural dəyərlərə sahib olmuş, cəmiyyətdə yaşayan bütün etnos, din, konfessiya, təriqət və cərəyanlara dözümlü yanaşmışdır. Bu tendensiyanı xalqımızın böyük şair və mütəfəkkirlərinin yaradıcılığında müşahidə etmək mümkündür. Bəhmənyardan Axundova, Nizamidən Füzuliyə, Həsən bəy Zərdabidən Ə.Hüseynzadə və Hacıbəylilərə qədər, Azərbaycan xalqının bütün şair, alim və filosoflarının yaradıcılğında bu tendensiyanı görə bilərik.

Bu topluda Bəhmənyar Azərbaycani, Eynəlqüzat Miyanəçi, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Seyid Yəhya Bakuvi, Nəcməddin Naxçıvani, Sədrəddin Şirvani, Məhəmməd Qarabağı, Məhəmməd Fizuli, M.F.Axundzadə, Həsən bəy Zərdabi, Seyyid Əzim Şirvani, Nəriman Nərimanov, Yusif Vəzir Çəmən-

zəminli, Cəlil Məmmədquluzadə, Əhməd bəy Ağaoğlu, Zeynalabidin Şirvani, Əlibəy Hüseynzadə və başqa Azərbaycan alim, mütəfəkkir və maarifçilərinin yaradıcılığında multikultural və tolerantlıqla əlaqədar düşüncələri təqdim olunur.

"Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının nəşrindən sonra hazırda təqdim olunan "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları" antologiyası bütün mənalarda bir-birini tamamlayır. Düşünürük ki, "Azərbaycan multikulturalizminin qaynaqları" seriyasının gələcəkdə nəşr olunacaq üçüncü kitabı "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqlrı" antologiyası da bütövlükdə Azərbaycan multikulturalizmi haqqında dolğun məlumatlar ehtiva etməklə dünya multikulturalizminə öz töfəsini verəcəkdir.

ƏDƏBİYYAT

1. Авеста в русских переводах (1861-1996) / Сост., общ. ред., примеч., справ. разд. И.В.Рака. СПб.: Журнал “Нева”, РХГИ, 1997, 480 с.

2. Qurani-Kərim və Azərbaycan dilinə tərcümə, Vasim Məmmədəliyev və Ziya Bünyadov, “Şərq-Qərb” Nəşr, Bakı.

3. Nəsirəddin Tusi, “Əxlaqi Nasiri”: Tərcümə: Rəhim Sultanov, Bakı, Elm, 1989.

4. Библия / Синодальный перевод. М.: Российское Библейское общество, 2013.

5. Nizami Gəncəvi, “Sirlər xəzinəsi”ndə: Tərcümə: Xəlil Yusifli, Bakı, “Adiloğlu”, 2011.

6. Nizami Gəncəvi, “Xosrov və Şirin”: Tərcümə: Rəsul Rza, Bakı, “Yazıçı”, 1983.

7. Nizami Gəncəvi, “Siyasətnamə”: Bakı, “Elm”, 1989.

8. Xacə Nəsirəddin Tusi, “Əxlaqi-Nasiri”. Bakı, Elm, 1980.

9. Məhəmməd Füzuli, “Mətləül-Etiqad”. // Əsərləri. Beşinci cild. Bakı: *Elm* nəşriyyatı, 1985.

10. М. Казем Бек. “Мифология персов до Фирдоуси” // Избранные произведения. Баку: Элм, 1985.

11. Aytək Zakirqızı (Məmmədova). Nəsirəddin Tusinin dünyagörüşü. Bakı, Elm, 2000

12. Abbasqulu Ağa Bakıxanov, “Seçilmiş əsərləri”, “Avrasiya-Press”, Bakı, 2005.

13. М.Казем Бек. “Мюридизм и Шамиль” // Избранные произведения. Баку: Элм, 1985.

14. М.Казем Бек. “О появлении и успехах восточной словесности в Европе и упадке ее в Азии “// Избранные произведения. Баку: Элм, 1985.

15. Kemal Kemaloğlu // http://www.dergahecan.com/e_kitap_dosyalar/cavidanname.html

16. İsmail bəy Qutqaşınlı əsərləri. Tərtib edəni və elmi redaktoru: Ədalət Tahirzadəş. –Bakı: Lider, 2005.

17. Mahmud Şəbüstəri, “Gülşəni-Raz” / Fars dilindən tərcümə edən: Rüstəm Tofiq. Bakı, “Elm və təhsil”, 2013.

18. Əhməd bəy Ağaoğlu, "Şiə dinində məzdəki inancları". Bakı: Letterpress, 2007.
19. Teymuroğlu Əmir, "Nəriman Nərimanov və türk xalqları". Bakı: "Nurlar", 2006.
20. Nəriman Nərimanov, "Seçilmiş əsərləri". Tərtibçi: Teymur Əhmədov. – Bakı: Lider, 2004.
21. Yusif Vəzir Çəmənzəminli, " Əsərləri". – Bakı: "Avrasiya Press", 2005.
22. Əli bəy Hüseynzadə, "Seçilmiş Əsərləri". – Bakı: "Şərq-Qərb", 2007.
23. Yəhya Sührəverdi, "İşıq heykəlləri", Tərcüməci- Z. C. Məmmədov. -Bakı: Elm, 1989.
24. Şihabəddin Sührəverdi, "Filosofların görüşləri", (Tərcüməci- Z.C. Məmmədov). – Bakı: "Elm", 1986.
25. Zakir Məmmədov, "Siracəddin Urməvi", Azərbaycan fəlsəfə tarixi. – Bakı: Şərq-Qərb, 2006.
26. Zakir Məmmədov. Azərbaycan fəlsəfə tarixi. - Bakı: Şərq-Qərb, 2006.
28. Əhməd bəy Ağaoğlu, "Şiə dinində məzdəki inancları". Bakı: Letterpress, 2007.
29. Əhməd bəy Ağaoğlu, "İslam, axund və hatifülqeyb" // Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2007.
30. Əhməd bəy Ağaoğlu," Mən kiməm?" // Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2007.
31. ara Aşurbəyli," Şirvanşahlar Dövləti". Bakı: Azərnəşr, 1997.
32. İmadəddin Nəsimi, "Seçilmiş əsərləri: I cild, II cild." Bakı: "Lider", 2004.
33. Бахманйар аль-Азербайджани, "Ат-Тахсил" ("Познание"). Баку, Кн. 1, 1983.
34. Xaqani Şirvani," Seçilmiş əsərləri". "Lİder nəşriyyat", Bakı, 2004.
35. Seyid Yəhya əş-Şirvani əl-Bakuvi, "Şəfa əl-Əsrar", haz: Mehmet Rıhtım, Elm, Bakı, 2010.
36. Fəridə Əliyeva, "Seyid Yəhya Bakuvinin Əhli-beyt sevgisi, Azərbaycan və əhli-beyt irsi" (Məqalələr toplusu). Bakı: "Elm və təhsil", 2013.

37. F.Köçərli,” Seçilmiş əsərlər”i. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1963.

38. Məhəmməd Hadi,” Seçilmiş əsərləri!: Bakı -“Şərq-Qərb”, 2005.

39. Rəsulzadə M .Ə.”Əsərləri, IV cild”: Bakı- Qanun Nəşriyyatı, 2013.

40. Sara Aşurbəyli, “Rəşid Baküvi Azərbaycanın XV əsr alim-geoqrafı“//Известия Академии Наук Азербайджанской ССР. Серия общественных наук, N 5 – 1958.

41. “Бустас ас-Сийахат и Рийаз ас-Сийахат” // История Азербайджана. Баку: Элм, 1995.

42. Şeyx İbrahim Gülşəni, “Divan”. Baki: “Avrasiya Press”, 2006.

43. Mustafa Çağrıcı,” Huneci” // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, cilt: 18.

44. Ramazan Altıntaş, “Şirvani Sedreddinzade”// Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, Cilt 39.

45. Ömer Mahir Alper” Karabağı, Muhyiddin b. Ali el-Karabağı er-Rumi el-Hanefi” // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, Cilt 24.

46. İbnul İbri, “Tarihu muhtasari`d-duvel” // (tərc: Şerefeddin Yaltkaya), İstanbul 1941.

47. İbn Bibi,” Evemirul Alaiyye” //(tərc: Mürsel Öztürk), Ankara 1996.

48. Rəşad İlyasov, “Tanrı aşiqi insani-kamil: Seyyid Nigarinin düşüncə sistemi” Bakı: Mütərcim, 2016.

49. Əhməd Əfəndi Taşköprüzadə, “əş-Şəqaiqu`n-numaniyyə fi uləmai`d-dovləti`l-osmaniyyə” // (nəşr. Ahmet Suphi Furat), İstanbul Universiteti Ədəbiyyat fakültəsi nəşr, 1985.

50. Katib Çələbi, “Kəşfu`z-unun an əsami`l-kutub və`l-funun”. İstanbul:Dərsaadət nəşr, I cild.

51. Bursalı Mehmed Tahir, “Osmanlı müellifleri”. İstanbul: Matbaai Amire nəşr, I cild.

52. Bağdatlı İsmail Paşa, “Hədiyyətu`l-Arifin”. Məkkə: əl-Məktəbətu`l-Faysaliyyə nəşr, I cild.

53. Şəmsəddin Səhavi, "Əd-Dav`ul-Lami". Beyrut: Daru`l-Məktəbəti`l-Həyat nəşr, VI cild.

54. Cemil Akpınar, "Fethullah Şirvani". Dyanet İslam Ansklopedisi. İstanbul:1995, XII cild.

55. Xeyrəddin Ziriqli," əl-Alam", VII cild.

56. Ömər Rıza Kəhhalə," Mucəmu`l-Muəllifin". Şam:1960, VII cild.

57. Ali Haydar Bayat, "Yüzyıl Osmanlı Tıbbının Büyük Ustadı Muhammed bin Mahmud Şirvani(1375-1450) Hayatı və Eserleri", Kubbealtı Akademi jurnalı, Sayı-4, Oktyabr-1996.

58. Taşköprüzadə," əl-Şaqaiq əl-Numaniyyə" // naşir. Əhməd Subhi Furat.

59. M.S. Nemət," Azərbaycan pirləri". Bakı: Elm nəşriyyatı, 1992.

60. Süleymaniyyə kitabxanası, Esad Efendi no- 4080.

61. Sadık Albayrak," Son devir Osmanlı Uleması". İstanbul, 1980.

Osman Turan," Türkiye Selcukluları Hakkında Resmi Vesikalar". Ankara, 1958.

62. Süheyl Ünver," Selçuk Tababeti". Ankara, 1940.

63. Gönül Cantay," Anadolu Selçuklu ve Osmanlı Daruşşifaları". Ankara, 1992.

64. Şehabeddin Uzluk, "Mevlananın Tabibleri, Ekmeleddin Müeyyet-Beyhekim ve Gazanfer", Selçuk Universitesi, İ. Milletlerarası Mevlana Kongresi. Konya,1987.

65. Əhməd Əflaki," Ariflerin menkibeleri" //tərc. Tahsin Yazıcı. İstanbul, 1973.

66. Mevlana Celaleddin," Mektublar" // tərc. Abdülbaki Gölpınarlı, İstanbul 1963.

MÜNDƏRİCAT

Ön söz 3

I Fəsil
DİNİ MƏTNLƏRDƏ MULTİKULTURALİZM 9

Avestada multikulturalizm elementləri.....11
Bibliyada multikultural ideyalar.....14
Qurani-Kərimdə multikultural dəyərlər 21

II Fəsil
ORTA ƏSR AZƏRBAYCAN FİKİR TARİXİNDƏ MULTİKULTURALİZM 35

Əbülhəsən Bəhmənyar əl-Azərbaycani 38
Eynəlqüzat Miyanəci 40
Xaqani Şirvani.....43
Nizami Gəncəvi.....45
Şəhabəddin Yəhya Sührəvərdi.....49
Siracəddin Mahmud İbn Əbubəkr Urməvi 53
Nəsirəddin Tusi 58
Nəcməddin Naxçıvani.....65
Əkmələddin Müəyyəd Naxçıvani 67
Mahmud Şəbüstəri.....71
Hinduşah Naxçıvani.....74
Fəzlullah Nəimi 76
Yusif Müskiri Şirvani.....80
İmadəddin Nəsimi 83
Məhəmməd Şirvani.....86
Seyid Yəhya Şirvani (Bakuvi).....91

Fəthullah Şirvani 93
Seyid İbrahim Gülşəni.....97
Kəmaləddin Şirvani 100
Məhəmməd Füzuli.....102
Məhəmməd Sədrəddin Şirvani 106
Məhəmməd Qarabağı.....109
Yusif Məhəmmədcan Qarabağı 111
Əbdürrəşid əl-Bakuvi.....113
Hacı Zeynalabidin Şirvani 116
Seyid Həmzə Nigari 119

III Fəsil
XIX-XX ƏSR AZƏRBAYCAN MAARİFÇİLƏRİ, PUBLİSİSTİKASI VƏ MULTİKULTURALİZM..... 122

Abbasqulu Ağa Bakıxanov 125
Mirzə Kazım Bəy.....130
İsmail Bəy Qutqaşınlı 134
Mirzə Fətəli Axundzadə.....137
Hüseyn Qayıbov 142
Seyid Əzim Şirvani 144
Həsən Bəy Zərdabi.....147
Cəmaləddin Əfqani.....151
Məhəmməd ağa Şahtaxtlı 156
Molla Ruhulla Məhəmmədzadə 159
Mir Məhəmməd Kərim əl-Bakuvi 163
Nəcəf bəy Vəzirov.....166
Firudin bəy Köçərli 170
Əlibəy Hüseynzadə 173
Əlimərdan bəy Topçubaşov 176

Haşım bəy Vəzirov 179
Cəlil Məmmədquluzadə 182
Əhmədbəy Ağaoğlu.....187
Nəriman Nərimanov 192
Əbdürrəhim bəy Haqverdiyev.....195
Axund Ağa Əlizadə 199
Ömər Faiq Nemanzadə 201
Süleyman Sani Axundov.....204
Məhəmməd Hadi 206
Abdulla Şaiq.....209
Abdulla Sur.....212
Əliabbas Müznib 215
Salman Mümtaz 218
Məhəmməd Əmin Rəsulzadə.....220
Xədicə Əlibəyova 223
Üzeyir Hacıbəyli.....225
Seyid Hüseyn.....228
Yusif Vəzir Çəmənzəminli.....230
Cəfər Cabbarlı.....233

NƏTİCƏ.....236
ƏDƏBİYYAT 239



BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ

BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

«RS Poliqraf» MMC-nin mətbəəsində
çap olunmuşdur.

Çapa imzalanıb: 02.02.2021. Format: 60x90 1/16.
Qarnitur: Palatino Linotype. Həcmi: 15,5 ç.v. Tiraj: 300.
Qiyməti razılaşma yolu ilə.

«RS Poliqraf» MMC
Bakı şəh., A.Məmmədov küç., 113
Tel./faks (+994 12) 437 08 20

ISBN: 978-9952-28-522-2

